# ELMİ İŞ

beynəlxalq elmi jurnal

# SCIENTIFIC WORK

International scientific journal

www.aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

**AZƏRBAYCAN RESPUBLİKASI**

---

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 1.790**

**Cild: 16 Sayı: 6**

# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 1.790**

**Volume: 16 Issue: 6**

**Bakı – Baku**
**2022**

Jurnal 25.04.2007-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr № 2212

On 25.04. 2007, the journal was included in the register of Press publications of the Ministry of Justice of the Azerbaijan Republic. Registration № 2212

Azərbaycan Mətbuat Şurası

Azerbaijan Press Council

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 805 67 68
+994 12 510 63 99

**e-mail:**
elmmerkezi@gmail.com

## Beynəlxalq indekslər / International indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10. 36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© www.aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYİNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCİD İD 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCİD İD 0000-0002-5274-0356

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Dilbər CAMALI**
dilber.mehdiyeva@gmail.com

**Assistant editor:**
**Dilber DJAMALI**
dilber.mehdiyeva@gmail.com

**Redaktor köməkçisi:**
**Səidə ƏHMƏDOVA**
seide-86@mail.ru

**Assistant editor:**
**Saidah AHMADOVA**
seide-86@mail.ru

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV** / Azərbaycan dili
**Prof. Dr. Abbas ABBASOV** / İngilis dili

**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV** / Azerbaijan language
**Prof. Dr. Abbas ABBASOV** / English language

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA /** Humanitar və ictimai elmlər
**Prof. Dr. Məhəbbət DƏMİRÇİYEVA /** Humanitar və ictimai elmlər
**Assoc. Prof. Dr. Elza ORUCOVA /** Təbiət elmləri
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri
**Prof. Dr. Əli ZALOV /** Təbiət elmləri
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV /** Təbiət elmləri
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri

**Editors in scientific fields**

**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA /** Humanities and social sciences
**Prof. Dr. Mahabbat DAMIRCHIYEVA /** Humanities and social sciences
**Assoc. Prof. Dr. Elza ORUJOVA /** Nature sciences
**Dr. Fuad RZAYEV /** Nature sciences
**Prof. Dr. Ali ZALOV /** Nature sciences
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV /** Nature sciences
**Prof. Dr. Yashar MEHRALIYEV /** Exact sciences
**Assoc. Prof. Dr. Shahlar BABAYEV /** Technical sciences

**REDAKSİYA HEYƏTİ**

**Humanitar və ictimai elmlər bölməsi**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV,** "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Universiteti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şirindil ALİŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan

**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. İsmayıl KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Rəfail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Assos.prof, Losefina BLAZSANI-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Ruminya
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

**Təbiət elmləri bölməsi**

**Prof. Dr. İradə HÜSEYNOVA,** AMEA, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu / Azərbaycan
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. İbrahim CƏFƏROV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. Afət MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Şahanə MAMEDOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. İbrahim MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Bilal BUSRA,** Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Məhiyəddin MEHDİYEV**, Mingəçevir Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

**Dəqiq elmlər bölməsi**

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Məsud ƏLİYEV,** “Helmholtz” Elmi-Tədqiqat Mərkəzi / Almaniya
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya tədqiqat Institutu / Böyük Britaniya
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr.Yalçın ƏFƏNDİYEV,** Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç
**Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ**, AMEA Şəki Regional Elmi Mərkəzi / Azərbaycan

**Texnika elmləri bölməsi**

**Prof. Dr. Əminağa SADIQOV**, AMEA İdarəçilik Sistemləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəlil KƏLƏNTƏR,** Tohoku Universteti / Yaponiya
**Prof. Dr. Qərib CALALOV**, AMEA Geologiya və Geofizika İnstitutu / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yasin RÜSTƏMOV**, AMEA, Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan

## EDITORIAL STAFF

### Humanities and social sciences section

**Prof. Dr. Mohsun NAGISOYLU**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, “Silk Road” International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University/Azerbaijan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIAUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Nigar VALİYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. İsmail KAZİMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Meherrem MAMMADLİ**, Baku State University / Azerbaijan
**Prof. Dr. Elshad MIRBASHIR OGLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University /Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers’ Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Dr. Agshin ALİYEV,** Beijing Foreign Studies Universsity / The Republic of Chine
**Assos.prof,** Losefina BLAZSANI-BATTO, Romanian Languge and Cultural Center / Romania
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

### Natural sciences section

**Prof. Dr. Irada HUSEYNOVA**, Institute of Molecular Biology and Biotechnology of ANAS / Azerbaijan
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Ibrahim JAFAROV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey

**Prof. Dr. Afat MAMMADOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Shahana MAMEDOVA**, / Technical University of Berlin / Germany
**Prof. Dr. Ibrahim MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office/ İndia
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Bilal BUSRA,** Ali Jinnah University / The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahiyaddin MEHDIYEV**, Mingachevir State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

**Exact sciences section**

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Masud ALIYEV**, “Helmholtz” Scientific Research Center / Germany
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr.Yalchın AFANDİYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden
**Assoc. Prof. Dr. Yusif SHUKURLU**, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan

**Technical sciences section**

**Prof. Dr. Aminagha SADIGOV**, Institute of Management Systems of ANAS / Azerbaijan
**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Garib JALALOV**, Institute of Geology and Geophysics of ANAS / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yasin RÜSTƏMOV**, İnstitute of Soil Science and Agrochemistry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A. Navai / Uzbekistan

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/7-12

**Hörmət Qənbərəli Cavadova**
Bakı Dövlət Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
cavadova22@mail.ru
**Gülzar Qənbərəli Xanbabayeva**
filologiya üzrə fəlsəfə doktoru
cavadova22@mail.ru

## MÜASİR PEDAQOGİKANIN METODOLOJİ PROBLEMLƏRİ

**Xülasə**

Məqalədə metodologiya termininin mahiyyəti və məzmunu təhlil edilir, metodologiya ilə elmin əlaqəsinin müəyyən edilməsinə və bu əlaqənin dialektik tərəflərinin açılmasına daha çox diqqət yetirilir. Müəlliflər tədris reallığının və pedaqoji fəaliyyətin təkmilləşdirilməsinə metodologiyanın təsirinin əsas amillərini araşdırır, pedaqoji elmin məzmununun formalaşdırılmasında metodologiyanın rolunu müəyyənləşdirir. Məqalədə təsdiq olunur ki, tədris prosesinin təkmilləşdirilməsi və onun əsas komponentlərinin öyrənilməsi müəllimin metodik mədəniyyətindən asılıdır.
***Açar sözlər**: pedaqogika, təhsil, təlim, metodologiya, müəllim, pedaqoji fəaliyyət*

**Hormat Qanbarali Javadova**
**Gulzar Qanbarali Khanbabayeva**

## Methodological problems of modern pedagogy

**Abstract**

The article analyzes the nature and the content of the term “methodology”, and concludes that so far there is no clear approach to the notion definition. Much attention is paid to determine the relationship between methodology and science, and to reveal dialectical aspects of this relationship. The author studies the main factors of methodology influence on improving teaching reality and pedagogical activity, and defines the role of methodology in forming the content of pedagogical education. It is proved that the improvement of the educational process and study of its main components depends on methodological culture of a teacher.
***Key words**: pedagogy, education, training, methodology, teacher, pedagogical activity*

### Giriş

Pedaqogika ən qədim elmlərdəndir və elmlər işərisində özünəməxsus yeri vardır. Hər bir elmin özünə məxsus davamlılıq və inkişaf qanunları, ümumi və xüsusi qaydaları, tədqiqat obyekti, kateqoriyalar mexanizmi vardır. Bu, tam olaraq dinamik elm olan pedaqogikayaya da aiddir, çünki, bu elm, müəllimə təhsil qanunları və qaydaları, təhsil reallığı və praktikasının əsas suallarına düzgün cavab tapmaqda kömək edir. Belə ki, bu gün ən vacib məsələ, ilk növbədə müasir təhsilin məzmununun konseptuallaşdırılması ilə bağlı bir çox müəyyən edilmiş pedaqoji yanaşmaları nəzərdən keçirməkdir.Bundan başqa qeyd etmək lazımdır ki, pedaqogika öz müstəqil fəaliyyət statusuna malik olsa da, fəlsəfə, sosiologiya, məntiq və b. elmlərlə sıx əlaqəli olduğuna görə şübhəsiz ki, həm də onların təsirinə də məruz qalır. Fikrimizcə, pedaqoji metododologiya müasir pedaqogikanın bu və ya digər mürəkkəb məsələlərini həll etməyə kömək edir.

Pedaqoji metodologiya problemləri xeyli sayda yerli və xarici alimlər tərəfindən tədqiqedilmişdir. H. Əlizadə, L.Qasımova, M.İsmmixanov, S.Honçarenko, V.Kosolopov, S.Moçerniya, V.Rubalka,

M.Savçun, D.Steçenko, S.Farenık, Y.Babanskiy, A.Mudrik metodologiya anlayışının mahiyyətini və məzmununu aydınlaşdırmaqla yanaşı, həm də metodologiyanın elmi tədqiqatlarda, ali və orta təhsilin fəaliyyət sistemində rolu və yerinin müəyyənləşdirilməsinə də diqqət yetirmişlər. Onlar şəxsiyyətin formalaşmasında pedaqoji metodologiyanın vacibliyini müəyyənləşdirməyə çalışmışlar.

M.Veber, V.Zavyazinski, M.Kahan, M. Krayevski, L.Mikeshyna, V.Okon, A.Novikov, B.Russel, Y.Searle, B. Serikov və b. metologiya və kreativlik, qarşılıqlı anlaşma, təhsilin inkişafı proqnozları arasındakı qarşılıqlı təsir məsələlərini təhlil etmişlər.

Metodologiya anlayışının izahına dair qeyri-müəyyən, hətta ziddiyyətli fikirlər vardır. Elmi mənbələrin təhlili göstərir ki, metodologiya anlayışının dərk edilməsində və müəyyənləşdirilməsində müxtəlif yanaşmalar mövcuddur. D. Sreçenko və O. Çturin fikrincə metodologiya dərk etmə metodunun fəlsəfi tədqiqidir. Geniş mənada metodologiya elmin strukturu, onun iş üsullarını dərk etmək vasitəsidir, dar mənada isə müəyyən bilik sahəsində işlədilən qaydalar, metodlar, texniki vasitələrin və tədqiqat prosedurlarının məcmusudur”(Stechenko, Chmyr, 2007:82).

Müasir dövrdə alimlər pedaqoji metodologiyanın tərifini daha geniş şərh etmişlər.Xüsusilə, məşhur pedaqoq-metodist V. Krayevski metodologiyanın üç səviyyəsini müəyyənləşdirmişdir: bunlardan birincisinə fəlsəfi bilik aiddir, ikinci səviyyəni ümumi elmi biliklər təşkil edir, üçüncü səviyyə isə xüsusi elmi biliklərlə xarakterizə olunur. Beləliklə, alimlərin fikrincə pedaqoji metodologiyanın aşağıdakı səviyyələrindən danışmaq olar: a) ümumi fəlsəfi; b)ümumi elmi; c)xüsusi elmi.

V.Krayevski qeyd edirdi ki, bəzi tədqiqatçılar metodoloji tədqiqatın texnika və texnologiyası ilə formalaşan dördüncü səviyyəsini də fərqləndirirlər. O.M.Danilov pedaqoji metodologiyaya “Pedaqoji metodologiya pedaqoji nəzəriyyənin əsaslarına və strukturuna əsasən pedaqoji reallığı əks etdirən biliyin əldə edilməsinin yanaşma və metodunun prinsiplərinə dair biliklər sistemidir” kimi tərif vermidir. O, daha sonra əvvəlki fikrinə sadiq qalaraq bu tərifə “proqramların,məntiq və metodların əsaslandırılması, xüsusi elmi pedaqoji tədqiqatın keyfiyyətinin qiymətləndirilməsi ilə bağlı fəaliyyət sistemi”ni əlavə etmişdir (Krayevskiy, 2006:17-18).

Akademik S. Hončarenko qeyd edir ki, “metodologiya” termini əsasən həyatdan uzaq mücərrəd bir şey kimi qəbul edilir. Amma əslində bu fikir düzgün deyil. Elmi tədqiqatın strategiyasını, forma və üsullarını müəyyən edən metodologiyadır. Alim qeyd olunan konsepsiyanın müəyyənləşdirilməsində də səviyyəli yanaşmaya əməl etmişdir. O, eyni zamanda metodologiyanın funksional əhəmiyyətini vurğulamışdır. Metodologiya pedaqoji nəzəriyyənin struktur yanaşma prinsipləri və təhsil reallığını əks etdirən biliklərin əldə edilməsi üsulları haqqında biliklər sistemi,belə biliklərin əldə edilməsinə və proqramların, məntiq və metodların əsaslandırılmasına, xüsusi elmi pedaqoji tədqiqatların keyfiyyətinin qiymətləndirilməsinə yönələn fəaliyyət sistemi kimi səciyyələndirmişdir (Honcarenko, 2008: 499).

S. Hončarenko qeyd edir ki, bu tərifdə pedaqoji nəzəriyyənin strukturuna, biliyin mənimsənilməsinin prinsip və üsullarına aid biliklər sistemi ilə yanaşı, tədqiqatçının bilik əldə etməyə yönəlmiş fəaliyyət sistemi də xüsusi vurğulanır. Beləliklə, metodologiyanın predmeti pedaqoji reallıqla onun pedaqoji elmdə əks olunması arasında korrelyasiya rolunu oynayır.Yuxarıda qeyd olunanlar göstərir ki, V.Krayevski ilə S. Hončarenkonun yanaşmaları demək olar ki, eynidir.

Polşa alimi V.Okon metodologiya anlayışını müəyyən edərək tədqiqata hazırlıq vasitələrini, tədqiqatın özünü və onun nəticələrinin öyrənilməsini əhatə edən elmi reallıq metodları haqqında elm olması mövqeyini tutmuşdu (Okon, 2004:246).

Bu gün ümumi şəkildə formalaşmış bir fikir vardır ki, pedaqogika elmi təhsillə məşğul olan yeganə elmdir, buna görə də təlim və tərbiyə elmidir. Bu o demək deyildir ki, başqa elmlər müasir pedaqogikanın müəyyən problemlərini öyrənmir. Bu gün pedaqoji antropologiya, hermenevtika, fenomenologiya, sinergetika, və s. elmi status qazanaraq elmi biliklərdə (metodologiya səviyyəsində) güclü şəkildə istifadə olunur. Lakin, ümumi pedaqogika təhsil və təlim ilə məşğul olan yeganə, xüsusi elmdir. Bu onunla bağlıdır ki, pedaqogika bir elm kimi təhsil problemlərini bütövlükdə öyrənir. Sosiologiya elmi də sosial instutut olan təhsil sistemini,onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını, cəmiyyətlə qarşılıqlı təsirini öyrənir (Vahidov, Ağayev, 2018:316). Lakin sosiologiya elmi bütövlükdə cəmiyyəti və onun inkişafı qnunauyğunluqlarını öyrəndiyindən, cəmiyyətin bütün sferaları bu elmin tədqiqat obyektidir. Sosiologiya elmindən fərqli olaraq pedaqogika üçün təhsil, təlim və tərbiyə yeganə tədqiqat obyektidir.

S.Honçarenko bildirir ki, pedaqogikanın obyekti pedaqoji məqsəd və insanın sosial inteqrasiyasına pedaqoji rəhbərliklə səciyyələnən, şəxsiyyətin sosial identikliyinin müyyən edilməsidir. Alim qeyd edir ki, pedaqogikanın predmeti cəmiyyətdə insan tərbiyəsidir. Amma bu gün daha məqsədəuyğun və "...pedaqogikanın predmetini insan şəxsiyyətinin formalaşması və inkişafının mahiyyətinin öyrənilməsi və bu əsasda xüsusi təşkil olunmuş pedaqoji proses kimi təhsil nəzəriyyəsi və metodologiyasının işlənməsi hesab etmək düzgündür (Honcharenko, 2008:645). S.Honçarenko izah edir ki, bu tərif tədqiqatçıları və müəllimləri praktiki öyrənməyə və fərdiyyətin inkişafı prosesini və bu inkişafla təhsil arasında mövcud olan dərin asıllıqları hərtərəfli dərk etməyə yönəldir.

Hər hansı tədqiqat və pedaqoji reallıq, problemin təhlilindən başlayır.Bu gün o, nəinki, çoxşaxəlidir, həm də çox mübahisəlidir: o proqressiv və reqressiv, humanist və qeyri humanist, kamil və qeyri kamil, ənənəvi və yenilikçidir. Hegel reallığı ruh aləmi hesab edir və həqiqətən də, onu biri digərini maraqlar və mövzularla tamamlayan "rəngarəng xalçaya" bənzədir (Gegel,1990:645).

Bu gün reallıqdakı pedaqoji təhsil sistemində ortaya çıxan ziddiyyətlərin həlli üçün onun hüquqi dəstəyə ehtiyacı vardır. Pedaqoji ideallar və reallıq, təhsil prosesi subyektlərinin formal azadlığı və real azadlığın olmaması, pedaqoji kadrların keyfiyyətcə hazırlığına cəmiyyətin ehtiyacı və hazırlığın qeyri-kafi səviyyəsi, cəmiyyətdə müəllimin statusu və sosial rolu baxımından onun kifayət qədər uyğunsuzluğu, ənənəvi və innovativ formalar arasındakı tədris metodları istiqamətində mövcud uyğunsuzlugun aradan qaldırılması zəruri problemlərdir. Bu ziddiyyətlərin məcmusu arasında alim-metodist əsas olanları tanımalı və ayırmalıdır; onların həlli bu reallığın təkmilləşdirilməsinə kömək edəcək, gələcək təhsil reallığının həqiqi mütərəqqi, humanist formalar əldə etməyə imkan verən belə bir sistemi simulyasiya etməyi mümkün edəcəkdir.

Pedaqoji nəzəriyyələrin və tədris təcrübəsinin retrospektiv təhlili aydın göstərir ki, müxtəlif dövrlərin və cəmiyyətlərin ən yaxşı müəllimləri həmişə yüksək təhsil ideallarına meyl etmişlər. Onların əsas məqsədi yüksək savadlı, hərtərəfli inkişaf etmiş, humanist dünyagörüşünə malik, cəmiyyətin mənafeyi naminə zəhmət çəkməyin zəruriliyini dərk edə bilən, başqalarının nüfuzunu qazanan insan hazırlamaqdır. Təcrübə göstərir ki, avtoritar cəmiyyətlərdə bu idealları reallaşdırmaq mümkün deyildi.Bunlar yalnız qismən həyata keçirilib. Problemin bu tərəfi görkəmli pedaqoq H.Vaşşenkonun diqqətini çəkmişdi. O, xristian təhsil idealının mahiyyətini və məzmununu əsaslandırmış və onu komunist idealına qarşı qoymuşdur (Vashchenko, 1991:191).

Reallıqda əxlaq normalarının və prinsiplərinin mahiyyətcə deformasiyaya uğradığı, qanuna məhəl qoyulmadığı yerdə, korrupsiya ən qabaqcıl təhsil və sosial idealları məhv edə bilər. Hegel öz dövründə bu vəziyyəti xarakterizə edərək reallığın idealları əvəz etməsi barədə yazırdı: "Hər kəs öz idealını yaradır, amma nəticədə insan tamamilə fərqli bir şey - öz idealına oxşamayanı əldə edir, onun idealı reallıqla əvəz olunur və o, idealı unudur"(Gegel, 1990:426 ).

Lakin belə şəraitdə də biz humanist pedaqoji ideallardan imtina edə bilmərik. Pedaqoji metodologiya bizi həyatda düzgün yola yönəltməyə, reallığın insana layiq olmasını təmin etməyə istiqamətləndirir. Bu o deməkdir ki, elmi biliklərin müasir metodlarından istifadə edən pedaqoji metodologiya alim-müəllimlərə reallığın təkmilləşməsinin həm daxili, həm də xarici amillərin öyrənilməsinə kömək etməlidir; pedaqoji ideallarin reallıqla "əvəz edilməsinin" qarşısını almaq üçün nə edilməli və nə edilməməli olduğunu müəyyən etmək, bununla da reallığı absurd illiziyaya çevirməkdən qorumaq lazımdır.

## Metodika və pedaqoji fəaliyyət

Gənc nəslin təhsil səviyyəsinin yüksəldilməsi bilavasitə pedaqoji kollektivin fəaliyyəti ilə bağlıdır.Təlimin keyfiyyətinin yüksəldilməsi məhz pedaqoji kadrların səmərəli və təsirli fəaliyyətindən asılıdır.Təhsil və təlimin idarə olunması kimi məsul ictimai funksiyanın aparıcı qüvvəsi olan pedaqoji kollektiv gənclərdə mütərəqqi təşəbbüslər, yaradıcı axtarışlar, yüksək ictimai amallar ruhunun tərbiyə olunmasına kömək etməli, onların dərin biliklərə yiyələnmələrinə, ictimai həyatın müxtəlif sferalarında məqsədyönlü, əsil vətəndaş kimi formalaşmasına səmərəli təsir göstərməlidir (Əfəndiyev, Şirinov, 2001: 210).

Pedaqoji fəaliyyət son dərəcə müxtəlif və hərtərəflidir. Fikrimizcə, bu fəaliyyət yalnız mənəvi duyğularla dolduqda dəyərlidir, insan yüksək məsuliyyətə malik olduqda, o pedaqoji fəaliyyətdə formalaşır. Hegelin "təhsil" anlayışının mahiyətini necə müəyyənləşdirdiyini xatırlayaq. Filosof öz

fikrini hədsiz dərəcədə ləyaqətlə ifadə etmişdir. "Pedaqogika insanları əxlaqlı etmək sənətidir; insanı təbii varlıq hesab edir və ona yol göstərir. Əgər ona əməl etsə, insan yenidən doğula bilər, öz əvvəlki təbiətini dəyişə, mənəvi cəhətdən yetkin birinə çevrilər və tədricən o buna vərdiş edər"( Gegel, 1990:382).

Sonralar bu fikri görkəmli psixoloq S.Rubinşteyn vurğulamışdır. Alim yazırdı: "Subyekt öz əməllərində, yaradıcı təşəbbüs aktlarında nəinki təzahür və aşkar olunur, həm də yaranır və müəyyən edilir. Ona görə də sən onun əməlləri hesabına onu müəyyən edib yarada bilərsən"( Rubinşteyn,1986:106).

Akademik İ.Zyazyun pedaqoji fəaliyyəti şagird-tələbə fəaliyyəti üzərində qurulduğu qədər metafəaliyyət kimi müəyyən etmişdir.

Müəllim öz peşə fəaliyyəti zamanı təkcə təhsil və tərbiyənin məqsədini müəyyən etmir, həm də bu məqsədin şagird və ya tələbə tərəfindən dərk edilməsinə və həyata keçirilməsinə çalışır (Zyazyun,1997:19).

Müəllimin başlıca vəzifəsi təlim prosesini idarə etmək, təhsil vermək, tərbiyə etmək, şagirdləri inkişaf etdirmək və formalaşdırmaqdan ibarətdir. O təkcə öyrətmir, tərbiyə etmir, həm də təlim prosesinə rəhbərlik edir, onu istiqamətləndirir. Məşhur yinan filosofu Sokrat vaxtilə peşəkar pedaqoqları "əqlin (fikrin) törədiciləri" adlandırmışdı (Qasımova, Mahmudova, 2005:159).

Fikrimizcə, hər bir ictimai fəaliyyətin məzmunu da daim dəyişir və yeni məna alır, bu baxımdan müəllimin funksiyaları da dəyişir. Müasir müəllimlər artıq funksioner ola bilməz, onları bilik, təcrübə və bacarıqla məhdudlaşdırmaq olmaz. Müəllimlərin vəzifəsi məntiqli şəxsiyyət formalaşdırmaqdır və bütün bunlar müəllimlərdən davamlı özünü təkmilləşdirməyi, gərgin zehni əmək və emosionallıq tələb edir. Pedaqoji fəaliyyət o zaman səmərəli ola bilər ki, müəllimlər təlimat və stsndartları yönləndirə bilsinlər, öz pedaqoji layihələri ilə yeni müəllif sistemi yarada bilsinlər. Yalnız bu şərtlə müəllimlər öz tələbələrində müsbət emosiyalar yarada bilər, onlarda özləri olma təcrübəsini aşılaya bilərlər və reallığı dərk etməkdə çətinliklərin öhdəsindən gəlməyi öyrədə bilərlər.

Müasir çəraitdə pedaqoji metodologiya praktiki pedaqoji fəaliyyətin bütün sistemlərinin qanunauyğunluqlarını və formalaşmasını müəyyn edən etibarlı bələdçisidir. Pedaqoji metodologiya kəmiyyət və keyfiyyət dəyişiklikləri əsasinda pedaqoji fəaliyyətin tənzimlənməsi və fəaliyyət göstərməsinin ən səmərəli mexanizmlərini sübut etməyə, pedaqoji fəaliyyətin mənəvi-mədəni kontekstini müəyyən etməyə, pedaqoji fəaliyyətin dəyər-semantik komponentlərini təhlil etməyə imkan verir.

Müəyyən biliyə malik olan müəllim-təcrübəçilər metodika üzrə öz pedaqoji fəaliyyətini əks etdirmək və tələbələrin uğur və uğursuzluqlarının səbəblərini müəyyən etmək, yeni tipli materialların mənimsənilməsi prosesində yaranan çətinlikləri araşdırmaq bacarığına malikdirlər.

Akademik V.Krayevski gələcək müəllimlərə lazım olan əsas metodoloji məsələləri ayırd etmişdir. Bunlar aşağıdakılardır: 1) səmərəli elmi-praktik pedaqoji fəaliyyətin ilkin şərti kimi metodoloji savadlılıq; 2) elm və tədris təcrübəsi kimi pedaqogika arasında vəhdət və bölgü; 3) pedaqoji elm və tədris təcrübəsi arasındakı əlaqə sistemində müəllim; 4) müəllim təcrübəsində tədqiqat metodları; 5) müəllimlərin öz fəaliyyətrini onun səmərəliliyinin şərti kimi dərk etməsi üçün zəruri olan elmi-pedaqoji biliklər; 6) problemlər sistemi müəllimin fəaliyyətinin məzmunu kimi; 7) problem metodik əks etdirmənin tərkib hissəsi kimi; 8) zehni eksperiment pedaqoji məqsəd probleminin həlli yolu kimi; 9) müəllimin metodik mədəniyyətinin pedaqoji metodologiyada əksi; 10) uzunmüddətli məqsədlər müəllimlərin öz iş sistemlərini layihələşdirmə mərhələlərindən biri kimi (Krayevskiy, 2006:129 ).

Hər hansı bir təhsil mürəkkəb sosial hadisədir, müəyyən elmlər, biliklər, praktiki bacarıqlar, bacarıqlar sisteminin fərdi olaraq mənimsənilməsi prosesi və nəticəsidir və bununla əlaqədar onun intellektual idrak, bədii fəaliyyətinin, habelə mənəvi-estetik mədəniyyətinin inkişafıdır. Pedaqoji təhsilin əsas məqsədi təhsil sahəsində işləmək üçün mütəxəssislər hazırlamaqdır. Pedaqoji təhsilin spesifikliji pedaqoji ünsiyyətin və pedaqoji prosesin subyekti kimi müəllimin peşəkar fəaliyyətinə və fərdiliyinə artan sosial tələblərlə müəyyən edilir. Buna görə də pedaqoji təhlil bir-biri ilə əlaqəli iki problem kompleksini həll etməyə yönəldilmişdir: ilk növbədə gələcək müəllimlərin dəyərli və sosial şəxsi inkişafına kömək etmək(onların fundamental, ümumi mədəni-mənəvi və sosial yetkinliyi), ikiuncisi,

onların peşəkar pedaqoji fəaliyyətdə inkişafına və ixtisaslaşmasına kömək etmək (Yevtukh, 2008: 646-647).

Pedaqoji təhsilin məzmunu ilk növbədə təhsilin ixtisas standartlarında, konsepsiyalarında öz real əksini tapır, cəmiyyətin və fərdin ehtiyacları ilə müəyyən edilir. Pedaqoji təhsilin məzmunu həm də təhsil müəssisəsinin növü və səviyyəsi, fənlərin məzmunu və şagirdlərin yaş xüsusiyyətləri ilə müəyyən edilir. Qeyd edək ki, ötən əsrin sonuncu rübündə biz, müəllim təhsilinin məzmununun müəyyənləşdirilməsində müxtəlif konsepsiyaların, paradiqmaların, yanaşmaların "şəlaləsini" müşahidə edirik, lakin hələ də yaxşı işlənmiş standartlar (köhnəlmiş standartlar istisna olmaqla) yoxdur. Onların bəziləri bir-biri ilə ziddiyyət təşkil edir və bütün bunlar fikrimizcə məntiqi olaraq demək olar ki, hər il təhsil baxımından səriştəsiz məmurların yaratdıqları "islahatçılıqdan"dan irəli gəlir. Təhsil sahəsində çalışan bir çox məmurlar tərəfindən təhsil sahəsindəki problemlərin zəif başa düşülməsi pedaqoji təhsilin məzmununun qurulmasında təkcə nəzəri cəhətdən deyil, həm də praktikada əhəmiyyətli itkilərə səbəb olur. Buraya bir fakt da əlavə olunur ki, milli pedaqoji təhsilin məzmununu düzgün müəyyənləşdirə bilməmək, başqasının təcrübəzinin doğma torpağa tənqidsiz ötürülməsinə səbəb olur ki, bu da nəinki məhsuldar deyil, həm də böyük fəlakətdir.

Əksinə, biz hesab edirik ki, hərtərəfli bilik və pedaqoji metodologiyadan ağıllı istifadə son dərəcə vacib məsələnin həllinə kömək edə bilər. Tam olaraq nə kömək edə bilər? Bu ilk növbədə pedaji təhsilin ümumi, mədəni və milli dəyərləri olan standartlarını doldurmağa kömək edə bilər.İkincisi, pedaqoji təhsilin məzmununu həm təhsil, həm də ictimai, pedaqojiləşdirmə ideyası ilə aydın şəkildə təsvir etməyə kömək edə bilər.

Üçüncüsü, vətəndaşların ekoloji mədəniyyətinin aşağı səviyyəsini və bununla bağlı böyük ekoloji problemləri nəzərə alınca, şəxsiyyətin ekoloji mədəniyyəti problemi hər bir pedaqoji mövzunun məzmununa daxil olardı.

Dördüncüsü, pedaqoji təhsilin məzmunu şəxsiyyətin sosiallaşması problemini daha konkret və ardıcıl şəkildə əks etdirməlidir. Bu müddəanın əsasını O.Budnikin monoqrafiyasında yüksək metodoloji səviyyədə sübut etdiyi kimi təhsil və tərbiyənin inkişaf-optimistik prinsipi götürülməlidir.

Beləliklə, tədris prosesinin təkmilləşdirilməsi, müəllim hazırlığı, tam inkişaf etmiş şagird/tələbə şəxsiyyətinin hazırlığı kimi problemlərin öyrənilməsi kimi bütün hadisələr müəllim-tədqiqatçıdan yüksək metodoloji mədəniyyət tələb edir (9).

Yuxarıda qeyd olunanların məzmunu göstərir ki, müəllimin metodik mədəniyyətə yiyələnməsi özlüyündə son deyil, o əldə edilmiş tədqiqat nəticələrinin həm tədqiqatçılar, həm də müəllim-təcrübəçilər arasında öz peşə fəaliyyətlərində yayılmasının təminatına kömək etməlidir

## Nəticə

1. Metodologiya, tədqiqat prosesini və nəticələrini araşdırır. Pedaqoji metodologiya pedaqoji tədqiqat prosesini və nəticələrini araşdırır: o pedaqoji elm və təcrübə arasında vəhdət yaratmağa kömək edir;
2. Pedaqoji metodologiyanın bir elm kimi əsas məqsədi pedaqoji reallığın və pedaqoji fəaliyyətin öyrənilməsidir;
3. Tədqiqatın nəticələri, onların əsaslılığı və praktikada aktuallığı birbaşa müəllimin metodik mədəniyyətinin səviyyəsindən asılıdır.

## Ədəbiyyat

1. Budnyk, O. (2014), Professional training of primary school teachers to social and pedagogical activity : theory and methods. Dnipropetrovsk.
2. Efendiyev, M. Shirinov A. (2001), Theoretical problems of Sociology. Baku: BSU
3. Gegel, G.(1990) Philosophy of law. Moscow: Mysl
4. Honcharenko, S. (2008), Methodology.Kiev: Ensyklopediya osvity.
5. Krayevskiy, V. (2006), The methodology of pedagogy: a new stage: textbook for students). Moskow: Akademy
6. Gasımova, L. Mahmudova, R. (2003), Pedagogy.Baku:Chashıoglu
7. Okon,V. (2004), New pedagogical dictionary. Warsaw: Academic Publishing House "Zak" 2004. - p. 246.

8. Rubinshteyn, S. (1986), Principles of creative initiative (To the philosophical foundations of modern pedagogy. Kiev: Psycological problems. № 4.
9. Stechenko, D, Chmyr, O. (2007), Methodology of scientific research: Textbook. Kiev: Znannya
10. Vahidov, F.Agayev, T.(2018), Baku: Polygraphy
11. Vashchenko, H.(1991), Educational ideal. Poltava: Poltavskiy visnyk
12. Yevtukh, M. (2008), Pedagogical education. Entsyklopedia of Educational. Kyiv
13. Zyazyun, I, Kramushchenko, L, Kryvonos, I. (1997), Art of teaching: Textbook. Kyiv: High School.


Göndərilib: 11.04.2022 Qəbul edilib: 16.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/13-19

**Ramazan Əzizxan oğlu Eyyubov**
Bakı Slavyan Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
eyyubov54@mail.ru
**Səbinə Elman qızı Əzizova**
Bakı Slavyan Universiteti
sabiazizova2001@gmail.com
**Şəhribani Əskər qızı Manafova**
Bakı Slavyan Universiteti
manafovashehri@gmail.com
**Dilarə Məmməd qızı Məmmədova**
Bakı Slavyan Universiteti
mamedovadilara2002@gmail.com

# İBTİDAİ SİNİFLƏRDƏ KƏMİYYƏTLƏRİN ÖLÇÜLMƏSİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

**Xülasə**

İşdə şagirdlərə ölçü elementlərinin öyrədilməsi ilə yanaşı, zəruri biliklərin mənimsədilməsi onların əqli inkişafları təmin edilir və idrak motivləri ilə formalaşır. Şagirdlərdə riyazi təfəkkürünün inkişaf etdirilməsində məsələnin rolu danılmaz faktdır. Əyaniliyin artırılmasında kəmiyyətə aid məsələlərin öyrədilməsi imkanları çox genişdir. Məsələ həllində kəmiyyətin öyrədilməsi məsələlərin modelinin qurulması məsələləri asanlıqla həll etməyə imkan verir. Kəmiyyət ölçmək üçün qabaqcadan qəbul edilmiş ölçü vahidi tətbiq edilir. Eyni bir kəmiyyət müxtəlif ölçü vahidləri ilə ölçülə bildiyindən, onun qiymətləri də müxtəlif ola bilər.

***Açar sözlər:*** *kəmiyyət, məsələ, məsafə, ölçü, sahə, sürət, yol*

**Ramazan Azizkhan Eyyubov**
**Sabina Elman Azizova**
**Shahribani Asker Manafova**
**Dilara Mammad Mammadova**

## Methods of teaching quantitative measurement in primary school

**Abstract**

In addition to teaching cildren the elements of measurement, the acquisition of the necessary knowledge ensures their mental development and is formed by cognitive motives. The role of the issue in the development of mathematical thinking in students is an undeniable fact. There are many opportunities to teach quantitative issues in increasing visibility. Quantitative learning in problem solving allows you to easily solve problems by building a problem model. A pre-accepted unit of measurement is used to measure quantity. since the same quantity can be measured in different units, its values can also be different.

***Key words***: *quantity, problem, distance, mmeasurement, area, speed, road*

## Giriş

İbtidaı siniflərdə əsas kəmiyyətlərin uzunluq, sahə, kütlə, tutum (həcm), vaxt, sürət kimi kəmiyyətlərin verilməsi. I-IV siniflərin riyaziyyat kursuna hesab materialı ilə yanaşı, cəbr-həndəsə, fizika astronomiya, təbiətşünaslıq elementləri də daxil edilmişdir və bu elementlərə aid olan anlayışlar, təriflər, qaydalar və xassələr əsasən intuitiv səviyyədə şagirdlərə öyrədilir. Aşkardır ki adlarını çəkdiyimiz elm sahələri də bilavasitə kəmiyyətlərlə əlaqədardır və riyaziyyat elminin də predmet kəmiyyətlər və onların ölçülməsidir. Şagirdlər: 1)bu kəmiyyətlər haqqında konkret təsəvvürlər əldə etməli, 2)onların ölçü vahidləri ilə tanış olmalı, 3)kəmiyyətləri ölçməyi bacarmalı, 4)ölçmə nəticələrini

adlı ədədlər şəklində ifadə etməyi (müxtəlif ölçü vahidləri ilə), 5)kəmiyyətlərin ədədi qiymətləri üzərində (adlı ədədləe üzərində) hesab əməllərini yerinə yetirməyi bacarmalıdırlar.

Azərbaycan dilində "kəmiyyət"-sözü biləvasitə "qiymət"mənasında işlədilir. Lakin kəmiyyət-real aləmdə mövcud olan obyektlərin ümumiləşdirilmiş xassəsini ifadə edir. əşya və hadisələrdən qiymətləri "böyükdür", "kiçikdir", "bərabərdir" münasibətləri ilə ifadə olunan kəmiyyət hesab olunur. Bu, o deməkdir ki, hər bir kəmiyyətin qiymətini tapmaq üçün onu ölçmək lazımdır. Ölçmə nəticəsi ədədlə ifadə olunur. Alınan ədədin bu və ya digər kəmiyyətə aid olması kəmiyyətin ölçüldüyü vahidin həmin ədədin sonunda yazılması ilə müəyyən olunur. Hər bir kəmiyyətin-onu başqa kəmiyyətdən fərqləndirən mühüm əlaməti olur. Kəmiyyət ölçmək üçün qabaqcadan qəbul edilmiş ölçü vahidi tətbiq edilir. Eyni bir kəmiyyət müxtəlif ölçü vahidləri ilə ölçülə bildiyindən, onun qiymətləri də müxtəlif ola bilər. Məsələn, 1 m və ya 10 dm və ya 100 sm. Buədədlərin hər üçü eynibir kəmiyyətin (obyektin) qiymətini göstərir.

Ölçmə bacarıqlarının formalaşması üçün müxtəlif məşqlər sistemi daxildir. Bu seqmentlərin ölçülməsi və çəkilməsidir; sualına cavab vermək üçün seqmentlərin müqayisəsi: bir seqment digər seqmentdən neçə santimetr uzundur (qısa); seqmentləri bir neçə santimetr artırmaq və azaltmaq. Bu məşğələlərin icrası zamanı şagirdlər müəyyən bir seqmentə uyğun gələn santimetrlərin sayı kimi uzunluq anlayışını formalaşdırırlar.

Daha sonra, 100 daxilində nömrələrin nömrələnməsini öyrənərkən yeni ölçü vahidləri - bir destimetr, sonra isə metr tətbiq olunur. İş bir santimetrlə görüşərkən olduğu kimi baş verir. Sonra ölçü vahidləri arasında əlaqə qurulur. Bu andan etibarən müvafiq seqmentlərin müqayisəsi əsasında uzunluqları müqayisə etməyə başlayırlar.

Cismin ölçüləri: uzunluğu, eni, hündürlüyü haqqında, enli, ensiz, qalın, nazik olması, uzundur, qısadır, kimi münasibətlər haqqında I sinifdən başlayaraq formalaşdırılır və inkişaf etdirilir. Uzunluq-kəmiyyətin mühüm xassəsidir. Məsələn, yolun uzunluğu, iki obyekt arasında məsafə, sinif otağının uzunluğu və s. İşin ikinci mərhələsində parçaların ölçülməsi üçün ilk ölçü vahidi santimetr (sm) daxil edilir və parçaları müqaisə edirlər. Uzunluğun xətkeşlə, ölçü lenti vasitəsilə ölçülməsi-şagirdlərdə praktik ölçmə vərdişləri yaradır. Hər dəfə xətkeş üzərindəki santimetrləri saymaqla və ya parçanın sonundakı ədədi oxumaqla, parçanın uzunluğunun neçə sm olduğunu müəyyən edirlər. Parçaların xətkeşlə ölçülməsi prinsipinə riayət etmək lazımdır: xətkeşin "0" bölgü nöqtəsini parçanın başlanğıc nöqtəsinə qoymaq və parçanın sonuna uyğun gələn ədədi xətkeşdə oxumaq lazımdır. Hər üç ölçü vahidi arasında münasibət göstərilir: 1m=10dm, 1dm=10sm, 1m=100sm.

Onluq say sistemində nömrələmə ilə bu ölçü vahidləri arasında əlaqə müqaisəli şəkildə öyrədilir: 1 onl. = 10 təkl, 10 onl. = 100 təkl.

**Kütlə və onun ölçü vahidləri ilə şagirdlərin tanış edilməsi. Kütlə və onun ölçülməsi.** Kütlə əsas fiziki kəmiyyətlərdən biridir. İnsan bədənin kütləsi anlayışı Yerin cəzb etdiyi çəki-gücü anlayışı ilə sıx bağlıdır. Buna görə də, bədənin çəkisi təkcə bədənin özündən asılı deyil. Məsələn, müxtəlif coğrafi enliklərdə fərqlidir: cismin qütbdə çəkisi ekvatordakından 0,5% çoxdur. Bununla belə, dəyişkənliyn çəki ilə bağlı müəyyən xüsusiyyətə malikdir: istənilən şəraitdə iki cismin çəkilərinin nisbəti dəyişməz olaraq qalır. Beləliklə, bir cismin çəkisini başqa cismin çəkisi ilə müqayisə etməklə, ölçüldükdə cisimlərin kütlə adlanan yeni xüsusiyyəti aşkarlanır.

Riyazi nöqteyi-nəzərdən kütlə müsbət kəmiyyətdir və aşağıdakı xüsusiyyətlərə malikdir:

1) Qullu tərəzidə bir-birini tarazlayan cisimlər üçün kütlə eynidir;

2) Cismlər birləşdirildikdə kütlə toplanır: birlikdə götürülmüş bir neçə cismin kütləsi onların kütlələrinin cəminə bərabərdir. Bu tərifi uzunluq və sahə tərifləri ilə müqayisə etsək, görərik ki, kütlə uzunluq və sahə ilə eyni xassələrlə xarakterizə olunur, lakin fiziki cisimlər toplusu üzərində verilir.

Kütlənin ölçülməsi qollu tərəzilərin köməyi ilə aparılır və belə qurulur: kütləsi vahid kimi qəbul edilən e cismi seçilir, bu kütlənin bir hissəsinin də götürülə biləcəyi güman edilir. Məsələn, bir kiloqram kütlə vahidi kimi götürülürsə, ölçmə prosesində belə bir fraksiyadan qram kimi istifadə edə bilərsiniz: 1g = 0.001kq. (Perelman Ya.İ, 1998:46 )

Tərəzinin bir gözünə cism qoyulur, digərində isə kütlə vahidi kimi seçilmiş cisimlər, yəni çəkilər qoyulur beləliklə kiminsə bədən çəkisi ölçülür. Çəkiləmə nəticəsində seçilmiş kütlə vahidi ilə verilmiş cismin kütləsinin ədədi qiyməti alınır. Məsələn, bədən çəkisi 5 kq 350 q olarsa, 5350 rəqəmi bu bədənin

kütləsinin qiyməti kimi qəbul edilməlidir(kütlə vahidi qram olduqda). Kütlənin ədədi qiyməti üçün də uzunluq üçün tərtib edilmiş bütün ifadələr doğrudur, yəni kütlələrin müqayisəsi, onlar üzərində hərəkətlər müqayisəyə etdirilir və kütlələrin ədədi qiymətləri üçün eyni hərəkətlər (eyni ilə) kütlə vahidi üçün də edilir.

Kütlənin ədədi dəyərləri üçün uzunluğa aid tərtib edilmiş bütün ifadələr doğrudur, yəni kütlələrin müqayisəsi, onlar üzərində əməllər eynidir. Əsas kütlə vahidi kiloqramdır(kq). Bu əsas vahiddən başqa kütlə vahidləri yaranır: qram, ton və s.

Daha böyük kütləsi olan cisimlərin kütləsini ölçərkən sentner və ton istifadə olunur. 1 sentner 100 kq, 1 ton isə 1000 kq-dır. Rəqəmlərlə "senter" və "ton" sözləri qısaca belə yazılır: c, t.

1 kq=1000 q
1 c=100 kq
1 t=1000 kq
1 c=100 kq=100000 q
1 t=10 c=1000 kq=1000000 q
Unsia qızılı 31 qram
Barel 159 l

**Sahə anlayışı və onun ölçü vahidləri ilə şagirdlərin tanış edilməsi.** Sahə anlayışı ilə bağlı şagirdlər aşağıdakı bilik, bacarıq və vərdişləri qazanmalıdırlar.

1. Obyektin, fiqurun sahəsi haqqında təsəvvürlərin əldə edilməsi müstəvi fiqurların sahələrinin
- gözəyarı müqayisə edilməsi,
- üst-üstə qoymaqla müqayisə edilməsi,
- sahə ölçü vahidlərindən istifadə etməklə müqayisə edilməsi.

2. Sahə ölçü vahidləri: kv.sm, kv.dm, kv.mm, ar, ha, kv.km haqqında təsəvvürlərin yaradılması və düzbucaqlı şəklidə fiqurların sahələrinin hesablanması.

3. Sahə ölçü vahidləri arasında münasibətlərin mənimsənilməsi (adlı ədədlərin xırdalanması və çevrilməsi).

4. Mürəkkəb konturlu (sərhəd) fiqurların sahələrinin palet vasitəsilə təqribi hesablanması.

5. Düzbucaqlı şəklində və düzbucaqlıya gətirilə bilən fiqurların sahələrinin düstur vasitəsi ilə hesablanması; verilən sahəsinə və bir tərəfinə görə düzbucaqlının perimetrinin tapılmasına aid məsələlər həlli.

6. Düzbucaqlı şəklində fiqurların sahələri ilə perimetrləri arasında asılılığın aşkar edilməsi.

"Sahə" anlyışı sonlu müstəvi fiqurun xassəsi kimi təqdim olunur. Əvvəlcə eynicinsli fiqurları tutduqları yerinə görə bir-biri ilə müqayisə edirlər. Sonra isə müxtəlifcinsli fiqurları (üçbucaqla düzbucaqlını, üçbucaqla dairəni və s.) müqaisə edirlər. Müşahidə və müqaisə nəticəsində bir fiqurun digərindən çox yer tutduğunu, bərabər yer tutduğunu müəyyən edirlər. Deməli, böyük fiqurun sahəsi də böyükdür. Lakin elə fiqurlar var ki, onların sahələrini gözəyarı və ya üst-üstə qoymaqla tapmaq olmaz. Sahəni isə sahə vahidi ilə ölçürlər. Sahə vahidi olaraq tərəfi 1 uz.v olan kvadrat götürülür. Verilmiş düzbucaqlının sahəsinin neçə kvadrat vahid olduğunutapmaq üçün, həmin kvadrat vahidlərlə düzbucaqlını örtmək lazımdır. Bunun ən səmərəli yolu-düzbucaqlının uzunluğu və eni uzunluq vahidlərinə ayrılır, sətirlə və sütunlar üzrə kvadrat vahidlər ardıcıl düzülür. Kvadrat vahidlərin sayı-düzbucaqlının uzunluğu və enini göstərən ədədlərin hasilinə bərabər olacaqdır. Düzbucaqlının tərəflərini a və b ilə işarə etsək, onda həmin düzbucaqlının sahəsı: S=a·b(kv.v) olacaqdır.

Şagirdlər uzunluq ölçü vahidlərindən birincisi santimetrlə tanış olduqları kimi, sahə ölçü vahidlərindən də birincisi kvadrat santimetrlə tanış olurlar. Şagirdlər müəyyən edirlər ki, düzbucaqlı şəkildə fiqurun sahəsini tapmaq üçün onun tərəflərinin uzunluğunu bilmək lazımdır. Hər iki anlayışı müqayisə etmələ aşağıdakı nəticələrə gəlmək olar:

1. Santimetr-uzunluq vahididir, kvadrat santimetr-sahə vahididir.

2. Parçanın uzunluğunu göstərən ədəd-həmin parçada yerləşən bütün santimetrlərin sayıdır. Fiqurun sahəsini gostərən ədəd həmin fiquru örtən bütün kvadrat santimetrlərin sayıdır.

differences exist in the perception of competencies. On the other side, the present study did not consider the aspect of management that also has a role in the communication skills assessment of employees. The ability of respondents to answer independently depending on their understanding of the meaning of all the proposed items also needs further investigation. Therefore, researchers should adopt a mixed methods approach where respondents should demonstrate and express their actual communication skills. Such qualitative data can be analysed by a communication expert. Also, the predictive ability of the scale was not tested relative to certain important dependent variables. Namely, communication skills should have an impact on improving personal and business relationships, motivating employees, building one's own image and the image of the service organization, enhancing job satisfaction, enhancing the satisfaction of service users, etc. Hence, it would be interesting to test the scale in different situations and settings to examine, for example, whether different degrees of communications skills can affect loyalty or help to win back unsatisfied service users, or how communication skills could enhance the functional and emotional components of service value, thus helping to maintain relationships with users. In addition, future research could focus on examining the effect of perceived communication skills on employability, entrepreneurial intention, or career development.

## References

1. Andrews, J., & Higson, H. (2008), Graduate employability, 'soft skills' versus 'hard'business knowledge: A European study. Higher Education in Europe, 33(4), 411–422.
2. Baird, A. M., & Parayitam, S. (2019),Employers' ratings of importance of skills and competencies college graduates need to get hired: Evidence from the New England region of USA. Education + Training, 61(5), 622–634.
3. Bambacas, M., & Patrickson, M. (2008), Interpersonal communication skills that enhance organisational commitment. Journal of Communication Management, 12(1), 51–72.
4. Carlisle, S., Ivanov, S., & Dijkmans, C. (2021), The digital skills divide: Evidence from the European tourism industry. Journal of Tourism Futures.
5. Dunbar, N. E., Brooks, C. F., & Kubicka-Miller, T. (2006), Oral communication skills in higher education: Using a performance-based evaluation rubric to assess communication skills. Innovative Higher Education, 31(2), 115–127.
6. Eshet-Alkalai, Y. (2004), Digital literacy: A conceptual framework for survival skills in the digital era. Journal of Educational Multimedia and Hypermedia, 13 (1), 93–160.
7. Ferrari, A. (2014), DIGCOMP: A framework for developing and unrerstanding digital competence in Europe. eLearning Papers, 38(1), 7–24.
8. Goby, V. P. (2007),Business communication needs: A multicultural perspective. Journal of Business and Technical Communication, 21(4), 425–437.
9. Halfhill, T. R., & Nielsen, T. M. (2007),Quantifying the "softer side" of management education: An example using teamwork competencies. Journal of Management Education, 31 (1), 64–80.
10. Jackson, D. (2014),Business graduate performance in oral communication skills and strategies for improvement. The International Journal of Management Education, 12 (1), 22–34.
11. Kang, J., & Hyun, S. S. (2012), Effective communication styles for the customer-oriented service employee: Inducing dedicational behaviors in luxury restaurant patrons. International Journal of Hospitality Management, 31(3), 772–785.
12. Keyton, J., Caputo, J. M., Ford, E. A., Fu, R., Leibowitz, S. A., & Liu, T. (2013), Investigating verbal workplace communication bevaiors. Journal of Business Communication, 50 (2), 152–169.

**Rəyçi: i.ü.e.d. Zahid Məmmədov**

Göndərilib: 05.04.2022 Qəbul edilib: 17.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/41-49

**Ülviyyə Tofiq qızı Yusubova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
dissertant
ulviya09081974@gmail.com

# NUMERATİV SÖZ VƏ İFADƏLƏRİN FUNKSİONAL ÜSLUBLARDAKI YÜKÜ

**Xülasə**

Numerallaşma və numerativ söz və ifadələr müasir dilçiliyin aktual problemlərindəndir. Məqalədə monoqrafik tədqiqatın bir hissəsi kimi, ilk dəfə olaraq Azərbaycan dilində say bəhsinə aid olan numerallaşma hadisəsi və onun struktur parametrləri, semantik-tipoloji cəhətləri öyrənilir. Leksik və frazeoloji numerativlərin diskurslarda, mətnlərdə rolu, işlənmə xüsusiyyətləri müəyyənləşdirilir. Numerativ sözlər, ifadələr və cümlələr mətn və diskursda praqmatik aspektdə və şəraitdə funksionallaşır. Qədim mənbələrdən, dialektoloji lüğətlərdən və müasir şair və yazıçıların əsərlərindən seçilmiş nümunələr əsasında numerativ söz və sabit ifadələrin praqmatik və üslubi tərəfləri tədqiq edilir.

Müxtəlif funksional üslublarda numerativ söz və ifadələr mühüm funksional-kommunikativ vəzifələri yerinə yetirir. Numerativ frazeologizmlərdən şair və yazıçılar ayrı-ayrı personajların nitqində, diskurslarda istifadə edirlər. Bu yolla ümumxalq dilinin frazeoloji fondunu zənginləşdirirlər.

***Açar sözlər:*** *funksional üslublar, numerativ sözlər, üslubi diferensiallaşma, poetik üslub, nəsr dili*

**Ulviyya Tofig Yusubova**

## The load of numerical words and expressions in functional styles

**Abstract**

The concept of style is related to the use of numerative words and expressions as a unit of language, ie the functions of language. The units mentioned in this article are investigated according to the functions of the Azerbaijani language (communication, information and influence). Research shows that numerative words and expressions in artistic and everyday styles carry a functional load, as well as perform the function of informing, influencing, communicating. The degree of their development is specified in the text. The degrees of functional load performed by that language unit in these styles are determined.

The article also identifies other aspects of the use of numerical words and expressions in different functional styles of the Azerbaijani language.

***Key words***: *numerative, functional styles, artistic style, scientific style, social network*

## Giriş

Üslubiyyat dilçiliyin ayrı-ayrı üslublarını öyrənən bölməsidir. Üslubiyyat müəyyən məqsəd və təsir etməkdən ötrü dil vahidlərinin seçilməsi və işlədilməsi qaydalarını nəzərdən keçirilir.

Məlumdur ki, üslub deyəndə dilin vasitələrindən məqsədəuyğun biçimdə istifadə olunma diqqətə alınır. Həmin dil vahidləri və vasitələrindən biri də numerativ söz və ifadələrdir. Bu ifadələr müxtəlif üslubda söz və ifadələrin numerallaşması nəticəsində əmələ gəlir.

Dildə olan üslublar sistemi diferensiasiya edilir. Bu əlamət ən çox funksional üslublara aiddir. Elmi üslub, bədii üslub, məişət üslubu, rəsmi –sənəd üslubu, mətbuat-publisistik üslub.

Numerativlər də üslubi leksikaya daxil olaraq leksik-semantik vasitələrdən sayılır. Həmin vasitələrdən üslubi məqsədlər üçün istifadə olunmaqla yanaşı, numerativlərin çoxmənalılığı, omonimliyi, sinonimliyi, antonimliyi, arxaizm və neologizm formaları və s. öyrənilir.

Numerativlərin işlənmə məqamları deyəndə onların hansı üslubda istifadəsi nəzərdə tutulur. Müxtəlif üslublarda numerativlərin funksional-semantik xüsusiyyətləri, yeri, işlənmə tezliyi və onun səbəbləri nəzərdən keçirmək mümkündür.

Numerativlərdən üslubi diferensiallaşma təzahürü kimi də istifadə olunur. Mətbuat dilində (üslubunda) xüsusi epitetli standartların meydana gəlməsi, həmçinin numerativlərin yeni struktur

tiplərinin yaranması məhz müasir dövrün məhsulu kimi qiymətləndirilməlidir. Ədəbi dildə müqayisə məzmunu ifadə edən numerallaşma tiplərinin meydana gəlməsi də xüsusi üslubi diferensiallaşma təzahürləri kimi diqqəti cəlb edir. KİV-inin dilində üslubi diferensiallaşma təzahürü kimi işlənən müqayisə məzmunlu numerallaşma tiplərində paralellik modeli də müşahidə olunmaqdadır. Belə tiplərinin tərkibində numerativlər bol-bol iştirak edir. Məs.: Briqada 70 ton əvəzinə 130 ton pambıq tədarük etməyi öhdəyə götürmüşdür (1); Onlar planda nəzərdə tutulan 104 ton əvəzinə 140 ton pambıq əldə edəcəklərinə söz vermişlər (2); Otlaqlardan 200 ton əvəzinə 500 ton yem tədarük edilmişdir (1).

Bədii üslubda numerativlərdən daha çox istifadə olunur. Numerativlər bu üslubda bədii-poetik funksiyanı genişləndirir. Xüsusən də, numerativ xarakterli sözlərin ixtisar formaları həmin funksiyanın inkişafında əsaslı rol oynayır. Dilin leksik tərkibindən danışılarkən ixtisarlar söz yaradıcılığının müəyyən tipi sayılır. İxtisarların bir növü, daha doğrusu, əsasən numerativ səciyyəli sözlərin ixtisar formasının işlənməsi əsasən elmi üsluba xasdır. Bədii üslubda tam işlənən numerativlər elmi üslubda ixtisar edilir. Məs.: Kətmənin ağırlığı kiloqram yarım, ağzının eni 25-26 santimetr, hündürlüyü 23-28 santimetr olmalıdır. Hər hektardan ən azı səksən sentner məhsul götürməli (Vəliyev, 2005: 95)

Bədii əsərdən verilmiş bu parçalardakı kiloqram, santimetr, hektar, sentner sözləri - numerativləri elmi üslubda mütləq ixtisar formasında istifadə olunur: kq, sm, hek, sent. Məs.: Düzgün üçbucaqlı kəsik piramidanın hündürlüyü 7 sm.dir. Oturacaqlarının tərəfləri 10 sm və 20 sm-dir (4); Mis naqilin müqaviməti 0,2 si və kütləsi 0,2 kq olarsa, onun uzunluğu və en kəsiyinin sahəsini təyin edin (5)

Bədii üslubda təkrarlanan numerativlərə çox rast gəlmək olur: Qaşıq. Kiməsə *bir qaşıq tərif payı, kiməsə bir qaşıq bütün incəliklər* bundan başlanır (Anar, 2004: 81) Belə təkrar mətnin emosionallığını gücləndirir. Bədii əsərlərdən seçilmiş aşağıdakı numerativ sözlər də bu qəbildən xarakterikdir.

*Sətir numerativi. Ərəb mənşəlidir. Hər hansı bir mətnin bir xətlə yazılmış hissəsi, yazı sırası. İki sətir yazı.*

*Cərgə* numerativi: Sıra mənasında. Yolun hər iki tərəfi *bir neçə cərgə ağaclıq* idi. *Bir neçə çərgə ağaçlıq.* (Rzaquluzadə, 2006: 200). Bundan savayı, Azərbaycan dilində *on cərgə şitillik (pambıq və s.*) numerativlərindən də istifadə olunur.

*Sıra numerativi. Yan-yana və ya ard-arda duran adamlar və ya şeylər düzümü; səf, cərgə. İki sıra ev, iki səf ev, iki cərgə ev, iki sıra durmaq. Adətən «bir» sözü ilə: bir sıra-bir çox, bir miqdar, çoxlu, yaxud bir qədər, bəzi. Bir sıra məsələ. İclasda bir sıra məsələlərə geniş yer ayrıldı. Bəli, bir sıra məsələlərə.*

*Çömçə* numerativi. Ağacdan qayrılan uzundəstəli böyük dərin qaşıq; abgərdan (çömçə). *Bircə çömçə qatıq - bircə qaşıq qatıq - bircə abgərdan qatıq*.

Şer dilində numerativlər əsasən poetik enerjini artırır. Məsələn,

Klassik poeziyada: Bir bölük ənqalərüz (dəstə), Qafi-qənaət bəklərüz - dəstə, hissə, qisim yox, məhz bölük (Vəliyeva, 2010: 476)

İmadəddin Nəsimidə: Şəha, çün surətin Fürqanimizdir, Ol *on dörd xət Quranımızdır* (Nəsimi. 2004: 249); *Yedi kəz (suotu) həq* nə mənidən buyurdu səcdə şeytana.

Numerativlər şeir başlığı kimi: «Üç yarpaq bayatı» (Xələfli. 2017: 320)

Burada «yarpaq» ismi numerativ funksiyasında işlənmişdir.

Şer dilində metafora bənzərlik əlaməti üzrə meydana çıxır. Numerativlər də metaforikləşmiş tərkibdə müşahidə olunur: *bir qətrə (damcı) həyat eşqi*.

Füzuli naləsi, Vaqif səsiyəm,
O yanıq Kərəmin od nəfəsiyəm.
*Mən həyat eşqinin bir qətrəsiyəm,*
Qətrədə nə günah, ümman xəstədir (Kürdoğlu, 2011: 25)
Çoxalır, başımdan aşır dərdi-sər,
Köhlən (harın bəslənmiş at) günlərimdən qalmamış əsər.
İlandan istədim *bir damcı zəhər*.
Gördüm məndən betər ilan xəstədir (Kürdoğlu, 2011: 48)
Sözün sayına yox, sanbalına bax,
Dünyada *bir dünya söz* qoydu, getdi (Kürdoğlu, 2011: 92)

«Qarış» numerativindən tanınmış şair S.Rüstəmxanlı Vətən torpağı anlamını poetikləşdirmək məqsədilə istifadə etmişdir: «Bir qarış vətən torpağı»

Sıyırdı qılıncını
Özü getdi qabağa.
Yurdun ot bitirməyən
*Bir qarış torpağıyçın*
*Vətən qalxdı ayağa.*

Poetik dildə numerativ formaların sırası dəyişir, inversiya hadisəsi yaranır. Məs.:

Mən döyüşlərdə sınaqlardan çıxmışam, dostlar bilir;
Gözlərimdən axmayıb dar gündə *qan-yaş bir gilə* (Rüstəm, 2005: 124). İnversiya olunmamış variant belədir: *bir gilə qan-yaş*.

Dialektizmlərdən ibarət olan numerativlər də üslubi diferensiasiya yaradır, obrazlılığı təmin edir. Məs.:

*Gəviz (hissə)* - Şamaxı dialektində «hissə» mənasında işlənir. *On kəviz pay* bəyə verdilər. *İki hissə ordu* cəmləşdi. *Bir hissə roman* (romanın üzvü parçası, qismi, fəsli), *son hissə sonata* və s.

*Şülə*k (parça zolağı, parça topu). Bazardan *üç şülək papçanı* dərzixanaya gətirdilər (Vəliyev, 2005: 47)

Nəsr əsərlərində numerativ sözlər. Nəsr əsərlərində numerativlərdən təsvir məqsədi üçün istifadə olunur. Məs.:

-Bu gün bilirsən başımıza nə gəlib? Həyətdə sac asmışdım, çörək bişirirdim. *Bir sürü kəklik* qəfildən özünü dəhlizimizə təpdi (İldırımoğlu, 2017: 416).

Atam meşədən gətirdiyi *bir at yükü ulas (ağac növü) odununu* doğrayıb, sonra da samanlığın qabağındakı dəhlizin bir küncündə səliqə ilə çin vuruldu (İldırımoğlu, 2017: 205)

Həmin sözlər konkret mövzularla bağlı olur. Məsələn, xalq yazıçısı İsa Hüseynovun «Tütək səsi» povestində işlənmiş xeyli sayda numerativ sözlər müharibə dövrünün çətinliklərini, dözülməzliyini əks etdirir. Məs.:

Yeməmək olmazdı. Yedim və *bu bir paça buğda çörəyinin* məndə necə bir dəyişiklik əmələ gətirdiyindən özümün də xəbərim olmadı… (Hüseynov, 2012: 67)

*Bir qarın çörəyin* azarından özümü zülmə salmışam. Gedəcəm! Ərizə yazıb zornan gedəcəm əsgərliyə! (Hüseynov, 2012: 98)

Anam həftədə, on gündə *bir kərə qazanda su* qoyub onu çimməyə məcbur edərdi (Hüseynov, 2012: 24)

İşarə əvəzliyindən sonra; deyktik məqamda: Anam, əlbəttə, təkcə *o bir banka qatığı* öz yanında mənə yedirtməyə yox, həm də mənim necə işlədiyimə baxmağa gəlmişdi (Hüseynov, 2012: 55)

İşarə əvəzliyindən sonra: Şöşünün mənə yedirtdiyi *o bir tikə buğda çörəyində*n sonra isə hər şey dəyişdi (Hüseynov, 2012: 124)

Mən başa düşdüm ki, Şöşü üçün anamın ayrıca bişirdiyi buğda çörəyindən nəinki *bir qismət nemət* yeməyə, heç qoxulamağa da ixtiyarım yoxdur. Küncdə, tərsinə çevrilmiş vəl tayının üstündə un çuvalı vardı. Atam gedəndə bu un çuvalını dolu qoyub getmişdi. O vaxtdan ötən bir il ərzində çuval yapıxıb indi *bir çərək (ölçü vahidi) un* hündürlüyündə qalmışdı. Bu «Şöşü balanın buğda unu» idi Necə oldu, səmum yeli haradan əsdi ki, biz, o cür işləyən, doyunca yuxunun belə həsrətini çəkən adamlar, *bir tkə çörəyə* möhtac qaldıq? Başımı qaldırıb, məndən azı *iki qarış hündürlükdə* Cümrünün iri, parıltılı gözlərini gördüm. Yaxşı yadımdadır, yaz başı, Novruz bayramından sonra Mehbalı əmi idarədə təklif elədi ki, kolxozdan *iki boyun kəl (iribuynuzlu heyvan), bir kotan texnika* ayrılsın, hər gün *bir əsgər ailəsin*in «qapısı», yəni həyətyanı sahəsi əkilsin. Bizim kəndin cəmi iki küçəsi, daha doğrusu, sağ-solunda çəpərlər qaralan *iki torpaq yolu* vardı *İri bir daş parçası* Cəbrayıl kişinin gicgahını yalayıb keçdi (Hüseynov, 2012: 192) Bu mətndə *qismət, çuval, bir çərək un* qəbilindən olan numerativ sözlər dediyimiz kimi müharibənin aclığ, fəlakət gətirdiyi dövrü xarakterizə edir.

Dialoqda işlənən numerativlər:

Sasanlı başını buladı:
*Yüz milyon ərəb, bir milyon cühud*
-Baho! *Bir milyon milyarder. Hərbi sənaye kompleksləri.*
*Bir qədəh çaxır.*
*Bir ətək pambıq.*

Bədii üslubda numerativ birləşmə xəbər vəzifəsində çıxış edir: Söz sanki *bir damcı sudur*.

Bədii üslubda fərdi şəkildə yaradılan numerativlər: *«bir tikə naşükürlük», «bir tikə narahatlıq», «bir tikə palaz»* (Məmmədquluzadə, 2004: 105)

*Bir dəstə çiçək* kimi…(17) Müqayisə məqamında.

Digər nümunələr: *...bir loxma çörək* üçün üz tutdum şəhərə. (İldırımoğlu, 2017: 85)

Çörək satanlar əllərində *beş manatlıq, on manatlıq, on beş manatlıq dəstana* qışqıra-qışqıra, - mənimki yaxşıdır. (İldırımoğlu, 2017: 150)

Olan-qalan pulumu verib *on manatlıq dəstənanın* birini aldım. (İldırımoğlu, 2017: 216)

*Beş manatlıq kasaların* birini götürüb özümü aralıdakı qəzet köşkünün arxasındakı xəstəxanaya verdim. (İldırımoğlu, 2017: 228)

- Zəhrimara qalsın o *bir kasa qatıq* (İldırımoğlu, 2017: 305) İşarə etmək məqsədilə işlədilir.

T.Əfəndiyeva yazır: „Bədii üslubda numerativ sözlər obraz yaradan və müəllifin niyyətini təmsil edən əsas vasitə kimi işlədilir, (Əfənfiyeva, 2011: 46)

„Qobustan„ jurnalının səhifələrində, xüsusən də məqalə başlıqlarında numerativlər T.Əfəndiyevanın fikrini təsdiqləyə bilər (20)

Bəzən dildə numerativ sözlərdən düzgün, yerində istifadə olunmur. Məs.: 11 baş qoyun ya keçi deyilər, 11 baş arvad, 9 baş uşaq deyilməz.

…bir loxma çörək üçün üz tutdum şəhərə (İldırımoğlu, 2017: 109)

Məqalə başlıqları: bir ovuc torpaq. Kamal Aslanlı «Kredo» (21) məqaləsinin adını belə adlandırmışdır.

Eluca Atalının kitabının adı «Bir udum azadlıq» adlanır (22) Ön söz də numerativ sözlərdən qurulmuşdur: «Bir udum azadlığ»a bir udumluq söz haqqı. «Azadlığın ölçü vahidi varmı görən? Zamanlamı, bir nəfəs dərməklәmi, qadağalardan qaçaraq gizlicə iç dünyandakı istəklərini gerçəkləşdirmək üçün sərf etdiyin anlarlamı ölçülər azadlıq? Yoxsa, illər boyu gözlədiyin, amma yetişmədiyin, çata bilmədiyin həsrətin adıdır azadlıq?

Haqqında söz açdığımız kitab adından da bəlli olduğu kimi, azadlıqdan bəhs edir, bir udumluq azadlıqdan deyil, bəlkə də, bir ömürlük, əbədilik azadlıqdan. Və bu azadlığın insan həyatı üçün nə demək olduğ, kiçiyindən tutmuş böyüyünədək, cavanından tutmuş qocasınadək hamıya nə dərəcədə gərəkliyi əslində kitab a daxil edilmiş bütün yazılarda, bu yazıların hər sətrində duyulur, hiss edilir (4)

Bəllidir ki, qrammatika kitablarında *«nəfər, qəlib (ülgü), cüt, ədəd, baş, göz, səbət, kisə»* kimi sözlər numerativlər adı ilə verilir (Budaqova. Hacıyev, 1982: 127). Bunlar da nəsr əsərlərində işlənərək bədii mətləbləri xarakterizə edir. Məsələn, numerativlər aforizmlərin tərkibində həmin funksiyanı yerinə yetirir: *Bir qarış torpaq* Vətəndir.

İnqilabi satirik üslubda nümerativlərdən istifadə: Fikrimi verмərəm əbəs siz kimi nadanlara; Sövq edəsiz oğlumu *bir para hədyanlara* (24)

Maddi ictimai düşüncənin ifadəsi olan publisistik üslubda yüksək emosionallıq yaratmaq üçün numerativlər də işlədilir. Məs.: Təşnə ömrüm bir qurtum suya həsrət qalanda, gözlərimdə ümmana döndü sızqa bulaqlar (Rəhimova, 201: s.34); *Bir içim su* tapa bilmirəm.

*Bir ovuc xalqıx*, bu sərvətlərin sahibiyik (26)

Belə nitq şəraitində numerativ ifadələrdə inversiya hadisəsi baş verir: *bir papça həyat*. Mətnə nəzər salaq: Bütün hallarda sən yollardasan, sən qatardasan. Bircə o qalır ki, keçdiyin yollarda, səni aparan qatarda gördüklərini sözə gətirə biləsən və o sözün içində Belinskisayağı desək *«həyatın bir parçası»* ola. (Xələfli, 2020: 1)

Deyirlər, kişiyə ağlamaq yaraşmır. Hətta bəziləri belə deyirlər: «Kişi də ağlayar?» Bəli, kişi ağlayar. Nəql edirlər ki, Həzrəti Məhəmməd peyğəmbərin oğlu ölәndə onun gözlərində *iki damla yaş* görünüb. (Dəmirli, 2020: 15)

Numerativlər vasitəsi ilə bəlli olmayan məlumat bildirilir.

Digər numerativlərə də nəzər salıq: *Qaşıq:* Sonra da küncdəki badyanın ağzını açıb *bir qaşıq süd üzü* götürdü. Yanaqlarına, saçlarına çəkdi (Şıxlı, 2019: 34)

Fayton: *bir fayton uşaq, bir fayton külfət*.

Şüşə: Xörəkpaylayan qədəh gətirdi, *iki şüşə arağı* qoydu. Qudalı su kimi dupduru arağa heyran-heyran tamaşa elədi.

Numerativ cümlələr də fikrin ifadəsinə xidmət edir. Burada «subyekt və onun kəmiyyət əlaməti» görünür. Bu əlamət Azərbaycan dilinin numerativ sözləri ilə ifadə olunur. Məs.:

*Mənin əlli yaşım* var.

Məhəlli xarakter daşıyan numerativlər tarixizmlər haqqında dolğun bilgi verir: Məs.: *dükcə (ip)* - cəhrənin iyinə sarılan yumaq. Qarı gündə *bir dükcə ip* əyirir.

Elmi üslubda. Milli elmi düşüncənin ifadəsi üçün numerativ sözlərdən də istifadə olunur. Məs.: *bir sandıq ədəbiyyat*. Bu numerativ ifadədə məntiqilik, dəqiqlik və konkretlik mövcuddur.

Rəsmi üslubda. Cəmiyyətdə rəsmi münasibətləri bildirməkdən ötrü numerativ sözlərdən də istifadə edilir. Məs.: *bir nüsxə protokol.*

«Protokol» sözünü akt, nota, əmr, bəyanat və s. dövlət sənədlərinin adları ilə də əvəz etmək olar. Bu kimi numerativlər ştamp xarakterli xüsusi tərkiblərdən ibarət olur.

Müxtəlif cümlə tiplərində numerativ söz və ifadələr işləkdir. Ritorik sual cümlələrində: Onsuz da ehtiyacda boğulan, əlindəki *bir tay kömürü,* əllərini tikan apara-apara yığdığı fısdığı, gətirdiyi çırpını satmağa, arpaya dəyişməyə imkanı olmayan, gün çörəyinə möhtac olan dağ kəndlisindən mən nə istəməliyəm və necə istəməliyəm? (Cəlal, 2005: 95)

Tabeli mürəkkəb cümlələrin tərkibində: Düz bir həftə idi ki, nə gözünə yuxu gedir, nə də boğazından *bir tikə çörək* keçirdi (Şıxlı, 2019: 39)

Müxtəlif sahələrdə numerativlər sözlərə də yer ayrılır. Məs.: Təsərrüfat və məişət sahəsində: *çəngə (ovuc) (fars).* Bir əl tutan qədər (adətən miqdarla). *Bir çəngə ot.*_ (Şərəfnisə xanım:) Uşağı yerə girsin. Dinc oturur məgər! Səhərdən bəri qoymuyub ki, *iki çəngə yun* darayım, elə şitənglik edir… M.F.Axundov. Sənəm qarı… balağından çəngə ilə dən götürüb… toyuq-cücələrə səpirdi. Ə.Məmmədxanlı (31).

Hərbi sahədə işlənən numerativlər: Azərbaycan Xalq Cümhuriyyəti yaradıldığı ilk dövrlərdə onun hərbi qüvvələri *600 nəfərlik könüllü dəstələrdən* ibarət idi. *5000 nəfərli şəxsi heyəti* olan «Əlahiddə Azərbaycan korpusu» yaradılıb. Osmanlı-Avstriya müharibəsi - *Bir çəllək içki* 10 min əsgəri öldürdü (26)**.**

İnternet saytlarında işlənənlər. İnternet XXI əsrin fenomenidir. İnternet KİV vasitələrindən ən müasiridir. İndi internet cəmiyyətin həyatına daxil olmuşdur.

Dil vahidlərinin işləndiyi mənbələrdən biri də internetdir. Müxtəlif mətnlərdə numerativ sözlərə də rast gəlmək olur.

İnternet həm də linqvistik mənbədir. Bu mənbədə numerativlər də əhatə olunur:

Yeni informasiyalar bu situasiyada da verilir. Numerativlər vasitəsilə qarşılıqlı məlumat mübadiləsi, xəbər alıb-vermə, ünsiyyət vasitəsi kimi də istifadə olunur. Məs.: Müəlliməmə iki dəstə gül bağışladım. Bir tikə çörək dalınca qaçırıq. Nitq şəraitində istifadə edilən və funksionallaşan bu numerativlər vasitəsilə müəyyən informasiyalar çatdırılır və fikirlər yaradılır: iki kiloqram ət, iki ədəd kitab, bir cüt əlcək və s.

İdmanla bağlı: Azərbaycanın 3 qat dünya çempionu peşəkar boksa keçib (32)

Heyvandarlıqla bağlı: Zərdabda fermalardan 24 baş heyvanı oğurlayan şəxs tutulub (32)

Təhsil - pedaqoji sahədə: Müəllimlərin işə qəbulu üzrə əlavə yerləşdirmə üçün 4011 vakant yer çıxarılıb (32)

Nəqliyyat sahəsində: Bakıda iki marşrut xətti ilə bağlı qərar verildi
(32)

Tibbi sahədə: Hər gün ac qarına bir diş sarımsaq yesək nə baş verər.

Həkim məsləhəti zamanı numerativlərin işlənməsi: 1 qaşıq qarğıdalı nişastası ilə 1 qaşıq limon suyunu qarışdırıb məcnun halına gətirmək (33)

İnt. saytlarında: Həkim müayinə aparır, *bir sürü analiz* təyin edir. İnternetdə: Osmanlı-Avstriya müharibəsi: *Bir çəllək içki* 10 min əsgəri öldürdü (26)

Mərakeşdə *17 aylıq körpə* koronovirusdan öldü. Səhiyyə mənbələrindən alınan məlumata görə, *17 aylıq körpəyə* virus anasından yoluxub.

Azərbaycanda daha *64 nəfə insan* koronovirusa yoluxdu.

Məşhur həkimdən koronovirusdan qoruqmaq üçün *8 vacib tövsiyə.*

Gecələr oyansanız *bir neçə qurtum su* için.

Bu günə qədər dünya birjalarında itki *7, 5 trilyon dollardı*r.

*Atalar sözlərinin tərkibində:*

*Çeynəm.* 1. Çeynəmək işi, çeynəmə. 2. Ağızda çeynənəcək miqdar (adətən rəqəmlə). *Bir çeynəm saqqızın* var, çeynə, yapışdır alnına. (at.sözü)

Numerativ sözlər fel əsasında əmələ gəlir. Məs.: *çeynəm-çeynəmək* felindən yaranmışdır.

*Çəkim.* 1. Çəkmək işi; çəkmə. 2. Rəqəmlərlə: bir çəkim - bir dəfə çəkməyə, işlədilməyə, bir dəfəliliyə kifayət edəcək miqdar. Bir çəkim maxorka. –(Zülfüqar) Bir çəkim tənbəki ver, Nəcəfalı baba, səhərdən qəlyansızam, boğazım qovuşur. B. Bayramov (31)

Reklamlarda numerativlər: 1 calov əhəng

Numerativlərdən bəzi hallarda mətbuatda, saytlarda, sosial şəbəkələrdə düzgün, yerində istifadə olunmur. Məs.: Bir tikə tort. Borçalı: Tortdan hərəyə bir tikə- təkbaşına isə onu yemək olmaz.

Bir tikə ət. Pişiyin qabağına bir tikə at atdı.

Bir dənə pul. Bunu demək nitqin orfoepik normasını pozmaq deməkdir.

Sosial şəbəkə mətnlərində də numerativ söz və ifadələrə rast gəlmək olur. Bunların işlənməsi bəzi hallarda mübahisə yaradır. Məsələn, «bir baş it» numerativ sözünün işlənməsi ilə əlaqədar internet səhifələrində Sabir Əliyevin «Diqqət! Dil dəqiqliyi sevir!» adlı statusda haqlı iradlarla qarşılaşmaq olur. Müəllif «50 baş it» ifadəsində «baş» sözünün yersiz işləndiyini vurğulayır. Azərbaycan dilinin izahlı lüğətində «baş» sözünün 18 mənası verilib. 12-ci bənddə qeyd olunur: «Numerativ söz kimi: heyvanları saymaq üçün hesab vahidi…»

Şahlar Göytürk bu məsələyə münasibətini belə bildirir: İzah dəqiq deyil. Dili yaxşı bilməyən jurnalist sözügedən izaha baxıb «50 baş it» yazacaq. Çünki it də heyvandır. 50 baş qoyun, inək olar, amma «50 baş it» olmaz. «Üç baş soğan» da olar. Ədəbi dil normalarına biganə yanaşan jurnalist «Saytların dil mənzərəsi»nə həsr edilmiş 600 səhifəlik kitaba baxsalar bu səhvə yol verməzdilər.

Yaxud saytlarda yanlış yerə işlədilmiş numerativlərə də çox rast gəlmək olur: …bildirdilər ki, burada avqustun 23-də gətirilən 10 baş minaaxtaran itlərə baş çəkiblər». Cümlədəki başqa səhvləri bir kənara qoyub «On baş minaaxtaran itlərə baş çəkiblər» nə deməkdir

İtlərlə bağlı belə gülüş doğuran cümlələr çoxdur: «Rusiya Qarabağa xidməti itlərlə 100 hərbçi göndərdi və s. (34)

Buna münasibət bildirən izləyicilər yazır: Dilçi düşüncəsi tamamilə doğrudur. Bu onu göstərir ki, numerologiya elmi, numerativlərin işlənmə yerləri bizdə hələ lazımi səviyyədə öyrənilməyib (Kazımov, 2019: 87).

Digər bir izləyici Q.Gülhüseyn yazır: «Numerativ sözlər və onların etimologiyasını bilmək çox vacibdir. Araşdırmalar göstərir ki, bu sözlərin milli-etnik əsasları vardır. «Baş» sözü kasaplıq (qəssablıq) heyvanlara aid olsa da, «bir sürü insan» və ya «bir sürü şey» kimi birləşmələr də Türkiyə türkcəsində vardır. Görünür ki, belə mövzularda ortaq məqamlar daim nəzərdə saxlanmalıdır. Yazıların mətni üzərində əlavə vaxt sərf etmək və numerativin düzgününü seçmək lazımdır. (12 sentyabr 2021-ci il)

Bədii üslubda işlənən numerativlərdə inversiya hadisəsi də özünü göstərir. Üslubi məqamlardan biri inversiya hadisəsidir. Söz sırası numerativ strukturda dəyişə bilir: Qardaşı qızının ipək paltarlarından bir dəst çıxarıb Güləsərin üstünə atdı (Şıxlı, 2019: 99).

Daraq. Bir daraq patron. Xəzinənin boş olduğunu görüb, taxtın üstündəki qoltuqaltıdan bir daraq patron götürdü və tüfəngi doldurdu (Şıxlı, 2019: 51)

Numtrativin isim vəzifəsində işlənməsi: Darağı xəzinəyə basıb caxmağı hərlədi (Şıxlı. 2019: 94)

Lüt. Üc lüt qız. Numerativlər ayrı-ayrı hadisələrə işarə edir.

Pişik bir tejən (qoyun dərisindən torba) südə tərəf yan aldı (36)…camdakı süd üzünü başına cəkib tejənin ağzını məğər yaddan cıxardımı? (Şıxlı, 2019: 50)

Bir təknə cörək. Hində yumurta qoymaz, əlindən təknədə cörək qalmazdı (Şıxlı. 2019: 215)

*Eymə (torba)* - bu söz qərb nitq arealında böyük qatıq və ya pendir torbası mənasındadır: Bir eymə pendir gəti (37). Eymə numerativinin iymə variant da şərq arealında işləkdir: bir iymə süd.

Beləliklə, numerativ sözlər üslubi diferensiasiya məqamında ayrı-ayrı üslublarda iki məqsədlə işlədilir:

A) Üslubi məqsəd daşıyır, ifadə tərzini dəyişdirir, lakin heç bir kəmiyyət dəyişikliyi əmələ gətirmir. Məsələn: üç kitab-üç dənə kitab, beş adam-beş nəfər adam.

B) Kəmiyyət fərqi əmələ gətirir. Məsələn: bir adam –bir dəstə adam, bir qələm-bir cüt qələm, bir qoyun - bir sürü qoyun.

Beləliklə, üslub anlayışı bir dil vahidi kimi numerativ söz və ifadələrindən istifadə ilə, yəni dilin funksiyaları ilə bağlıdır. Sözügedən vahidlər Azərbaycan dilinin funksiyalarına (ünsiyyət, məlumat-vermə və təsirgöstərmə) əsasən araşdırılır. Tədqiqat göstərir ki, məumatvermə funksiyasını, təsirgöstər-mə funksiyasını, ünsiyyət funksiyasını yerinə yetirən kimi, bədii və gündəlik-məişət üslublarında numerativ söz və ifadələr funksional yük daşıyır. Mətn şəraitində onların işlənmə dərəcəsi dəqiqləşdirilir. Həmin dil vahidinin bu üslublarda yerinə yetirdiyi funksional yükün dərəcələri müəyyən-ləşdirilir.

Numerativ söz və ifadələrin Azərbaycan dilinin müxtəlif funksional üslublarında işlənməsinin digər məqamlarda müəyyənləşdirilmişdir.

Sözün bütün leksik mənaları verilir. Bunların içərisində xüsusi olaraq *«bir»* sayı ilə olan hissədə sözün numerativ məna bildirən hissəsinə dair izahlar və nümunələr əks olunur. Məsələn, diqqət edin: *«Bir» sayı ilə: bir çərək-bir az, bir tikə, azacıq. Yox, gərək bir çərək; Qalmasın boş yerin! M.Müşfiq. (Firəngiz) Deyə bilərəm ki, .. yataqların bir çərəyi də əkilməyəcəkdir. B.Bayramov (31)*

Bu lüğət məqaləsində fars sözü olan *«çərək»* sözünün numerativ izahı, şərhi verilmişdir.

Numerativin birinci tərəfi. Birinci tərəfin *«yarım»* sözü ilə ifadəsi: *yarım sərnic ayran* verib savaba çatar (Rəhimov, 2005: 85)

Birinci tərəfin «bir» sözü ilə ifadəsi:

Birinci tərəfin «altı-yeddi « sayı ilə ifadəsi: (Qulu) Yəni *altı-yeddi stəkan salma çay* içdiyini də yalan deyirəm? (Axundov, 2005: 77)

Numerativin üçüncü tərəfi. İtalyan mənşəli *«salfet» (salviette)* (italyanca salfetlər) sözü ilə ifadə olunur: *İki parça salvet* almaq.

İzahlı lüğətlərdə numerativin variantları da göstərilir. İki variantda Azərbaycan dilində işlənən *«əlçim»\əlçin* (əl içi boyda yun) numerativi məqalə başlığı kimi işlənmişdir: *Bir əlçim xatirə* kələfinin (sap, ip) çözələnməsi və ya yeddi dərənin başını bir tap kəsər (21)

Bu numerativ haqqında Azərbaycan dilinin izahlı lüğətində oxuyuruq: Əlçim, əlçin. Bir dəfədə əldə tutulub cəhrədə ip halına gətirilə bilən qədər (yun). Məs.: O arvad gündə yüz əlçim yun əyirir._ (Tapdıq) Bir əlçim- bir əldə tutulacaq qədər: Göy açıq; Hər bir əlçim bulud; Hə bir qucaq duman (Rza, 2005: 96)

Azərbaycan dilinin izahlı lüğətlərində numerativ sözlərin bədii üslubdan seçilmiş nümunələrinə rast gəlmək olur. Nümunələrə müraciət edək:

İzahlı lüğətdə bu numerativlərdən sonra «əlcə» numerativi haqqında da məlumat verilib: Əlcə-kiçik, azacıq, bir tikə, əl qədər. Əlcə çörək, əlcə ət. Anası bir əlcə əppəyə dönüb yoxa çıxıbdır (Rəhimov, 2005: 205); Mövqeyə gələn kimi Abbas karandaşla bir əlcə kağıza ərizəsini yazdı, üç nəfərdən zəmanət aldı (42). Gülzar: dişini bizim o bir əlcə (kiçik, azacıq, bir tikə) torpağa qıcadıb (43).

Məlumdur ki, hər hansı bir dilin ümumi mənzərəsini, sözün müxtəlifliyini və rəngarəngliyini lüğətlər vasitəsilə öyrənmək olur. Xüsusi numerativləri və frazeoloji numerativlərin də təbiətini ən çox lüğətlərdən öyrənmək mümkündür. Lüğətlər bu baxımdan da xüsusi önəm kəsb edir.

Mənşəyi göstərilir: ədəd (ər.) Eyni cinsli şeylərdən bir dənəsi; dənə. Beş ədəd karandaş aldım. İki ədəd qələm. On ədəd yumurta._ Var idi mənim bir ədəd gövhərim; Gülbəndi-mina və tacizərim. (31)

Esse mətnlərində numerativlər: İmza günlərindəki sxematiklik, növbətçi ifadələr, təbriklər, rəylər, müsahibələr, sonra boş zal, *bir miqdar qələm haqqı,* məclis, sağlıqlar, təbəssümlər və nəhayət, evə doğru tənha yolçuluq, səni rahat buraxmayan suallar: bunumu istəyirsən? (Babullaoğlu. 2017: 13)

Numerativ sözlərin semantikası

Beş. Beş gün görmək-az da olsa yaxşı yaşamaq. Biz də bu dünyada arxayın oturub beş gün görək (Rəhimov, 2005: 89)

Beş günlük dünya-müvəqqəti az ömür. Vaqeən insan bu beş günlük dünyada ömrünü dilxorluqla keçirməməlidir (Məmmədquluzadə, 2004: 125)

Beş kişinin biri olmaq-çox nüfuz və hörmət qazanmaq (Hüseynov, Əhmədov, 2011: 296) yeddi dəfə ölməkdənsə, bir dəfə dirilmək. Yeddi gün yeddi gecə.

Frazeoloji lüğətlərdə numerativlər: altmış illik yubiley, altı aylıq uşaq, on abbası pul, beş şahı pul (Abbasıdan beş şahı çıxardır), bir masa adam, üç addım məsafə, yüz ağaclıq yol, bir aləm fikir, bir şüşə

tomat, min aşırım yol (min aşırımda atları dəyişdi-mənası: təhlükəli anda böyük dəyişikliklər etmək), iki avara adam (boş, heç nə ilə məşğul olmayan, müəyyən məşğuliyyəti olmayan), iki avaz söz, iki bacalı ev (iki bacalı evin əyriliyinə baxma, tüstüsü düz çıxsın), bir bakal pivə (bir bakal pivə qaldırdı), bir barıt çəllək (bir barıt çəlləyin üstündə oturmaq (təlatümdə yaşamaq mənasında), iki baryer söhbət, iki baş inək, başına bir çəllək soyuq su tökmək (mənası: bir kəsi soyutmaq, çaşdırmaş), beş adamın biri (tanınmış insan haqqında), beş barmağın biri (yaxşı tanımaq mənasında), beş günlük dünya (beş gülük dünyadır: ye, iç, key elə), beş ilin öküzü qırx ilin qazısını aldadır; iki bənd şeir, bir biçaqlıq boğaz, bir ağıllı beş min başı saxlar, bir aləm vaxtı olmaq, bir anbar taxıl (bir aləm mənasında), bir atımlıq barıtı var, bir biçim ülgü, bir bez qırağı, *bir çimdik toz kimi* yoxa çıxmaq, bir çuval darının sayından çoxdur, bir çürük alma bütün səbəti korlar (ekvivalent məna: bir qorxaq bir ordunu xarablar, bir qotur dana bir naxırın adını batırar), bir çürük qoza dəyməz, bir damcı su, bir zərrə həyat, bir damcı ağıl vermək, bir damcı da (qorxmamaq, inanmamaq mənasında), bir damcı da yox, bir cüt dana bütöv naxırı korlayır, bir əldə iki dilim qarpız tutmaq, bir əsr vaxt, bir içim su kimi, bir qurtum su içməkdən də asan, bir-iki kəlmə söz, bir xoruz yükü, bir-iki kəlmə yağlı söz demək, bir-iki kəlmə yaxşı söz demək, bir kilometr yolu uzaqdan keçmək, bir kitab söz danışmaq (bir quran söz demək), bir köynək əti var (dolğun insan haqqında), bir köynək ət tökmək, bir köynək tər tökmək, bir qara qəpiyə dəyməyən, (dəyərsiz, heç nəyə layiq olmayan), bir qarın çörəyə möhtac olmaq (böyük ehtiyac içində yaşmaq), bir qarın söz (bir yığın məlumat), bir qarış torpaq (bir qarış da olsa geri çəkilməmək), bir qədəh içki, bir qucaq sür-sümük (bir dəri, bir sümük), bir Quran söz demək, bir qurtum su içməkdən də asan (çox asan), bir ləhzə söz (bir anda deyilən söz), bir nömrəli iş (müəyyən bir işdə öndə olan əsas insan haqqında), bir oturum əhvalat (bir oturuma bir qoyun yemək), bir parça çörək. Bu numerativ frazeoloji vahidlər Nigar Vəliyevanın «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğətği»ndən seçilib götürülmüşdür (Vəliyeva, 2010: 320)

## Nəticə

Numerativlər bir sıra dillərdə olduğu kimi, Azərbaycan dilində də geniş yayılmışdır.

İsimlə işlənən miqdar saylarının bir xarakterik əlaməti də mövcuddur ki, miqdar sayları ilə onun aid olduğu sözlər arasında müxtəlif izahedici, dəqiqləşdirici sözlər - numeravtivlər işlənə bilir.

Numerativ söz və birləşmələr ayrı-ayrı üslublarda, izahlı və frazeoloji lüğətlərdə, esse mətnlərində, sosial şəbəkə yazılarında atributiv əlaqənin nəticəsi olaraq meydana çıxır Həmin əlaqə əşya ilə geniş mənada onun əlaməti (maddi-material əsası, keyfiyyəti, miqdarı, sırası və s.) arasındakı əlaqələri ifadə edir.

Funksional üslublarda xüsusi yükü olan numerativlər struktur etibarilə leksik və frazeoloji vahidlərdən ibarətdir. Bu vahidlər, yəni numerativlər Azərbaycan dilinin tarixi abidələrində də aktiv istifadə olunmuş, onlar müxtəlif anlayışları – pul, ölçü, çəki, zaman və s. anlayışları ifadə etmişlər.

Biz bu vahidləri müxtəlif funksional üslublar üzrə struktur-semantik, kommunikativ-praqmatik, eləcə də funksional cəhətdən tədqiqatımızda təhlilə cəlb elmişik. Numerativlərin göstərilən aspektlərdə təhlili göstərir ki, tədqiqat işində istifadə olunmuş dil vahidlərinin böyük əksəriyyəti köhnə, arxaik və dialektal xarakter daşısa da, bunlar kifayət qədər canlı nitqin materialı kimi dəyərləndirilə bilər.

Beləliklə, üslub anlayışı bir dil vahidi kimi numerativ söz və ifadələrindən istifadə ilə, yəni dilin funksiyaları ilə bağlıdır. Sözügedən vahidlər Azərbaycan dilinin funksiyalarına (ünsiyyət, məlumatvermə və təsirgöstərmə) əsasən araşdırılır. Tədqiqat göstərir ki, məlumatvermə funksiyasını, təsirgöstərmə funksiyasını, ünsiyyət funksiyasını yerinə yetirdiyi kimi, bədii və gündəlik-məişət üslublarında numerativ söz və ifadələr funksional yük daşıyır. Mətn şəraitində onların işlənmə dərəcəsi dəqiqləşdirilir. Həmin dil vahidinin bu üslublarda yerinə yetirdiyi funksional yükün dərəcələri və s. müəyyənləşdirilir.

## Ədəbiyyat

1. «Mədəniyyət» qəzeti 09.03.1988 (s. 197-198, 200)
2. Vəliyev Ə.Ə. (1998), Seçilmiş əsərləri, Bakı, “Avrasiya Press”
3. Fizika dərsliyi, s. 192 (2, s. 22-23)
4. Anar. (2004), Seçilmiş əsərləri. Bakı: “lider nəşriyyat”
5. Rzaquluzadə M. (2006), Seçilmiş əsərləri, Bakı, “Şərq-Qərb”

6. Vəliyeva N. (2010), Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğəti, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı
7. Nəsimi (2004), Seçilmiş əsərləri, Bakı, «Lider nəşriyyat»
8. Xələfli Ə.İ. (2017), Üzü Qarabağa. Bakı: Vətən.
9. Kürdoğlu H. (2011), Seçilmiş əsərləri. Bakı: Sabah.
10. Rüstəm S. (2005), Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb.
11. Vəliyev Ə. (2005), Seçilmiş əsərləri. Bakı "Avrasiya Press"
12. İldırımoğlu Ə. (2017), Seçilmiş əsərlər. Bakı: Şərq-Qərb
13. Hüseynov İ. (2012). Janr, zaman və ədəbi qəhrəman, Bakı, "ELM VƏ TƏHSİL"
14. Məmmədquluzadə C. (2004), Seçilmiş əsərləri. Bakı, "ÖNDƏR NƏŞRİYYAT"
15. Məqalə başlığı, Sayyat Aran, Ulduz jurnalı, №1, Bakı 2019.
16. İldırımoğlu Ə. (2017) Seçilmiş əsərlər, Bakı
17. Əfənfiyeva T. (2011). Azərbaycan dilinin leksik üslubiyyatı, Bakı, Elm və təhsil
18. "Bir qırıq ömür və ya Çəmbərəkənd rapsodiyaları._„Qobustan„ 2/2006, s. 45
19. «Kredo» qəzeti, 26 oktyabr 2013-cü il, Bakı 2013, s. 26, 9
20. «Müəllim» nəşriyyatı, Bakı, 2005, 328 s.
21. Budaqova Z., Hacıyev T., (1982), Azərbaycan dili, Bakı, Elm
22. Rəhimova, Z. (2018), Yaşamaq istəyi. Bakı, «Bənövşə» jurnalı
23. Xələfli, Ə.R. (2020), Bakı, «Kredo»
24. Dəmirli, İ. (2020), Qəlbimə dağ çəkən 25 il. Bakı
25. Şıxlı, İ. (2019), Biblioqrafiya, Bakı
26. Cəlal, M. (2005), Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb"
27. ADİL, IV cild, Bakı 1987, s. 430, 427, 432, 234
28. Kazımov, İ. (2019), Türk dillərinin müqayisəli morfologiyası, Bakı, "Elm"
29. Rəhimov, S. (2005), Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb"
30. Axundov, S.S. (2005), Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb"
31. Rza, R. (2005), Seçilmiş əsərləri, Bakı: öndər nəşriyyat"
32. Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı, 1980, s. 270
33. Babullaoğlu, S. (2017) Rəqəmlərdən mətləbə…Esse. Bakı, 525-ci qəzet
34. Hüseynov, F.N., Əhmədov B.B, (2011) Məktəblinin frazeoloji lüğəti, Bakı: Elm və Təhsil


**Rəyçi: fil.e.d. İsmayıl Kazımov**

Göndərilib: 13.04.2022 Qəbul edilib: 18.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/50-54

**Rəsmiyyə İsrayıl qızı Əmiraslanova**
Mingəçevir Dövlət Universiteti
dissertant
amiraslanova.ras@mail.ru

# SÜNİ İNTELLEKTİN TƏTBİQİLƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASI

**Xülasə**

Müasirdə informasiya təhlükəsizliyinin təmini hər bir müəssisənin idarəetmə fəaliyyətində vacib rol oynayır. Bu da verilənlərin toplanması, saxlanması, emalı və tətbiqi texnologiyalarının əsasını təşkil edir. Bu proseslər informasiya riskləri səviyyələrinin kəmiyyət və keyfiyyət şkalalarına görə vaxtaşırı təhlilinə əsaslanır. Bunlar da, informasiya təhlükəsizliyi təhdidlərinin, zəifliklərinin vaxtında müəyyən edilməsi, zərərsizləşdirilməsi üçün müvafiq tədbirlər kompleksini həyata keçirməyə imkan verir. Təqdim olunan məqalədə, informasiya təhlükəsizliyi risklərinin analitik təhlili süni intellekt texnologiyalarının bir istiqaməti olan neyro-qeyri-səlis şəbəkəyə əsaslanan metodika ilə qiymətləndirilməsi aparılmışdır.

***Açar sözlər:*** *kompüter riyaziyyatı sistemləri, informasiya təhlükəsizliyi riski, süni intellekt, neyron şəbəkə, risklərinin qiymətləndirilməsi metodikası*

**Rasmiyya Israil Amiraslanova**

## Methodology for assessing information security risks with the use of artificial intelligence

**Abstract**

Today, information security plays an important role in the management of every enterprise. It is the basis of data collection, storage, processing and application technologies. These processes are based on periodic analysis of information risk levels on quantitative and qualitative scales. They also allow for the implementation of a set of appropriate measures to identify and neutralize information security threats and vulnerabilities in a timely manner. In the presented article, the analytical analysis of information security risks was assessed using a neuro-fuzzy network-based methodology, which is one of the directions of artificial intelligence technologies.

***Key words:*** *computer mathematical systems, information security risk, artificial intelligence, neuro network, risk assessment methodology*

## Giriş

Kompüter riyaziyyatı sistemlərinin (KRS) rəqəmsal texnologiyalara tətbiqi cəmiyyətin informasiyalaşdırılması prosesini sürətləndirərək bir növ strateji resursa çevirmişdir. Beləki, informasiya sistemləri ölkəmizin, eləcədə dunyanın bir çox iqtisadi, ekoloji, enerji, nəqliyyat, ərzaq, səhiyyə, təhsil və s. sahələrində ən dəyərli və təhlükəli resurs hesab olunur. Beləliklə, informasiya sistemləri müasir cəmiyyətin əsas amillərindən biri olub müəssisə və təşkilatlarda informasiyanın qorunması və təhlükəsizliyinin təmini məsələsini ön plana çıxarır (Amiraslanoava, 2019: s.17-19).

Təqdim olunan məqalənin əsas məqsədi informasiyanın mühafizə metodologiyalarını təhlil edib, kompüter riyaziyyatı sistemlərinin tətbiqilə ilə davamlığı, dayanıqlığı və səmərəliliyi təmin edən metodoloji sxemin hazırlanmasıdır (Hümbətəliyev, 2021: 283).

Məlumdur ki, qloballaşdırılmış rəqəmsal transformasiyaya keçid dövründə süni intellektin tətbiqi imkanları durmadan artmaqdadır və etibarlı, çevik və dayanıqlı təhlükəsiz informasiya sistemlərinin formalaşmasında vacib rol oynayır. Bu məqsədlə, məqalədə informasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi metodikası Neyron şəbəkədən istifadə edərək, kompüter riyaziyyatının ən geniş istifadə olunan Matlab proqram paketinin Neural Network Toolbox paketinin köməyilə yerinə yetirilmişdir. Sonda kəmiyyət və keyfiyyət göstəricilərinə görə adekvat nəticələrin əldə olunmasına dəstək verən işləmə mexanizmi təklif olunmuşdur.

## 1. İnformasiya təhlükəsizliyi sahəsində risklərin rolu

Risk sözün ümumi mənasında müəyyən qərarlar və ya hərəkətlər nəticəsində mənfi və ya müsbət nəticələri olan hadisələrin baş verməhtimalı və ya prosesi kimi başa düşülür. Bu proses məlumat risklərinin vaxtaşırı təhlilinə əsaslanır ki, bu da vaxtında informasiya təhlükəsizliyinə təhdidləri, informasiya sisteminin zəifliklərini müəyyən etmək, onların zərərsizləşdirilməsi üçün müvafiq tədbirlər görmək və nəticədə əvvəlki təcrübəni və yeni təhdid və zəiflikləri nəzərə alaraq təşkilatda informasiya təhlükəsizliyinin vəziyyətinə daim nəzarət etmək imkanı verir (Amiraslanova, 2020: 39-40 ). Bütün risklər təsadüfi hadisələrdir ki, bu da çox vaxt onlar haqqında keyfiyyətli məlumatın olmaması ilə bağlıdır. Bütün zəruri məlumatların əldə edilməsi müvafiq alətlərin olmaması, məlumatların toplanması və emalı üçün vaxt, xarici qüvvələrin hərəkəti, habelə risk proseslərinin və ya hadisələrinin təbiəti haqqında tam elmi biliklərin olmaması ilə məhdudlaşır (Mustafayeva, 2022: 57-59).

Risk insan fəaliyyətinin istənilən sahəsinə xasdır ki, bu da insanların qərarlarının nəticələrinə təsir edən bir çox şərait və amillərlə bağlıdır.

Riskin qiymətləndirilməsi ən çox iqtisadi, təbii, siyasi və hərbi fəaliyyət sahələrində istifadə olunur. İnformasiya təhlükəsizliyi sahəsində risklər keçən əsrin sonlarında kompüter texnologiyalarının inkişafı nəticəsində emal olunan məlumatların həcminin artması ilə əlaqədar olaraq diqqəti cəlb etməyə başladı. İnformasiya təhlükəsizliyi sahəsində risklərin idarə edilməsi özünəməxsus xüsusiyyətlərə malikdir. Bununla belə, normativ sənədlərdə və metodiki ədəbiyyatlarda istifadə olunan terminologiyada, standart risklərin qiymətləndirilməsi prosedurlarının tərkibində və qiymətləndiriləcək parametrlər toplusunda tez-tez uyğunsuzluqlar olur. Bu, informasiya sistemlərinin süni 51ntellektin tətbiqilə təhlükəsizlik riskinin qiymətləndirilməsinin mövzu sahəsini təhlil etməyi zəruri edir.

## 2. Problemin qoyuluşu

Rəqəmsallaşdırılmış cəmiyyətdə "informasiya təhlükəsizliyi riski" və ya "informasiya riski" termini çox geniş istifadə olunur. Lakin hələ də əksər alim və tədqiqadçılar tərəfindən qəbul edilən ümumi vahid konsepsiyanın şərhi yoxdur. Elmi işdə araşdırılan aktual problemlər aşağdakıları əhaət edir:

- müəssisənin informasiya sistemində onun fəaliyyətinin pozulmasına, məlumatın keyfiyyətinin aşağı düşməsinə səbəb olan təsadüfi hadisənin baş verməsi, nəticədə ziyan vurması ehtimalı;
- informasiya texnologiyalarından istifadə nəticəsində itki və ya zədələnmə riski;
- informasiya təhlükəsizliyinin pozulması ilə bağlı zərərin mümkünlüyünü nəzərdə tutan qeyri-müəyyənlik;
- aktivin zəifliyindən istifadənin potensial təhlükəsi, bununla da təşkilata zərər vurması (Ajmuxamedov, 2012: 59).

Təhdid - informasiya təhlükəsizliyinin pozulmasının potensial və ya real təhlükəsini yaradan şərait və amillər məcmusu kimi başa düşülür. İS-in təhlükəsizliyinə təhdid məlumatın məxfiliyini, bütövlüyünü və əlçatanlığını pozmaq üçün üçüncü şəxslər tərəfindən ona icazəsiz daxil olmaqdan ibarət ola bilər. İnformasiya sistemlərinin təhlükəsizliyinə təhdidlərin həyata keçirilməsinin nəticələrinin müəyyən edilməsi, dəf edilməsi və aradan qaldırılmasına yönəlmiş mühafizə tədbirlərinin, habelə onlara əsaslanan fəaliyyətlərin məcmusu *informasiya təhlükəsizliyi sistemi* adlanır.

Klassik idarəetmə sistemlərində informasiya təhlükəsizliyinin qorunması mexanizmi – qoruyucu tədbirlər toplusu, yəni, təhlükəsizliyi təmin edə bilən, zəifliyi azalda bilən, təhlükəsizlik sistemində insidentin təsirini məhdudlaşdıran hərəkətlər, prosedurlar və mexanizmlərdir. Qoruyucu tədbirlər həm təhdidlərin reallaşma ehtimalını azaltmağa (zəiflikləri aradan qaldırmaq və ya istifadəsini çətinləşdirməklə), həm də təhdidlərin həyata keçirilməsinin nəticələrinin (zərərin) miqyasını azaltmağa yönəldilə bilər (Baranova, 2016: 91-93).

Nəticələr dedikdə, risk hadisəsi (təhlükənin reallaşması) nəticəsində müəssisənin üzləşə biləcəyi müxtəlif maddi və qeyri-maddi itkilər başa düşülür. Riskli hadisənin bütün nəticələrinin keyfiyyət və ya kəmiyyət (xərc) qiymətləndirilməsi zərərin məbləği adlanır.

Ancaq praktikada ən geniş yayılmış risk qiymətləndirilməsi, mahiyyəti əvvəlcədən formalaşmış keyfiyyət şkalaları üzrə risk parametrlərinin (təhlükənin yaranması ehtimalı, zəiflikdən istifadə ehtimalları və zərərin məbləği) dəyərlərinin kompüter riyaziyyatı sistemlərinin bir istiqaməti olan süni intellekt proqramlarının tətbiqi ilə müəyyənləşdirilməsindən ibarətdir (Buldakova, 2013: 298-305).

Klassik nümunə "yüksək", "orta" və "aşağı" dəyərləri ilə risk parametrlərinin qiymətləndirilməsi üçün üç səviyyəli ölçüyə malikdir. Risk səviyyəsi xüsusi matrislə müəyyən edilir, hansında ki, mümkün risk səviyyəsi onun parametrlərinin qəbul etdiyi dəyərlərin kəsişmələrində qoyulmuşdur.

Süni intellektin tətbiqilə riskin qiymətləndirilməsi daxil olan məlumatların (aktivlər, təhlükələr, zəifliklər və s. haqqında məlumat) çıxış məlumatlarına (siyahı və risk qiymətləri) çevirən bir alt prosesdir. Riskin qiymətləndirilməsi prosesi ardıcıl prosedurlardan ibarət olub risklərin müəyyən edilməsi, təhlili və müqayisəsini əhatə edir (şəkil 1).




*Şəkil 1. Süni intellektin tətbiqilə risklərin qiymətləndirilməsi metodikası*

Riskin identifikasiyası aktivlər (mühafizə obyektləri), zəifliklər, həyata keçirilən qoruyucu tədbirlər, təhdidlər, təhlükə mənbələri və nəticələri haqqında məlumat toplamaq məqsədi ilə həyata keçirilir. Risklərin təhlili zamanı parametrlərin dəyərləri müəyyən edilir: təhlükə ehtimalı, zəiflikdən istifadə ehtimalı, zərərin miqyası və s. Risklərin əhəmiyyətini müəyyən etmək üçün müəyyən edilmiş səviyyələrlə risklərin müqayisəli qiymətləndirilməsi proseduru həyata keçirilir.

### 3. İnformasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi metodikası

Riskin qiymətləndirilməsi prosesi İnformasiya təhlükəsizliyi sisteminin həyat dövrünün bütün mərhələlərində tətbiq oluna bilər. Riskin kəmiyyət və keyfiyyət qiymətləndirilməsi prosesinə əlavə olaraq, risklərin idarə edilməsi çərçivəsində aşağıdakı proseslər fərqləndirilir (He, 2011: 778).

- əhatə dairəsinin (kontekstinin) müəyyən edilməsi risklərin qiymətləndirilməsi və qəbul edilməsi meyarlarını, habelə risklərin idarə edilməsi prosesinin sərhədlərini və əhatə dairəsini müəyyənləşdirilməsi;
- risk müalicəsi riskin dəyişdirilməsi tədbirlərinin seçilməsi və həyata keçirilməsi prosesi;
- risklər haqqında məlumat mübadiləsi risklərin idarə edilməsi prosesinin bütün aspektləri üzrə iştirak edən tərəflər arasında razılığın əldə edilməsinə yönəldilməsi;
- risklərin qiymətləndirilməsinə və risklərin müalicəsi ilə bağlı qərarların qəbul edilməsinə təsir edən amillərdə dəyişikliklərə nəzarət etmək məqsədilə risklərin monitorinqi və təhlilin aparılması (Mustafayeva, 2022: 58).

İnformasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi metodikası kompüter riyaziyyatının ən geniş istifadə olunan Matlab proqram paketinin köməyilə yerinə yetirilmişdir (Qluşenko, 2013: 37). Qiymətləndirmə Matlab proqramına daxil olan NEURAL Network Toolbox proqram modulundan istifadə etməklə daxili prosedurlar şəklində, müəyyən biliklər bazasının formalaşması əsasında aparılmışdır. Sonda kəmiyyət və keyfiyyət göstəricilərinə görə əldə olunmuş adekvat nəticələr sistemin təhlükəsizliyinin təmini risklərini yüksəldir və nəzarətdə saxlamağa imkan verir (Sakhno, 2018: 32).

Müxtəlif neyropaketlərin təhlil nəticələrinə görə, informasiya sisteminin təhlükəsizliyini təhlil etmək üçün Matlab sisteminin NEURAL Network Toolbox paketi seçilmişdir. O, qoyulmuş məsələnin həlli üçün optimal sistemin axtarış prosesini avtomatlaşdırmaq imkanına malikdir. Neyron şəbəkədən istifadə edərək, informasiya sisteminin təhlükəsizliyinin qiymətləndirilməsi mərhələləri aşağıdakı kimi təsvir olunur (Qaluşkin, 2011: 38).

1. *Neyron şəbəkənin tətbiqi probleminin qoyuluşu.* Problemin həlli üçün neyron şəbəkədən istifadənin məqsədəuyğunluğu haqqında ilkin fərziyyələrin irəli sürülməsi.
2. *Şəbəkə topologiyasının seçimi.* Problem və təlim üçün mövcud verilənlərə əsaslanaraq şəbəkə tipini seçilməsi
3. *Şəbəkə xüsusiyyətlərinin seçilməsi.* Şəbəkə parametrləri eksperimental olaraq seçilir: təbəqələrin sayı, gizli təbəqələrdəki blokların sayı, giriş əlaqələrinin olması və ya olmamasının təyini, neyronların ötürmə funksiyaları və s.
4. *Verilənlərin seçilməsi, təlim nümunəsinin formalaşdırılması.* Təlim nümunəsinə neyrosistemin gələcək istifadəsi şərtlərinə yaxın olan şərtləri təsvir edən məlumatlar daxildir.
5. *Təlim parametrlərinin seçilməsi.* Təlim parametrlərinin dəyərləri təlimin tamamlanması meyarına (məsələn, xətanın minimuma endirilməsi və ya məşq vaxtının məhdudlaşdırılması) əsaslanaraq eksperimental olaraq seçilir.
6. *Neyron şəbəkənin öyrədilməsi.* Neyron şəbəkənin təlimi təlim məlumatlarının şəbəkə sisteminə təqdim edilməsi prosesindən ibarətdir.
7. *Təlimin adekvatlığının yoxlanılması.* Neyron şəbəkənin təlim keyfiyyətinin yoxlanılması onun təlimində iştirak etməyən nümunələr üzrə aparılır. Əldə edilən nəticələr gözlənilənlərdən əhəmiyyətli dərəcədə fərqlənirsə, problemin qoyuluşuna qayıtmaq lazımdır (Schrieber, 2014: 642)

Süni intellektin müdafiəsini qiymətləndirərkən ekspert qiymətləndirmələrindən istifadə etmək lazımdır. Qiymətləndirmə aşağıdakı tələbləri ödəməlidir:

- yoxlanılan təşkilatın daxili normativ sənədləri və zərurət olduqda təşkilatın informasiya təhlükəsizliyinin təmin edilməsinə aid üçüncü şəxslərin sənədləri;
- aparılan sorğular zamanı yoxlanılan təşkilat əməkdaşlarının şifahi fikirləri;
- ekspert qrupu üzvlərinin yoxlanılan təşkilatın əməkdaşlarının fəaliyyətinə dair müşahidələrinin nəticələri;
- yoxlanmış təşkilatın IP ekspertləri tərəfindən sorğunun nəticələri;
- ekspertlər tərəfindən təhlükəsizliyin təhlili üçün instrumental vasitələrdən istifadənin nəticələri.

## Nəticə

İnformasiya təhlükəsizliyi riskinin qiymətləndirilməsi risklərin qəbulu meyarlarına və təşkilata aid olan məqsədlərə uyğun olaraq riskləri müəyyən etməyə, kəmiyyətləndirməyə və prioritetləşdirməyə kömək edən müəssisələrin idarəetmə təcrübələrinin mühüm hissəsidir. Risklərin idarə edilməsi məlumat sisteminə potensial olaraq təsir göstərə bilən təhlükəsizlik risklərini azaltmaq üçün informasiya sisteminin resurslarına mənfi təsir göstərə biləcək proseslər araşdırılmış və müəyyən təkliflər verilmişdir.

Kibertəhlükəsizlikdə süni intellektin rolu və təşkilatların kibertəhlükəsizlikdə süni intellektdən necə faydalanması ilə bağlı tövsiyələr təklif edilmiş və Neyron şəbəkənin tətbiqilə bağlı alqoritmlərin təhlili verilmişdir.

İnformasiya təhlükəsizliyinin qiymətləndirilməsinin ümumi sxemi əsasında mərhələlər üzrə təhlükəsizliyinin təhlili metodologiyası hazırlanmışdır ki, onun istifadəsi nəinki təhlükəsizlik səviyyəsini, habelə effektivliyini qiymətləndirməyə imkan verir.

## Ədəbiyyat

1. Hümbətəliyev, R. (2021), Kompüter riyaziyyatı sistemlərinin tətbiqilə informasiyanın mühafizəsi metodologiyası // The XXI International Scientific Symposium "Science and Culture in the Modern World" dedicated to the Day of Solidarity of World Azerbaijanis, İnternational Scientific Center «Elger», Stokholm /Sweden, s.282-285.
2. Amiraslanova, R. (2020), Features of computer math // XVI İnternational Correspondence scientific specialized conference "İnternational Scientific reviewof the technical sciences, mathematics and computer sciences // Boston. USA: Boston Massachusetts. p.38-44.
3. Ajmuxamedov, I. (2012), Otsenka povrojdeniy bezopasnosti informatsionnoy sistemy na osnove necotko-koqnotiqnogo podkhoda // Voprosy zashchity informatsii. №1.s. 57–60
4. Amiraslanova, R. (2019), Metody i sposoby obrabotki i primeneniya dannix v komputernoy matematike // Moskva: Yevraziyskiy Soyuz Uchenyx (ECY), №10 (67). s. 16-20
5. Baranova, K. (2016), Metody analiza riskov informatsionnoy bezopasnosti s ispolzovaniyem logiki na baze instrumentaiya Matlab // Obrazovatelnie resursy i texnologii. №1 (13). s. 88–96.
6. Buldakova, T. (2013), Otsenka informatsionnykh riskov v avtomatizirovannix sistemax s pomosyu neyron-noçotkix modeley // Nauka i obrazovaniye: MGTU. N.E. Baumana. № 11. s. 295–310.
7. Glushchenko, S. (2013), Primeneniye sistem MATLAB dlya otsenki riskov informatsionnoy bezopasnosti organizatsii // Biznes-informatika. № 4 (26). s.35–42.
8. Galushkin, A. (2011), Neyrokomputery v reshenii zadachi obespecheniya informatsionnoy bezopasnosti // Informatsionnyye texnologii. №1. s.34–38.
9. Dolzhenko, A. (2009), Model analiza riska potrebitelskogo kacestva proyektov ekonomiceskix informatsionnix sistem // Vestnik Severo-Kavkazskogo gosudarstvennogo texnicheskogo universiteta. №1 (18). s.129-134.
10. Mustafayeva, A. (2022), Analiz riskov informatsionnoy bezopasnosti. Innovatsionnyye naucnyiye issledovaniya. Setevoye izdaniye, Naucniy jurnal. № 1-1 (15), ISSN 2713-0010, s.56-62.
11. Sakhno, V. (2018), Primeneniye metodov nelogicheskoy logiki dlya resheniya zadachi obespecheniya informatsionnoy bezopasnosti / Molodoy issledovatel. Dona №4(13) Rostov-na-Donu: Izdatelskiy sentr DGTU, s.28-35
12. Schrieber, M. (2014), Hardware Implementation of a Novel Inference Engine for Interval Type-2 Fuzzy Control on FPGA // IEEE International Conference on Fuzzy Systems (FUZZ-IEEE), Beijing, China. - USA, Piscataway, NJ: IEEE. p. 640-646.
13. He, Y. (2011), Risk assessment of urban network planning in china based on the matter-element model and extension analysis /International Journal of Electrical Power & Energy Systems. p.775-782

**Rəyçi: tex.ü.f.d. Aidə Mustafayeva**

Göndərilib: 06.04. 2022 Qəbul edilib: 12.05. 2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/55-58

**Gunay Elshan Bahmanli**
Azerbaijan State University of Economic (UNEC)
master
bahmanlyg@gmail.com

# SUGGESTIONS ON WORK TO BE DONE IN KARABAKH REGİON IN THE FRAMEWORK OF SUSTAINABLE DEVELOPMENT

## Abstract

After winning the 44-day Patriotic War in 2020, Azerbaijan's primary task was to rebuild and restore Karabakh. Because the social, economic, and civic infrastructure of the region, which Armenia has controlled for 30 years, has been completely destroyed. Significant industrial infrastructure, as well as transportation and communication networks, have been devastated in the region. The rebuilding process must be carried out in accordance with the long-term economic system's goals.

Sustainable development is the most cutting-edge strategy to progress that not only incorporates future needs without limiting humanity's possibilities, but also encompasses human potential and capital, current information mobilization, and environmental assurance and advancement. Sustainable development is dynamic approach to development (Sachs Jeffrey, 2021: 1). This has social, economic, and environmental ramifications, and given the current status of the Karabakh region, all three paths for reconstruction are perfect.

Sustainable development has 17 internationally recognized goals. Since we started the path of development in Karabakh from scratch, it will be very successful to take appropriate measures based on these goals.

***Key words:*** *sustainability, sustainable development, Karabakh, suggestions, reconstruction*

**Günay Elşən qızı Bəhmənli**

## Davamlı inkişaf çərçivəsində Qarabağ regionunda görüləcək işlərlə bağlı təkliflər

## Xülasə

2020-ci ildə 44 günlük Vətən Müharibəsində qalib gəldikdən sonra Azərbaycanın əsas vəzifəsi Qarabağı yenidən qurmaq və bərpa etmək idi. Çünki Ermənistanın 30 ildir nəzarətində olduğu bölgənin sosial, iqtisadi infrastrukturu tamamilə məhv edilib. Bölgədə əhəmiyyətli sənaye infrastrukturu, o cümlədən nəqliyyat və kommunikasiya şəbəkələri dağıdılıb. Yenidənqurma prosesi uzunmüddətli iqtisadi sistemin məqsədlərinə uyğun aparılmalıdır.

Davamlı inkişaf təkcə bəşəriyyətin imkanlarını məhdudlaşdırmadan gələcək ehtiyacları deyil, həm də insan potensialını və kapitalını, cari məlumat səfərbərliyini, ətraf mühitin təminatı və irəliləyişini əhatə edən tərəqqi üçün ən qabaqcıl strategiyadır. Davamlı inkişaf inkişafa dinamik yanaşmadır. Bunun sosial, iqtisadi və ekoloji nəticələri var və Qarabağ bölgəsinin hazırkı statusunu nəzərə alsaq, yenidənqurma üçün hər üç yol mükəmməldir.

Davamlı inkişafın beynəlxalq səviyyədə tanınmış 17 məqsədi var. Biz Qarabağda inkişaf yoluna sıfırdan başladığımız üçün bu məqsədləri əsas götürərək müvafiq tədbirlərin görülməsi çox uğurlu olacaqdır.

***Açar sözlər:*** *davamlılıq, davamlı inkişaf, Qarabağ, təkliflər, yenidənqurma*

## Introduction

Humankind is confronted with a host of ecological, societal, and economical concerns in the twenty-first century. Almost every government, international agency, and commercial partner is confronted with difficulties. Sustainable development is the organizing principle for achieving human development goals while also safeguarding natural systems' ability to provide the natural resources and biological system management services that the economy and society rely on (Bartlett Albert, 2012: 1). Azerbaijan is also making significant strides in this area. Azerbaijan is approaching a critical period in the post-pandemic and post-conflict era, which will last from 2021 to 2030.

Recognizing global trends and problems, the Azerbaijani government establishes the country's long-term growth vector and courses to socio-economic and natural improvement over the next decade through five national needs (approved by the president). The conclusion of the Armenia-Azerbaijan war offers Azerbaijan and the area new economic opportunities. In this context, one of Azerbaijan's main development priorities in the next years will be the rehabilitation, reconstruction, and reintegration of liberated and conflict-affected areas.

Work on the restoration process has already begun. The government budget has allocated 2.2 billion manat to construction projects in Karabakh for the year 2021. Simultaneously, in accordance with the President's decree dated January 4, 2021, to provide a modern and decent life for long-term settlement in the liberated territories, to carry out construction and rehabilitation work in all areas, and to support safe living, efficient operation, and long-term growth The Fund for Karabakh Revival has been established. This fund provides financial support and investments in the restoration and reconstruction of the liberated lands of the Republic of Azerbaijan, as well as measures to transform the region into one with a sustainable economy and high prosperity, and the development of public-private collaborations in this area, both within and outside the country.

The rehabilitation and restoration operations in Karabakh may be divided into four categories:

- city reconstruction;
- energy supply;
- transportation infrastructure development;
- environmental restoration.

In Azerbaijan, the words "smart city" and "smart village" are being used for the first time. The "Smart Hamlet" program is now underway in the Third Agali hamlet in the Zangilan district. It should be noted that the concept of "Smart City" and "Smart Village" refers to using information technology to improve the quality, safety, and effectiveness of the services provided in cities and villages across the Republic of Azerbaijan, as well as to ensure effective use and management of available resources and long-term growth in rural areas. A smart city's main goal is to employ smart technology and data analytics to improve city operations and economic growth while also improving people's quality of life (Nina, 2020: 1). Housing, manufacturing, social services, smart agriculture, and renewable energy will be the primary emphasis of the effort. Representatives from Turkish, Chinese, Italian, and Israeli businesses are involved in this project. Last year, Turkish specialists stated their desire to participate in alternative energy programs in newly liberated areas. Huawei's general manager in Azerbaijan, on the other hand, stressed the company's desire to provide cutting-edge technology in Karabakh and to continue to work on the establishment of smart villages. In the liberated Zangilan region, Italy and Israel are collaborating on a smart city concept. An Israeli company is building a dairy farm where Israeli technology will be used to manufacture dairy products, namely milk.

The most important part of the reconstruction and restoration work in Karabakh is the provision of power to the territories, as well as the development of renewable and innovative energy sources. Azerbaijan has experience in this field, having provided and exported energy on a global scale. Since its independence, Azerbaijan has completed a number of projects of international significance in the development of energy resources in the geographical area in which it is located, as well as the transport of hydrocarbon resources abroad via pipelines. In addition to traditional energy sources, Azerbaijan has used renewable and unique energy sources, particularly water and solar energy, in recent years (Aida, 2021: 1). This information was also applied to the construction of a new energy infrastructure in Karabakh. To begin with, Karabakh has been declared as a "green energy" zone as a whole. On May 3, the President signed an order "On actions to build a" green energy "zone in the Republic of Azerbaijan's emancipated regions."

During the occupation, all of Karabakh's modern roads were completely destroyed. The reconstruction effort also entails the construction of new transportation and communication linkages, as well as the restoration of previously existing roads. Establishing rail and road links between Nakhchivan and Azerbaijan's western regions, as well as launching the Zangazur corridor, are two significant goals in this approach. The Horadiz-Jabrayil-Zangilan-Agband length on the Azerbaijani side of the Zangazur transit corridor, which provides access to the Nakhchivan Autonomous Republic, is being planned and built in tandem. The road is expected to be completed in 2024. This route will be 123.8 kilometers long.

The factors that will negatively affect the sustainable development economy in the region can be summarized as follows:

**The status of Karabakh** - Although Azerbaijan has said unambiguously that the area known as Nagorno-Karabakh does not exist, the Armenian side claims that the conflict is still ongoing and that the status is pending. Given the existence of Armenians in the region, this matter should be resolved in accordance with Azerbaijani legal standards. The inaccuracy of this topic might have harmful effects for both home and international policy growth. First and foremost, the region's reconstruction plans may be hampered by concerns about the Armenian population living there. Second, the issue of status can have a significant detrimental influence on the region's ability to attract international investment. The region's tourism potential is enormous, and the region's ongoing status conflicts will have an impact on visitor attractiveness.

**High level of pollution in the region** - Anthropogenic effect has a significant impact on the region. This pollution and impact has a negative influence on the region's water supplies, forests, and land cover. In Karabakh, work has already begun to assure the settlement of the people and the utilization of the region's economic potential. Residential neighborhoods that have been reduced to rubble are being rebuilt, as are social infrastructure facilities and devastated highways. The restoration of ideal circumstances for agriculture, which has been highly developed in the area from ancient times, is the main priority. The topsoil of areas that haven't been planted in a long time and have been negatively impacted has been harmed. With the assistance of international experts, appropriate steps to boost soil fertility should be performed. It is also vital to devote time and resources to the restoration of contaminated and damaged fresh water resources as well as forests.

**National composition of the region** - For many years, the people of the region have been forcibly driven from their homes. Of course, this has resulted in considerable changes in the ethnic makeup of the region. As a result, the state's first priority should be to take steps to re-establish its population in the region. It's also critical to enlist the public's help in putting suitable development initiatives in place in the region.

Despite all the negative effects and factors in the region, they can not hinder our country on the path to development. As we have noted, the region has a very favorable environment for development. We can summarize the proposals in part as follows:

**Infrastructure, innovation and industry** - Together with innovation and infrastructure, inclusive and sustainable industrialisation can develop competitive and dynamic economic forces that generate employment and wealth. They are crucial in the introduction and promotion of new technologies, as well as enabling international trade and maintaining resource efficiency. Building the devastated infrastructure in line with today's needs, using the most cutting-edge products of innovation, and, as a result, developing the most cutting-edge industries in the region, may make a substantial contribution to the region's and country's growth. Specializing and production in specialized fields are common in our locations. The Karabakh area, on the other hand, provides a very suitable environment for the development of industrial parks. The development of three airports in the region also indicates that the region's geographical environment will not pose any obstacles to the transportation of locally produced goods.

**Food stocks** - Thousands of people suffer from malnutrition across the world, as we all know. True, our government has taken proper measures and has resources in this area. However, worldwide pandemics and conflicts, as well as sanctions against some nations, have had an impact on food costs in recent months, and food prices have reached their highest level since 1989. The Karabakh area is crucial for implementing suitable food security measures in the future. The Karabakh area has tremendous agricultural growth potential. It is feasible to accomplish interactive livestock and agricultural development using the region's most recent agricultural advances.

**Renewable energy** - Unfortunately, despite its considerable potential, renewable energy sources are not widely used in our nation. Karabakh is well positioned to make a strong start in the area. Karabakh is one of the most important districts in Azerbaijan for the development of indigenous water resources. This area produces 25% of Azerbaijan's local water resources, or around 2.56 billion cubic meters of water each year. This is excellent news for hydropower development. Solar radiation per square meter of horizontal surface is 1600-1700 kWh per year at this location. By precisely calculating the potential

through the installation of observation stations, it is possible to use the region's solar potential. At a height of 100 meters in the mountainous section of Karabakh, there are extensive areas with an average yearly wind speed of 7-8 m/s. Given that the majority of the territory has a high geographical environment, correct estimates may be used to develop adequate equipment for wind energy production in the region (Aida, 2021: 2).

**Revitalizing the partnership** - The state budget has set aside significant funds for the region's revitalization. Only with the assistance of internal support, however, it might take a long time to achieve the target level. As a result, it is critical to supply international investors with knowledge about the region's potential and to build global collaborations in order for the region to become one of the future's main centers.

## Conclusion

The potential for Azerbaijan to achieve long-term economic growth is considerable. Restoring the independence of our lands, which have been occupied for many years, is critical to accomplishing the aims and objectives of a sustainable economy, as well as all other goals and objectives. We tried to present some ideas on this issue in the headings above. Of course, the actual results may differ from those predicted by the theory. First and foremost, it is vital to strive to eliminate the obstacles that would obstruct the activity in this field. Which we have tried to mention above the factors that can cause difficulties. Secondly, the main goal is to carry out the process in accordance with the latest trends in the areas where we started from scratch. It is also the main purpose of this study. In this study, relevant proposals have been made in this regard, touching on issues that may be more important.

## References

1. Aida, G., Parvin, M., and Turan, M. (2021). “Economic analysis of alternative energy development in Nagorno-Karabakh and surrounding regions”, EDP Sciences
2. Bartlett Albert, A. (2012) “The Meaning of Sustainability”, Teachers Clearinghouse For Science And Society Education Newsletter, 2012, Pg. 1
3. Baumgärtner, S., Quaas, M. F. (2010). “Sustainability economics-general versus specific, and conceptual versus practical”, Institut für Volkswirtschaftshre der Universität Lüneburg, 2010, Pg. 1
4. Development Concept, 2012, “Azerbaijan – 2020: The Vision of Future”
5. Sachs Jeffrey, D., Kroll, C., Lafortune, G., Fuller, G., Woelm, F. (2021), “Sustainable Development Report 2021”, United Kingdom: Cambridge University Press, 518 pages, https://dashboards.sdgindex.org/
6. Elchin, S. and Osman, A.N. (2016), “Azərbaycan İqtisadiyyatı, Economy of Azerbaijan”, Baku: Sharg-Garb Publishing House, 426 pages
7. Elchin, S., Osman, A.N, Karim, M. (2016), “Economy of Azerbaijan: 25 years of independence”, Baku: Sharg-Garb Publishing House, 402 pages
8. Muslim, I., Ana, A., Darko, D. (2019), “Economic and Social Development”, Baku: Online edition, Azerbaijan State University of Economics (UNEC), 1630 pages, https://unec.edu.az/application/uploads/2019/09/H-midov-H-mid-2.pdf
9. Nina, E., Nora, K., Dominik, N. (2020). “The Sustainable Development Goals prioritize economic growth over sustainable resource use: a critical reflection on the SDGs from a socio-ecological perspective”, academia.edu, 2020, Pg. 1
10. Nona, M. (2010). "The Azerbaijan-Russia-Turkey Energy Triangle and its Impact on the Future of Nagorno-Karabakh", academia.edu, 2010, Pg. 1
11. Shahriyar, M. and Sannur A. (2019). "The Effect of Oil Prices on Macroeconomic Variables: Evidence from Azerbaijan", International Journal of Energy Economics and Policy, 2019, Pg. 1
12. United Nations Development Programme (2021). Sustainable Development Goals, https://www.undp.org/sustainable-development-goals

**Rəyçi: i.ü.f.d. Altay İsmayılov**

Göndərilib: 23.04.2022 Qəbul edilib: 27.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/59-63

**Rübabə Elsəvər qızı Həsənli**
Bakı Dövlət Universiteti
magistrant
hasanlirubabe@gmail.com

# 1950-1990-CI İLLƏRDƏ ALINMA SÖZLƏRİN TƏDQİQİ İLƏ BAĞLI MƏSƏLƏLƏR

**Xülasə**

Məqalədə 1950-1990-cı illərdə dilimizə daxil edilmiş alınma sözlərin xüsusiyyətləri əks etdirilmişdir. 1950-1990-cı illərdə alınmalar barəsində verilmiş fikirlər təhlil edilmişdir. Ərəb, fars, rus mənşəli, eləcə də rus dili vasitəsilə dilimizə keçmiş sözlər tədqiqata cəlb edilmişdir. Məqalədə alınmalarla bağlı bir sıra dil faktlarına toxunulmuşdur. Bu məqalədə alınmaların həm fonetik, həm semantik, həm qrammatik xüsusiyyətləri ilə bağlı məsələlər aydınlaşdırılmışdır: alınmaların yazılış və tələffüzə görə dəyişməsi, morfoloji quruluşunun dəyişməsi, milli şəkilçilərimizi qəbul etməsi, ictimai həyatın bütün sahələrində istifadəsi kimi əlamətləri diqqət mərkəzində olmuşdur.

***Açar sözlər:*** *alınma sözlər, rus mənşəli sözlər, ərəb mənşəli sözlər, beynəlmiləl sözlər*

**Rubaba Elsever Hasanli**

## Issues related to the study of derived words in 1950-1990

**Abstract**

The article reflects the characteristics of derived words introduced into our language in 1950-1990. Opinions on acquisitions in 1950-1990 are analyzed. Words of Arabic, Persian, Russian origin, as well as words translated into our language through the Russian language were involved in the research. The article touches on a number of language facts related to acquisitions. This article clarifies issues related to the phonetic, semantic and grammatical features of borrowings: changes in spelling and pronunciation, changes in morphological structure, adoption of our national suffixes, use in all spheres of public life.

***Key words:*** *derived words, words of Russian origin, words of Arabic origin, words of international origin*

## Giriş

Hər bir dildə olduğu kimi Azərbaycan dilində də lüğət tərkibinin müəyyən bir hissəsi başqa dillərdən gəlmə sözlərdən ibarətdir. Alınma sözlərdilin inkişafında xüsusi mövqe tutmuşdur. Dilin quruluşunda müxtəlif leksik, semantik, qrammatik xüsusiyyətlərə malik növbənöv alınma sözlərə rast gəlirik. Bu da dövrün ictimai-siyasi həyat şəraitindən, dövrün tələbindən irəli gələn bir məsələdir.

Azərbaycan dilindəki gəlmə sözlər mənşə etibarilə müxtəlif olmuşdur. Bunların bir qismi, şərqdən - ərəb, fars, türk-osmanlı dillərindən, başqa bir hissəsi isə qərbdən rus və latın, italyan, ispan, fransız, ingilis, alman dillərindən rus dili vasitəsilə alınmışdır. Sözlərin bir hissəsi şifahi danışıq yolu ilə, digər bir qismi isə mətbuat, kitab vasitəsilə dilimizə daxil edilmişdir.

Z.Ə.Əlizadə “Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsi yolları haqqında” məqaləsində alınmaları bir neçə növə ayırmışdır:

1) Rus dilindən olduğu kimi alınır, onun xarici qabığı dəyişmir və Azərbaycan dilində işləklik qabiliyyəti qazanır: radiasiya, kompensasiya, katalizator, fond, veteran, statistika, kompleks, deviz. Bəzən söz alınır, milli şəkilçilərimiz əlavə edilir.

2) Rus dili vasitəsilə kalkalar hesabına söz alınır. Bunlar daha çox birinci növ təyini söz birləşmələri formasında olur. Yenidənqurma, maddi-texniki ehtiyat, özxərcini ödəmə kimi sözlərdə kalkalar tam şəkildə özünü göstərmişdir. Dilimizdə bir də yarımçıq kalkalar hesabına artım olmuşdur. Bu zaman bir tərəf tərcümə olunmur, digər tərəf tərcümə olunmuşdur: irimiqyasyalı tədbir, kompleks proqram, sosial – sima, aqrosənaye kompleksi, qeyri-qara torpaq zona, konstruktor üsulları, təsərrüfatçılıq metodları, istehsaldaxili təsərrüfat hesabı, idarəetmənin təşkilat strukturu, avtovazxidmət, iqtisadi mexanizm tətbiqi. Bəzi hallarda isə ərəb dilindən alınan leksik vahidlər dilin passiv fonddundan aktiv fonduna keçir, tənəzzül, təhqiq etmək sözlərini bura aid etmək olar (Həsənov, 1989: 17-18). R. Rüstəmov *“Rus*

*dilinin Azərbaycan dilinə müsbət təsiri tarixinə dair bəzi qeydlər" məqaləsində qeyd etmişdir ki, müxtəlif sahələrlə bağlı məfhumları ifadə edən terminlərin Azərbaycan dilində qarşılığı olmadığı üçün onlar iki başlıca yolla əmələ gəlir. İlk növbədə, məfhumları ifadə edən sözləri əvəz edərək tərkiblərini ərəb və fars dillərindən almaq olar. İkinci üsulla isə sözləri rus dilindən olduğu kimi qəbul etmək olar. R. Rüstəmov rus dilinin Azərbaycan dilinə təsirini, rus dili vasitəsilə dilimizə alınma sözlərin keçməsini XIX əsrin ikinci yarısı ilə bağlayır. Bir sıra rus mənşəli terminlərin M.F.Axundovun yaradıcılığı vasitəsilə dilə gəldiyini sübut edi*r. (Rüstəmov, 1953: 98-99).

B.T.Abdullayev "Alınma sözlərin Azərbaycan dilinin sinonimikasında rolu" məqaləsində milli sözlərimizlə alınma sözlərin paralel işlənməsi ilə bağlı ətraflı məlumat verilib. Hətta alınma sözlərin də bir-birilə sinonim olduğunu, onların sinonimliyinin iki qrupa ayrıldığını qeyd edir: 1) eyni bir dildən alınmış sözlər sinonim ola bilər. 2) müxtəlif dillərdən alınmış sözlər sinonim ola bilər.

Dilimizdə paralel şəkildə işlənən bir sıra alınma sözlər var ki, onların hər ikisi eyni dildən götürülmüşdür. Məsələn, dəlil (ərəbcə) – sübut (ərəbcə), nalə (farsca) – fəryad (farsca), artist - (avropa mənşəli) aktyor (avropa mənşəli). Dilimizdə bir sıra ərəb mənşəli sözlər milli şəkilçilər qəbul edərək bir qisim sözlərin sinonimi kimi çıxış edə bilir: məsələn, -lı$^4$ şəkilçisi vasitəsilə, təqsirli – müqəssir, hörmətli – möhtərəm, ehtişamlı – möhtəşəm, -çı$^4$ şəkilçisi vasitəsilə, səyyahətçi – səyyah, tənqidçi –münəqqid, -lıq$^4$ şəkilçisi vasitəsilə, sükunət – sakitlik , əsirlik - əsarət, lətiflik – lətafət və s. (Budaqova, 1963: 75-84)

Ərəb və fars dilindən düzəlmiş bir sıra feillərdə də sinonimliyi görürük: heyrətlənmək – təəcüblənmək, kədərlənmək – qüssələnmək, hirslənmək – qeyzlənmək, vidalaşmaq – xüdafizləşmək, xəstələnmək – naxoşlamaq və s.

Azərbaycan dilində müxtəlif dillərdən alınmış alınmaların paralel şəkildə işləndiyini də görürük: güzəran (fars) – həyat (ərəb), eyvan (ərəbcə) – balkon (Avropa mənşəli), məqbərə (ərəbcə)–movzoley (Avropa mənşəli), (ərəbcə) – adres (Avropa mənşəli), rüb (ərəbcə) – kvartal (Avropa mənşəli), buket (Avropa mənşəli) – dəstə (fars). (Budaqova, 1963: 83)

Sinonim olan fars və ərəb sözlərinin bir qisminə fars,digər bir qisminə isə milli mənşəli şəkilçilər artırmaqla yeni sözlər yaradılmışdır. Məsələn, qəbiristan (ərəbcə) – məzarlıq (farsca) , füsunkar (farsca) – məftunedici (ərəbcə). Bəzi feillərin kökündə də bu paralelliyi görmək mümkündür: günahlandırmaq (farsca) – təqsirləndirmək (ərəbcə), vahimələnmək (ərəbcə) – xoflanmaq (farsca), əfsunlamaq (farsca) – sehirləmək (ərəbcə) və s. (Budaqova, 1963: 75-84)

B.T.Abdullayev məqaləsində bildirir ki, alınma sözlərin Azərbaycan dilinin sinonimikasının zənginləşməsində böyük rolu vardır. Lakin dildə həddən artıq alınma sinonimliyinin, alınma paralelliyinin mövcud olması müsbət hal deyildir.

G.İsmayılovanın " Azərbaycan mətbuatında rus dilindən və rus dili vasitəsilə ilə başqa dillərdən alınmış söz və terminlər" adlı məqaləsində rus dilindən alınmış bir sıra sözlərin xüsusiyyətləri ilə bağlı məqamlara diqqət edilmişdir:

Rus dilindən və rus dili vasitəsilə alınmış bir sıra alınma sözlərdə morfoloji-sintaktik cəhətdən bir sıra xüsusiyyətlər özünü göstərmişdir. Rus dilindən keçən bəzi sözlər başqa sözlərlə əlaqəyə girərkən fonetik-morfoloji cəhətdən bir sıra dəyişikliyə uğramışdır. Buna demokratik, demokrat, komitə kimi sözləri misal göstərmək olar. Azərbaycan dilində işlənən demokrat sözü rus dilində həm isim, həm də sifət vəzifəsini daşıyır. Azərbaycan dilində də bu söz hər iki vəzifədə işlənmişdir. Azərbaycan dilində isim formasında rus dilində olduğu kimi демократ formasında işlənmişdir. Sifət kimi işləndikdə isə olduğu kimi qalmır, demokratik formasında işlənir.Rus dilindən alınmış komitə sözü öz əsli formasınıкомитет şəklində saxlaya bilməyib, fonetik cəhətdən Azərbaycan dilinin öz qanunlarına uyğunlaşdırılmışdır.(Budaqova, 1963: 98)

Rus dili və rus dili vasitəsilə alınmış bir sıra sözlər isə öz əslini olduğu kimi saxlayıb, bunlar rus dilinin morfoloji xüsusiyyətlərinə uyğun şəkildə qəbul edilmişdir. Məsələn, komisiya, komadir, protest, sosialist, sosializm, mitinq, konstitusiya, avtonomiya, bürokratiya, konflikt, konfrans, feodalizm, büro, jandarm, komandan, kapital, imperialist, kapitalist, milis, komanda, kommunizm, qvardiya, kartoçka, partiya, burjuaziya, bolşevizm, sovet, fraksiya kimi sözlər buraya daxildir. (Budaqova, 1963: 99). G. İsmayılova rus dilindən alınıb, olduğu kimi saxlanılan sözləri quruluşuna görə iki qismə ayırmışdır:

1) kök sözlər –soyuz, syezd, matros, komissar, diktatura, daşnak, post, rada və s.

2) düzəltmə sözlər –sosializm, sosialist, kommunizm, kommunist, imperialist, imperializm (Budaqova, 1963: 99)

Rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınmış bir sıra sözlərə milli mənşəli şəkilçilər artırılmaqla yeni mənalı sözlər yaradılmışdır. Məsələn – çı$^4$ şəkilçisi vasitəsilə, makinaçı, qvardiyaçı, daşnakçı kimi sözlər, - lıq$^4$ şəkilçisi vasitəsilə, kommunistlik, komandanlıq, komissarlıq kimi sözlər yaradılmışdır.

Rus dilindən və rus dili vasitəsilə alınmış bir sıra sözlər söz birləşmələrinin tərkibində işlənmişdir. Bəziləri ikinci növ təyini söz birləşmələri formasında olmuşdur: bolşevik komitəsi, protest mitinqləri, kommunist partiyası, burjua demokratiyası, burjua batalyonları və s. Bir qismi isə üçüncü növ təyini söz birləşmələri formasında olmuşdur: sosialistlərin protestosu, ingilislərin politikası və s.

Rus mənşəli sözlərin iştirakı ilə yaranan söz birləşmələri tutduğu yerə, vəzifəsinə görə müxtəlif şəkillərdə olmuşdur. Dilimizdə birinci tərəfi rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınmış sözlərlə ifadə olunan birləşmələr mövcud olmuşdur. Məsələn, texniki əməliyyat, sosialist vəzifələr, demokratik əsaslar, kapital zülmü, burjua milliyyətçiləri, sosialist inqilabı, neftin milliləşdirilməsini və s. Ədəbi dilimizdə ikinci tərəfi rus mənşəli sözlər təşkil edən söz birləşmələri də olmuşdur: ümumi konfrans, milli komitə, hərbi komissar, izdihamlı mitinq, seçki kuponları, inqilab komitəsi, qurultay proqramı və s. (Budaqova, 1963: 102)

Alınmalar əsasında yeni söz yaradılması sovet dövründə daha kütləvi xarakter daşımışdır. Ayrı-ayrı alınma sözlər əsasında yeni düzəltmə sözlər, mürəkkəb sözlər, söz birləşmələri yaranmışdır. Məsələn, plan sözü əsasında planlı, plansız, planlaşdırma, planauyğun, iş planı, dərs planı və yaxud da elektrik sözündən elektrikləşdirilmə, elektroavtomatlaşdırma, elektrik sobası, elektrik zəngi və s. sözləri yaranmışdır.

Rus dilindən alınmış sözlər və terminlər dilə daxil olaraq onu zənginləşdirmişdir, lakin milli dilin sabitliyinə təsir göstərə bilməmişdir. Belə sözlər və terminlər Azərbaycan dilinin daxili inkişaf qanunlarına tabe olmuş, bu qanunlar tərəfindən idarə edilmişdir, bir sıra yeni söz və terminlərin yaranmasında iştirak etmişdir.

Nəsir Məmmədov "Dilçiliyin əsasları" kitabında dilimizə keçən ərəb-fars mənşəli sözləri üç qismə ayırmışdır:

1) Bir qisim ərəb, fars mənşəli sözlər dilimizdə sadə söz kimi işlədilərək, leksik şəkilçi qəbul etməmişdir: dünya,zaman,əhali və s.

2) Bəzi ərəb, fars mənşəli sözlər isə öz dilinin leksik şəkilçisini qəbul edir, milli leksik şəkilçiləri qəbul etməmişdir: lazimi, daxili, naməlum.

3) Əksər ərəb, fars mənşəli sözlər isə Azərbaycan dilinin leksik şəkilçilərini qəbul edib, müxtəlif məzmunlu sözlər yaratmışdır: qüdrətli, təşviqatçı, qəhrəmanlıq və s. (Məmmədov, 1961: 77)

Muxtar Hüseynzadə ərəb-fars mənşəli sözləri dörd qismə ayırmışdır:

Birinci qrupa həm şəkilcə, həm də məzmunca tamamilə azərbaycanlaşmışsözlər aiddir ki, ümumxalq dilinin sözləri içərisində qaynayıb-qarışmışdır. Həqiqətən də, adam, kağız, zaman, nağıl, nahar, rahat, salam, hava, cavan, dənə, təmiz, xəmir, sətir, şəkil, şəhər və s. kimi sözlər

İkinci qrupa məzmunca tamamilə azərbaycanlaşmış, lakin şəkilcə dilimizin fonetik qanunlarına uygunlasmamış sözlər daxildir. Belə sözlər milli sözlərimizlə elə qaynayıb-qarışmışdır ki, yalnız şəkil cəhətdən ərəb-fars mənşəli olduğunu müəyyən etmək olar: şagird, katib, məktub, aciz, əla, insan, müharibə, müqayisə və s.

Üçüncü qrupa şəkilcə Azərbaycan dilinə uyğun gələn, məzmunca tamamilə azərbaycanlaşmış sözlər aiddir. Bu qrupa daxil olan sözlər həm ərəb, fars mənşəli, həm də milli şəkilçilərimizi qəbul edirlər: ədəb, ədəbli, biədəb, şöhrət, şöhrətli, şöhrətpərəst.

Dördüncü qrupa daxil olan sözlər ümumxalq danışıq dilində deyil, yalnız ədəbi dildə işlənmiş, məzmunca azərbaycanlaşmış, formaca Azərbaycan dilinin fonetik qanunlarına uyğunlaşmayan sözlər aiddir. Belə sözlər mətbuat vasitəsilə geniş xalq kütlələrinə yayılmışdır: irtica, istehkam, imtina, intişar, təzminat, təşəxxüs və s. (Hüseynzadə, 1963: 8-10)

N.M.Xudiyev " Ərəb və fars mənşəli sözlərdən Azərbaycan dili şəkilçiləri vasitəsilə söz yaradılması" məqaləsində ərəb və fars mənşəli sözlərin milli sözlərimizlə qaynayıb-qarışmasını dil faktları ilə sübut edir. Azərbaycan dilinin məhsuldar şəkilçiləri ilə ərəb-fars mənşəli sözlərin birləşməsindən yeni sözlər yaranmışdır. –çı$^4$ şəkilçisinin iştirakı ilə Azərbaycan dilinə, xüsusilə sovet dövründə ictimai istehsal sahələri ilə əlaqədar məna bildirən təsərrüfatçı, zərbəçi, tədarükçü və s. kimi sözlər daxil edilmişdir, bu şəkilçinin iştirakı ilə ərəb-fars mənşəli sözlərdən sosializm ictimai quruluşuna dair ictimai və inzibati

vəzifə mənası bildirən yeni sözlər əmələ gəlməsini qanunçu, nəzarətçi, təşkilatçı kimi sözlərdə müşahidə etmək olar. Tərbiyəçi, təbliğatçı, mühazirəçi, inqilabçı kimi sözlər də bu məhsuldar şəkilçi vasitəsilə formalaşıb. Ərəb-fars mənşəli sözlər əsasında sosializm ictimai quruluşu ilə bağlı olaraq israfçılıq, təsərrüfatçılıq, qənaətçilik kimi sözlər yaradılmışdır. Sovet dövrünə qədər ki Azərbaycan ədəbi dilində, habelə sovet dövrü ədəbi dilinin ilk mərhələsində ərəb-fars mənşəli bigünah, bivəfa, bihünər tipli sözlərin işlədilməsi səciyyəvi idi, sonrakı dövrdə isə -sız[4] şəkilçisi alınma sözlərdəki -bi ön şəkilçisini əvəz etmişdir, həmin əvəzolunmalar tezliklə lüğətə daxil olmuşdur. (Hacıyev, 1988: 59-64)

Ə.Z.Abdullayev "Alınma sözlərin orfoepiyası" məqaləsində alınmaların dilimizə qəbulu zamanı hansı fonetik xüsusiyyətləri qəbul etməsi, alınmaların fonetik cəhətdən dəyişib-dəyişməməsi məsələlərinə toxunur. Dilimizdə bir sıra rus və Avropa mənşəli sözlər vardır ki, istər ahəng qanunu, istərsə də digər fonetik-qrammatik hadisələr həmin sözlərə təsir etməmişdir, öz ilkin variantını qoruyub saxlamışdır. Admiral, adres, akademiya, arxiv, atom kimi sözləri bele sözlər cərgəsinə aid etmək olar. Dilimizə daxil olmuş rus və Avropa mənşəli sözlərin əksəriyyəti müxtəlif fonetik, orfoqrafik, hətta semantik dəyişikliyə uğramışdır. (Əliyev, 1985: 15-24)

Rus və Avropa mənşəli sözlər dilimizə daxil edildiyi zaman onlarda səsdəyişmələri özünü göstərir. Bu səsdəyişmələrinin bir səbəbi rus və Avropa dillərində olan bəzi səslərin Azərbaycan dilində olmamasıdır. Başqa saitlərə nisbətən "o" saiti daha çox dəyişməyə məruz qalmışdır. Məsələn, panoram-panaram, avtopark -avtapark, proyekt-prayekt, monoloq -manaloq və s. Həmçinin samit dəyişmələri də bir qisim sözlərdə özünü göstərmişdir. Məsələn "г" səsi Azərbaycan dilində "g" səsi ilə əvəz edilmişdir: генерал – general, геолог – geoloq, гитара- gitara, гинеколог-genekoloq, "г" səsi Azərbaycan dilində "h" səsi ilə əvəz edilmişdir:гармония- harmoniya, -hektar,гимн-himn, гибрид-hibrid.Dilimizə keçmiş rus, Avropa mənşəli sözlərdə səs düzümü hadisəsinə daha çox təsadüf edilmişdir: drama-dram, aksiyoma-aksiom, abbreviatura-abreviyatur, opponent-apanent və s. Alınma sözlərin tələffüzü zamanı səsartımı hadisəsinə də rast gəlinir: dialekt -diyalekt, patriot -patriyot, kalsium – kalsiyum, neon-neyon, realizm – reyalizm, ateist-ateyist.(Əliyev, 1985: 15-24)

Abdulla Qarayev "Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar" kitabında Avropa mənşəli alınmaların qəbulu, mənimsənilməsi, dilimizin qanunlarına uyğunlaşması, təsnifi kimi problemlərdən bəhs etmişdir. Dilimizdə Avropa mənşəli alınmalar bu hallarda işlənmişdir:

1) Termin kimi işlənən alınma sözlər olmuşdur: tanges, kotanges, novella, kalka.
2) Coğrafi adları vermək üçün müraciət olunmuşdur:La-Manş, Temza.
3) Tərcümə ədəbiyyatlarında tərcüməyə gəlməyən sözlər şəklində dilə daxil olmuşdur:biznesmen, turist, servis.
4) Siyasi məzmunu vermək üçün istifadə edilmişdir:separat, neofaşist, neokolonializm.
5) Milli koloriti vermək üçün işlənmişdir: dollar, kovboy, reyxstaq və s. (Qarayev,1989: 73)

Abdulla Qarayev Avropa mənşəli sözləri məzmununa görə də qruplaşdırmışdır:

1) Geyim adları bildirənlər: qalstuk, cemper, sabo, makentoş, qalifey.
2) Yemək adları bildirənlər:pudinq, kotlet, omlet, buterbrod, şokalad, keks.
3) Yaşayış yeri bildirənlər:kotec, villa.
4) Musiqi və rəqs adları bildirənlər:tanqo, reqston, cazz.
5) Çalgı aləti adı bildirənlər:fileyta, fortepiano, mandarina, gitara.
6) Ümumi olaraq incəsənətlə bağlı olan: opera, libretto, balerina.
7) Məşğuliyyət forması:biznes, tred-yunion.
8) Müraciət bildirənlər:ser, senyor, centilmen, leydi.
9) Vəzifə adları bildirənlər:prezident, lider, kansiler.
10) İçki adları: fanta, pepsi, kola, konyak.
11) Pul adları: dollar, funt, sterlinq, peni, frank.
12) İdmana aid olanlar:karate, cdo, voterbol, pinq-ponq. (Qarayev, 1989: 74)

Alınma sözlərin dildə işlənmə dərəcəsi, səviyyəsi eyni deyildir. Bu baxımdan Türkan Əfəndiyeva alınmaları bir neçə qrupa ayırmışdır:

1) Ümumişlək sözlər və istilahlar
2) Beynəlmiləl terminlər
3) Eqzotik sözlər
4) Varvarizmlər

5) Arxaik alınmalar

Alınma sözlərin bu qrupları arasında müəyyən əlaqələr olmuşdur. Məsələn, vaxtilə M.F.Axundovun, N. Vəzirovun, C. Məmmədquluzadənin əsərlərində varvarizm olmuşaktyor, universitet, konsul,deputat, poçt, parlament kimi sözlər bu dövrdə artıq ümumişləklik hüququ qazanmışdır.

Yalnız ümumi isimlərdə deyil, xüsusi isimlərdə də başqa dillərin təsiri duyulur. Səlim Cəfərov qeyd edir ki, dilimizdə şəxs adlarının əksəriyyəti ərəb-fars mənşəlidir: Süleyman, Əli, Məhəmməd, Mustafa, Xəlil, Cəbrayıl, Səməd, Ayşə, Əhməd, Xuraman, Rahim və s. Bu adlar əsasən islam dininin təbliği ilə bağlı olaraq dilimizə daxil olmuşdur.

Tofiq Hacıyev "Alınma söz və internasionalizm" adlı məqaləsində beynəlmiləl sözlərin alınma sözlər başlığı altında öyrənilməsinə qarşı çıxmışdır: "Dilçilikdə internasionalizmlərin alınma sözlər içərisində öyrənilməsi meyli vardı. Bu meyl ümumi dilçilikdə aradan qalxsa da, Azərbaycan dilçiliyində beynəlmiləl sözlər yenə də, alınmalar başlığı altında öyrənilir." (Həsənov, 1989: 74-75)

## Nəticə

Alınmaların vətəndaşlıq hüququ qazanması üçün bir sıra cəhətləri nəzərə alınmalıdır:

1) Alınma sözlər Azərbaycan dilinin müəyyən fonetik və qrammatik qanunlarını qəbul etməlidir.
2) Alınma sözlər Azərbaycan dilinin ən azı iki üslubunda işlənməlidir.
3) Alınma söz semantik cəhətdən müstəqil olmalıdır.
4) Alınma söz termindirsə, elmin bu və digər sahəsində müntəzəm şəkildə işlənməlidir.

Dilimizdə milli mənşəli sözlərlə dublet olan, sinonimlik təşkil edən alınmalar dildən mümkün olduğu qədərilə çıxarılmalıdır. Belə olduqda milli mənşəli sözlərin istifadəsinə üstünlük verilməlidir. Dildə lüzumsuz söz artımının qarşısı alınmalıdır, dilə hər alınma sözü qəbul etmək olmaz.

## Ədəbiyyat

1. Budaqova, Z.İ. (1963), Dilçilik məcmuəsi: Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. XVII cild, Bakı: Azərb. SSR EA.
2. Budaqova, Z.İ. Ələkbərova, A.Q (1978), Müasir Azərbaycan dili: 3 cilddə. I cild, Bakı: Elm.
3. Cəfərov, S. (1982), Müasir Azərbaycan dili: leksika, Bakı: Maarif.
4. Dəmirçizadə, Ə. (1962), Azərbaycan dilinin üslubiyyatı, Bakı: Azərtədrisnəşr.
5. Əfəndiyeva, T. (1980), Azərbaycan dilinin leksik üslubiyyatı, Bakı: Maarif.
6. Əliyev, K.Y. Vəliyev, K.N. Bağırov, Ə.A. Həsənov, Q.M. (1985), Nitq mədəniyyəti məsələləri: elmi əsərlərin tematik məcmuəsi, Bakı: ADU.
7. Hacıyev, T.İ., Əzizov, E.İ., Vəliyeva, G.Q. (1988), Azərbaycan dilinin tarixi leksikasına dair tədqiqlər: elmi əsərlərin tematik məcmuəsi, Bakı: Azərbaycan Dövlət Universiteti.
8. Həsənov, H.Ə Əliyev, K.Y. Əhmədov, T.M. (1989), Azərbaycan dili leksikasının məsələləri: Elmi əsərlərin mövzu məcmuəsi, Bakı: Azərbaycan Universiteti.
9. Hüseynzadə, M. (1963), Müasir Azərbaycan dili: fonetika, morfologiya, Bakı: Azərtədrisnəşr.
10. Məmmədov, N. (1961), Dilçiliyin əsasları, Bakı: Azərtədrisnəşr.
11. Qarayev, A. (1989), Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar, Bakı: Azərbaycan Universiteti.
12. Qurbanov, A.M. (1967), Müasir Azərbaycan ədəbi dili, Bakı: Maarif.
13. Qurbanov, A.M. (1985), Seyidov Y.M. Müasir Azərbaycan ədəbi dili, Bakı: Maarif.
14. Rüstəmov, R. (1953), Ədəbiyyat və Dil İnstitutunun əsərləri/ Azərb. SSR Elmlər Akademiyası, Nizami ad. Ədəbiyyat və Dil İn-tu. V cild, Bakı: Azərb. SSR EA.

**Rəyçi: f.ü.f.d. dos. Cavanşir Muradov**

Göndərilib: 23.04.2022 Qəbul edilib: 20.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/64-71

**Fərid Azər oğlu Rüstəmli**
Bakı Mühəndislər Universiteti
magistrant
frrustamli99@gmail.com

# BƏLƏDİYYƏ FƏALİYYƏTİNİN FORMALAŞMASI

**Xülasə**

Demokratik dövlətin əsas vəzifəsi vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratmaqdır. Eyni zamanda, rasional dövlət quruluşu məsələsi bu vəzifənin ən səmərəli şəkildə həll olunacağı belə bir güc və nəzarət sisteminin yaradılmasına qədər azaldılır. Obyektiv olaraq elə problemlər var ki, onları ancaq ölkə səviyyəsində mərkəzləşdirilmiş vəsait və resurslar cəlb etməklə həll etmək olar. Belə problemlərə tamhüquqlu yerli özünüidarənin formalaşdırılması, vahid qanunvericilik bazasının yaradılması, hüquq-mühafizə sahəsində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi, vətəndaşların əsas hüquq və azadlıqlarının konstitusiya ilə tanınması və təminatlarının təmin edilməsi, və s-dir.

Bununla belə, sadalanan bir çox vəzifələrin həyata keçirilməsi, əhalinin müəyyən həyat səviyyəsinin təmin edilməsi ümumən dövlətdə deyil, əhalinin kompakt yaşadığı konkret ərazi birləşmələrində - bələdiyyələrdə həyata keçirilir. Məhz burada, ilk növbədə, vətəndaşların dövlət tərəfindən təmin edilmiş hüquq və azadlıqlarından istifadə etmələri, rahat yaşamaları üçün şərait yaradılmalıdır.

***Açar sözlər:*** *bələdiyyə, hüquq, qanun, demokratiya, konstitusiya*

**Farid Azar Rustamli**

## Formation of municipal activity

**Abstract**

The main task of a democratic state is to create favorable conditions for the realization of the rights and freedoms of citizens. At the same time, the question of a rational state structure is reduced to the creation of such a system of power and control in which this task can be solved most effectively. Objectively, there are problems that can be solved only by attracting centralized funds and resources at the national level. Such problems include the formation of full-fledged local self-government, the creation of a unified legislative framework, the development and implementation of state policy in the field of law enforcement, the constitutional recognition and guarantee of fundamental rights and freedoms of citizens, and so on.

However, the implementation of many of these tasks, ensuring a certain standard of living of the population is carried out not in the state as a whole, but in specific territorial units where the population is compact - municipalities. It is here, first of all, that conditions must be created for citizens to enjoy the rights and freedoms guaranteed by the state and live comfortably.

***Key words:*** *municipality, law, policy, constitutional*

## Giriş

Demokratik idarəetmə siteminin bir qolu kimi bələdiyyələrin də fəaliyyətinin təşkilinin hüquqi əsasları Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmişdir. Belə ki, Konstitusiyamızın 142-ci maddəsinin I hissəsinə əsasən ölkəmizdə yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr yerli özünüidarəetmə orqanı olmaqla mahiyyət etibarı ilə yerli əhaliyə ən yaxın idarəetmə formasıdır. Bu baxımdan da, bələdiyyələrin işinin şəffaf təşkil edilməsi, yerli əhalinin onların fəaliyyəti ilə yaxından tanış olması üçün şəraitin yaradılması yerli özünüidarəetmənin mahiyyətindən irəli gələn ən vacib tələblərdir və buna əməl edilmədən yerli özünüidarəetməni təsəvvür etmək mümkün deyildir.

Hər bir fəaliyyətin normativ əsasları olduğu kimi, bələdiyyə orqanlarının da fəaliyyətinin normativ əsasları mövcuddur. Bu orqanların fəaliyyətini nizama salan normativ-hüquqi aktlar aşağıdakılardan ibarətdir: Azərbaycan Respublikasının Konstitusiyası; - “Bələdiyyələrin statusu haqqında” Azərbaycan

Göndərilib: 18.04.2022 Qəbul edilib: 01.06.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/77-81

**Nurbəy Vahid oğlu Fərzəliyev**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
magistrant
nurbey-f@mail.ru

# İBTİDAİ VƏ ANTİK DÖVRLƏR DİNİ ABİDƏLƏRİNİN BƏDİİ TƏRTİBATI

**Xülasə**

Bu məqalədə qədim Azərbaycan ərazisində inşa olunmuş dini tikililərin bədii-ornamental tərtibatının formalaşması və mərhələli – pilləvarı inkişafı nəzərdən keçirilir və analiz olunur. Məqalədən belə nəticəyə gəlmək olar ki, ibtidai insanın dini təsəvvürləri ilə bağlı olmuş ilk rəsm və rəmzlər hələm son paleolit dövründə meydana gəlmişlər. Sonrakı mərhələlərdə heyvan təsvirləri və rəmzləri ilə yanaşı od və su, həmçinin səma cisimləri və təbiət hadisələrinin kultu ilə bağlı olmuş müxtəlif petroqlif və rəmzlər yaranır. Antik dövr Albaniya incəsənətində isə artıq ellinizm mədəniyyətinin təsiri izləri aydın nəzərə çarpır.

***Açar sözlər**: memarlıq, ibtidai, dini görüşlər, antik*

**Nurbay Vahid Farzaliyev**

## The artistic description of religious monuments in primitive and ancient ages

**Abstract**

In this article, the formation and gradual development of the artistic and ornamental design of religious buildings built in the territory of ancient Azerbaijan were considered and analyzed. It can be concluded from the article that the first paintings and symbols associated with the religious ideas of primitive human still appeared in the Late Paleolithic period. In the later stages, along with animal images and symbols, various petroglyphs and symbols related to the cult of fire and water, as well as celestial bodies and natural phenomena appeared. The influence of traces of Hellenistic culture is already evident in ancient Albanian art.

***Key words**: architecture, primitive, religious encounters, antique*

## Giriş

Azərbaycan memarlığı xalqımızın tarixi qədər qədim və zəngindir. Belə ki, dövrümüzə kimi gəlib çıxmış çoxsaylı memarlıq abidələri və onların qalıqları onu deməyə əsas verir ki, incəsənətin bu sahəsi ölkəmiz ərazisində yüksək inkişaf etmişdir. Dövrümüzə kimi gəlib çıxmış və qalıqları aşkarlanmış memarlıq abidələri içərisində yaşayış və müdafiə təyinatlı tikililər ilə yanaşı çox tez-tez eyni zamanda dini tikililərə də təsadüf olunur. Lakin bu fakta baxmayaraq təəssüflə vurğulamaq lazımdır ki, erkən və inkişaf etmiş orta əsrlər dövrlərinin dini abidələrinin ornamental tərtibatının bədii xüsusiyyətləri əsaslı və kifayət qədər geniş araşdırılmamış və tədqiq olunmamışdır.

Dövrümüzə kimi gəlib çıxmış müxtəlif dini memarlıq abidələrinin bədii-ornamental tərtibatı onu sübuta yetirir ki, Azərbaycanda vaxtilə çox mahir memarlar ilə yanaşı həmçinin çox peşəkar və istedadlı xəttatlar, həkkaklıq ustaları və naqqaşlar da fəaliyyət göstərmişlər. Faktlar onu deməyə əsas verir ki, müxtəlif dövrlərdə Azərbaycanın fərqli regionlarında yaşamış və çalışmış bu ustaların yaradıcılığı özünəməxsusluğu və orijinallığı ilə seçilmiş və fərqlənmişdir. Müxtəlif dövrlərdə çalışmış ən yaxşı xəttatlar, həkkaklıq ustaları, naqqaşlar, memarlar və digər bədii daşyonma sənəti ustaları dini abidələrin ornamental tərtibat və həllində yüksək sənətkarlıq nümunələrini təqdim etmişlər.

**İbtidai dövr.** Aparılmış tədqiqatlar və dövrümüzə kimi gəlib çıxmış çoxsaylı müxtəlif təyinatlı memarlıq abidələri və onların qalıqları onu deməyə əsas verir ki, tikinti insan ən qədim fəaliyyət sahələrindən biridir. Belə ki, hələ alt daş - paleolit dövründə dünyanın digər bölgələrində məskunlaşmış ibtidai insanlar kimi, Azərbaycan ərazisində də yaşamış ibtidai tayfa və qəbilələr soyuq və pis hava şəraitindən qorunmaq üçün təbii mağaralara sığınmışlar və ya əllərinin altında olan müxtəlif materiallardan sığınacaqlar düzəltmişlər. Belə təbii və ya süni yaradılmış yaşayış məskənləri Qarabağda

(Azıx və Tağlar mağaraları), Qazaxda Aveydağda (Damçılı və Daş Salahlı mağaraları), Kəlbəcərdə (Zar mağarası), Naxçıvanda (Qazma mağarası, Gəmiqaya düşərgəsi və s.), Azərbaycanın şərqində Xəzər dənizi sahilində, Bakıdan 60 km məsafədə dağlıq səhra bir məkanda yerləşən Qobustanda (açıq düşərgələr) aşkarlanıb. Vurğulamaq lazımdır ki, bu ibtidai yaşayış məskənləri özündə olduqca maraqlı və zəngin tarixi informasiyanı qoruyub saxlamışdır.

Azıx mağarasının tarixi çox qədimlərə gedib çıxır. Belə ki, Azıx mağarasının aşağı təbəqələrində doşel – belə adlana qaleç mədəniyyətinin izləri aşkarlanıb. Bu mədəniyyət planetdə ən qədim mədəniyyətlərdən biri hesab olunur. (Cafarov, 1983 : 18)

İndiyə qədər qədim ibtidai insanın yaşamını, inanclarını və ətraf mühiti əks etdirən 6000 çox təsvir aşkarlanmışdır. Bu təsvirlər Sünik, Tassilin (Afrika), Subuktuy (Baykalyanı) və başqa yerlərdə aşkarlanmış bənzər təsvirlərlə səsləşir və e.ə. IV-V minilliklərə aid edilir. (Axundov , 1986: 40)

İbtidai yaşayış məskənlərindən o dövrün dini inancları ilə bağlı çoxsaylı maddi əşyalar – daş və sümükdən düzəldilmiş plastika, müxtəlif naxış və rəmzlərlə bəzədilmiş tətbiqi sənət nümunələri ilə yanaşı həmçinin böyük miqdarda divarlarda, iri daş və qayalar üzərində çəkilmiş və cızılmış təsvir və rəmzlər - petroqliflər aşkarlanmışdır. Bu fakt onu deməyə əsas verir ki, o dövrün məskənləri yaşayış məkanı funksiyası ilə yanaşı eyni zamanda bir dini abidə rolunu da yerinə yetirmişlər. Bu səbəbdən onlarda ibtidai dini görüşlər - totemizm və fetişizm ilə bağlı yaradılmış təsvir və rəmzləri dini abidələrin ornamental tərtibatının ilk nümunələri kimi nəzərdən keçirmək olar.

Alimlərimiz oyma, yonma, cızma üsulu ilə daş üzərində həkk olunmuş təsvirlərin ən qədim nümunələrinə hələlik Ordubad (Gəmi qayası), Abşeron (Mərdəkan, Şüvəlan kəndlərində) və Bakı şəhərindən 60 kilometr cənubda, Xəzər dənizinin sahilindən bir qədər aralı Qobustan qayaları üzərində rast gəlmişlər. Məzmunu, bədiiliyi və çoxluğuna görə Qobustan qayaları üzərindəki təsvirlər diqqəti daha çox cəlb edir. Alimlərimiz burada ibtidai daş və metal alətlər vasitəsilə təsvir edilmiş üç mindən artıq insan, heyvan, məişət əşyaları, damğa xarakterli rəsmlər aşkara çıxarmışlar. (Əfəndi , 2007 : 7)

Sonrakı dövrlərin dini abidələrinin konstruktiv quruluşunu və tərtibatını tədqiq olunmasında qədim dünya irsinə məxsus olan meqalitik abidələr böyük dəyər və əhəmiyyət kəsb edirlər.

Meqalitlər (yunanca "meqa" – böyük və "litos" – daş sözlərindən yaranıb) – xatirə və ya ayin təyinatlı olub, işlənməmiş və ya yarımişlənmiş çox böyük həcmli daş parçalarından qurğulardır. Ona görə də böyük qaya parçaalrından qurulmuş qədim abidələrə meqalitik abidələr deyil. Meqalitik abidələrin bir çox növü vardır. (Salamzadə , Rzayev , Kərimov , Əfəndiyev , Həbibov , 1977 : 11)

Meqalitik abidələr içərisində ölçü, forma həlli və dini tərtibat baxımından məhz kromlexlər daha böyük diqqət və maraq doğururlar. Azərbaycanda Abşeron yarımadası ərazisində neolit və tunc dövrlərinə aid edilən çoxlu sayda kromlexlər aşkarlnamışdır.

Abşeronun Mərdəkan kəndi yaxınlığındakı kromlex böyük diqqət doğurur. İri daş parçalarından ucaldılmış bu demək olar dairəvi tikili maralların və dağ keçilərinin təsvirləri ilə bəzədilib. (Aslanov, 1953: 15)

Şüvəlan kəndinin kənarında müxtəlif məzarlar və tikililər qazılıb açılmış, onlardakı daşların üzərində insanları, ov səhnələrini, müxtəlif heyvanları əks etdirən rəsmlərin qazıldığı aşkar edilmişdir. Bu daşlar, görünür, Mərdəkandakının analoqu olan dağıdılmış kromlexdən götürülmüşdür. (Məmmədova, Hacıyeva , 2013: 49)

Qədim Azərbaycan ərazisində geniş yayılmış dini abidələr içərisində, yerli əhalinin dəfn kultu ilə bağlı olan kurqanları həmçinin xüsusən vurğulamaq lazımdır. Azərbaycan bölgələrində həm torpaq, həm də daş yığını ilə örtülmüş kurqanlara rast gəlinir. Belə ki, Abşeron ərazisində Dübəndi və Türkan kəndləri yaxınlığında b.e.ə. III-II minilliklərə aid çoxlu sayda kurqan aşkarlanıb. Erkən tunc dövründə (e.ə. IV minilliyin sonları - III minillik) cəmiyyətdə baş verən dəyişikliklər Kür-Araz arxeoloji mədəniyyət abidələrində izlənir. Kür-Araz mədəniyyəti böyük əraziyə yayılmışdır. ("İstoriya Azerbaycana". Baku: Elm, 1979: 22)

Arxeoloqlar tərəfindən aşkarlanmış neolit - dəmir dövrlərinə aid qədim yaşayış məskənlərinin diqqətlə öyrənilməsi onu deməyə əsas verir ki, vurğulanan dövrlərdə dini abidələr ilə yanaşı yaşayış evlərinin tərtibatında da od, təbiət qüvvələrinin, günəş və ayın, bir sıra totemik kultların, eləcə də evin, ocağın qoruyucusu, bolluq və məhsuldarlığın simvolu olan ana obrazının simvolik təsvir və elementlərinə müraciət olunurdu. Araşdırmalar onu deməyə əsas verir ki, aşkarlanmış təsvir və

rəmzlərin əksəriyyəti insan yaşayışında zəruri olan, böyük əhəmiyyət kəsb edən od kultu ilə bağlıdır. Odun təsviri Şomutəpə neolit məskənində ocağın üstündə divara bərkidilmiş sümükdən qadın heykəlciyi aşkarlanmışdır.

Qazax rayonunda Babadərviş məskənində aparılmış arxeoloji qazıntılar zamanı iki qədim məbədin qalıqları aşkarlanmışdır. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, hər iki məbəd öz kompozisiyasına görə mürəkkəb və tərtibatına görə zəngin mehraba malik idi. Bu mehrablar D.Axundov tərəfindən rekonstruksiya olunmuşdur.

Birinci məbəddə hündürlüyü 45 sm olan nal şəkilli ritual ocaqdan ibarət möhrəgil mehrab yerləşirdi. Mehrab üzərində iri qoç buynuzları ilə bəzədilmiş meydança vardı. Divarcığın bütün kompozisiyasını meandr (düz bucaq altında sınan xəttən və ya spiralvarı buruqlardan yaranan ornament, bəzək, naxış) və mürəkkəb şəkildə çulğalanmış svastikalarla (qutaracaqları saat əqrəbi istiqamətində və ya ona əks istiqamətdə düz bucaq altında əyilmiş xaça bənzər mistik simvollardan biri) dekorlaşdırılmış barı tamamlayırdı. Barının arxasında hündür olmayan, planda qoç buynuzunu xatırladan divarcıq yerləşirdi. Mehrabın taxçalarında pintaderlər və ritual qablar aşkar edilmişdir.

B.e.ə. XII-VIII əsrlərə aid edilən ikinci məbəd birinci məbəddən cənub-qərbə doğru yerləşir. Bu məbədin ibadət zalında da iki planlı asimmetrik kompozisiyalı möhrəgil mehrab quraşdırılmışdır. Mehrabın aşağı hissəsində nal şəkilli ritual ocağı yerləşirdi. Ritual ocağın üzərində ikinci planda gil heykəl – iri insan başı ucalırdı. Ehtimala görə bu nur və günəş allahı Mitranın təsviridir.

Babadərviş və Sarıtəpədə məbəd mehrablarının maraqlı və mürəkkəb

kompozisiyaları ritualların inkişafından və məbədlərin interyerlərində insanların inanclarını ifadə edən mümkün qədər çox simvolları əks etdirmək cəhdlərindən söz açır. D. Axundov hesab edir ki, Babadərviş və Sarıtəpə məbədləri tanrı Mitraya sitayişlə bağlıdır. (Axundov , 1986 : 178)

Vurğulanan məbədlərdə qoyunların və onların buynuzlarının təsvir edilməsi sübuta yetirir ki, qoyun obrazı ilə od birləşdirilmiş və yalnız günəş deyil, eyni zamanda ay işığının da təzahürü olan qoyun təsviri od-işığı simvolizə etmişdir. (Karaxmedova , 1974 : 100-101)

Dövrümüzə kimi qədim – daş, mis-daş və tunc dövrlərin dini memarlığı haqqında çox az məlumat gəlib çıxıb. Lakin faktlar – dini tikililərin özləri, onların qalıqları, arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələri onu deməyə əsas verir ki, artıq b.e.ə. I minillikdən başlayaraq Güney Azərbaycan torpaqlarında, həmçinin Manna və Midiya dövlətlərinin ərazilərində dini təyinatlı memarlıq abidələrin ucaldılması geniş vüsət almışdır. Bunlar əsasən od kultuna və ya astral dinlərə (günəşə, aya və s.) həsr edilmiş məbədlər olmuşlar.

Azərbaycanın güney vilayətlərində qayalarda çapılmış çoxsaylı məqbərələr – Fəxrigah, Dükkani-Davud, Səhnə və Utaqi-Fərhad məqbərələri, Şəhrzurda iki məqbərə e.ə. VII-VI inşa ediliblər və Midiya dövrünün abidələri olaraq qəbul edilirlər. (Useynov , Bretanitskiy , Salamzade , 1963: 21)

Aşkarlanmış maddi mədəniyyət nümunələri onu deməyə əsas verir ki, zərdüştlüyün çoxsaylı ayinləri və ritualları üçün nəzərdə tutulmuş dini tikililər daş plitələr üzərində oyma, cızma və qabartma üslubunda yerinə yetirilmiş naxışlarla, rəmzlərlə, mehrab təsvirləri ilə bəzədilirdi.

Kermanşah və Həmədan arasında yerləşən, daxili quruluşuna görə mürəkkəb olan Səhnə qaya məqbərəsi xarici görünüşünə görə 4 divar arasında olan qapalı evi imitasiya edir. Bu qaya məqbərəsinin qapısı üzərində Qədim Şərqdə geniş yayılmış ilahi simvol - qanadlı günəş diski təsvir olunub. Bu sayaq diskdə farslar Ahuramazdanı simvollaşdıran insan fiquru yerləşdirirdilər.

Səhnə məqbərəsinin sütunları arasında qabartma ilahi simvollar – dörd qanadlı fiqurla bəzədilmiş disk, içərisində adam və altında aypara şəkli olan disk və içərisində ulduz şəkli olan disk təsvir edilir. Sonuncu simvol Qədim İştar (və Venera planeti) üçün səciyyəvidir. Burada bu təsvir ola bilsin Anahitanın simvoludur. Digər ikisi Ay və Günəşi, yaxud Ahuramazda və Mitranı simvolizə edir. Qapının üstündə, od mehrabının önündə ibadət səhnəsinin qabartma təsviri verilmişdir. (Dyakonov, 1950 : 16)

**Antik dövr**. Azərbaycan incəsənətinin və mədəniyyətinin sonrakı inkişafı torpaqları Misirdən Hindistana yarımadasına kimi uzanmış Əhəmənilər dövlətinin ağalıq etdiyi dövrə - b.e.ə. 550-330-cu illərə təsadüf edir. Sonuncu Əhəməni çarlarının hakimiyyəti dövründə zərdüştlük dini mövqeyini get-gedə möhkəmləndirmiş, Ahura Mazda isə çar panteonunda baş tanrısına çevrilmişdir. Əhəmənilərin

hökmranlığının sonlarına doğru od məbədləri, eləcə də bütlər qoyulmuş ibadətgahlar zərdüşt ayinlərində qanuni yer tutmuşlar.

Dini təyinatlı maraqlı tikililər Nuşicantəpə məskənində aşkarlanmışdır. Bu memarlıq abidələrinin divarları dekorativ xaç şəkilli dərinləşdirmələrlə, zalın bütün divarları isə taxçalarda "kaminlərlə" (ocaq yerləri) bəzədilmişdir. Məbədə kənardan baxdıqda o, pillə-pillə qalxan hündür bürc kimi görünürdü (dövrümüzə kimi onun divarların hündürlüyü 8 m çatan qalıqları gəlib çıxıb).

Əhəmənilərin hökmranlığı dövründə Alban tayfalarının vahid etnik birləşməsi başa çatır. Makedoniyalı İsgəndərin Şərqə yürüşü nəticəsində Əhəmənilər dövləti süquta uğrayır və Albaniya ərazisində müstəqil bir dövlət yaranır.

Yunan tarixçiləri ilk dəfə e.ə. IV əsrdən başlayaraq qədim Alban qəbiləsinin fəaliyyəti haqqında yazmağa başlamışlar. Bu qəbilənin adı ilə əlaqədar olaraq Şimali Azərbaycan (Dağıstanın cənub hissəsi daxil olmaqla) Albaniya adlanmağa başlayır. Sonralar tədqiqatçılar bu ölkəni Qafqaz Albaniyası adlandırmışlar. (Kərimov , Əfəndiyev , Rzayev, Həbibov , 1992: 7)

Makedoniyalı İsgəndərin yürüşləri nəticəsində bütün Ön Asiya regionunda olduğu kimi Azərbaycanda da Yunan mədəniyyəti ilə tanışlıq, onun yayılması və yerli mədəniyyətlərin inkişafına təsiri müşahidə olunurdu. Bu dövrdə yerli memarlıq formaları inkişaf edir və kamilləşir, yeni kompozisiya və konstruktiv sistemlər tətbiq edilməyə, yeni ornament və naxışlardan istifadə olunmağa başlanılır və orta əsrlər Azərbaycan inşaat sənətinin təməli qoyulur.

Xristianlığın yayılmasına qədər Albanlar bütpərəst olmuş və onların inanclarında əsas yeri göy cisimlərinə sitayiş tutmuşdur. Strabon yazırdı ki, albanlar Helios, Zevs, Selena kimi tanrılara səcdə emişlər, xüsusən özəlliklə Selenaya böyük ehtiram və məhəbbət bəsləmişlər. Selena məbədi İberiya sərhədləri yaxınlığında yerləşirdi.

Faktlar onu deməyə əsas verir ki, Antik dövr Albaniyasında ata-baba kultu və totemik inanclar da mövcud olmuş və onların qalıqları hələ uzun müddət ərzində öz mövcudluğunu Alban adət və dini mərasimlərində qoruyub saxlamışdır.

Albaniyada Günəşin rəmzi olaraq od kultu da geniş yayılmışdı. Bir çox qədim məbəd və ibadətgahlarda, məbədlərin interyerində mühüm yer tutan mərasim ocaqlarının izlərini görmək olar. Dini ideologiyaların bir-birini əvəz etməsinə baxmayaraq minilliklər ərzində oda sitayiş Azərbaycan əhalisinin inanclarında öz mövcudluğunun və izlərini qoruyub saxlamışdır. Hətta Qafqaz Albaniyasında xristianlıq bir dövlət dini kimi qəbul edilsə də, oda səcdə və sitayiş geniş yayılmışdır.

Təxti-Süleyman şəhərinin və orada yerləşən Adur Güşnəsb məbədinin təsviri X əsr səyyahı Abu Duləf tərəfindən verilmişdir. Arxeoloji qazıntılar Təxti-Süleymanın və Adur Güşnəsb məbədinin identifikasiyasını təsdiq edir. Abidə çox zəngin şəkildə dekorlaşdırılıb: tağbənd-günbəz, ağac və daş sütunlarla təchiz edilmiş memarlıq abidəsinin kapitelləri oymalarla, bazalar isə relyefli təsvirlərlə bəzədilib. Bundan başqa memarlıq abidəsinin tərtibatında əjdahalardan, aslanlardan, ceyranlardan, dimdiyində budaqlar tutmuş uçan durnalardan, simurqlardan ibarət, bitki ornamentləri və epiqrafika ilə, mürəkkəb ornamental kompozisiyalara təsadüf olunur.

Bütövlükdə, 624-cü ildə Sasanilərlə Bizans arasında baş vermiş müharibə nəticəsində ciddi dağıntılara məruz qalmış Təxti-Süleyman e.ə. III-I əsrlər dövrü Azərbaycan memarlığının, inşaat və dekorativ tərtibat sənətlərini öyrənilməsi və tədqiq olunması istiqamətində böyük əhəmiyyət və dəyər kəsb edir.

Qəbələ, Sarıtəpə, Xınıslı və s. şəhər və yaşayış məskənlərində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkarlanmış materiallar onu deməyə əsas verir ki, antik dövr Albaniyası ərazisində tətbiq edilmiş əsas tikinti materialları daş, çiy kərpic və bəzi hallarda bişmiş kərpic olmuşlar.

Qeyd etmək lazımdır ki, çiy kərpic əsas tikinti materialı olmaqla yanaşı eyni zamanda bir mühüm dekor və ornament rolunu da yerinə yetirmişdir. Belə ki, hələm b.e.ə. I minillikdən başlayaraq Azərbaycanın bir çox bölgələrində kərpicin xüsusi qoyluşundan istifadə etmək yolu ilə peşəkar və istedadlı memarlar inşa edilən tikilinin zahiri və daxili – interyer tərtibatına xüsusi ornamental gözəllik verməyə nail olurdular.

Albaniya şəhərlərinin memarlığında bir çox hallarda daşdan da istifadə olunurdu, özü də çay daşından daha çox, yonma daşdan isə daha nadir hallarda işlədilirdi. Daş əsasən memarlıq abidələrinin bünövrəsinin və kürsülük hissələrinin hörgüsündə tətbiq edilirdi. Taxta sütunların monolit bazaları yaxşı

yonulmuş qumdaşından və əhəngdaşından yaradılırdı. Belə sütun bazaları Qəbələdən, Sarıtəpədən, Şəmkirdən və s. məskənlərdən aşkarlanıb. Bu bazalar əsasən zəng və torus şəkillidir. Bununla yanaşı palma yarpağı şəklində relyefli dekorla bəzədilmiş bazalara da təsadüf olunur.

Aşkarlanmış tikinti materiallarının qalıqları onu deməyə əsas verir ki, antik dövr Alban şəhərlərində tikinti keramikasından, terrakotadan və kirəmitdən geniş istifadə edilmişdir.

## Nəticə

Aparılmış tədqiqatlar onu deməyə əsas verir ki, müxtəlif formalı təsvir və rəmzlər hələm qədim dövrlərdən Azərbaycan ərazisində məskunlaşmış insan həyatında və mədəniyyətində böyük əhəmiyyət və zəruriyət kəsb etmişlər. Aşkarlanmış təsvirlərə istinad edərək belə qənaətə gəlmək olar ki, qədim yaşayış və dini tikililəri bəzəmiş təsvir və rəmzlər insanın dini inancları və dini görüşləri ilə bağlı meydana gəlmiş və sadədən mürəkkəbə doğru inkişaf və evolyusiya etmişlər. Belə ki, əgər öncə totemizm dini görüşləri ilə bağlı əsasən heyvan tipli təsvirlərə və rəmzlərə təsadüf olunurdusa sonradan təbiət qüvvələrinə - su, hava, torpaq, od, səma cisimləri - günəş, ay, ulduz, eləcə də evin, ocağın qoruyucusu, bolluq və məhsuldarlığın simvolu olan ana, qadın kultları ilə bağlı çəkmə, oyma, cızma, qabartma, yapma tipli təsvirlər, naxışlar, rəmzlər meydana gəlir və formalaşır. Artıq antik dövr Albaniyasında memarlıq və onunla bağlı olan sahələr kifayət qədər yüksək inkişaf edir. Alban memarları və sənətkarları qonşu ölkələrin memarlıq nailiyyətləri ilə yaxşı tanış idilər. Onlar təmaslar nəticəsində ellinizm mədəniyyətinin bu sahələrdəki bəzi öncül üsullarını mənimsəyərək və yerli şəraitə uyğunlaşdıraraq onlardan bəhrələnmişlər.

## Ədəbiyyat

1. Aslanov , Q. (1953) “Ob odnoy qlinyanoy peçati, naydennoy v Minqecaure”. DAN Azerb. SSR, №9 .
2. Axundov , A .(1986) , Qədim və orta əsrlər Azərbaycan memarlığı , Bakı.
3. 3 (Boys Meri– «Zoroastriytsı. Verovaniya i obıcai». Moskva. «Nauka», 1988: 24)
4. Dyakonov ,İ. (1950) , Qədim dövrlərdən eramızdan əvvəl IV əsrin sonlarına qədər , Moskva
5. Məmmədova,G. Hacıyeva, S .(2013) , Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı , Bakı: Elm.
6. “İstoriya Azerbaycana”. (1979) , Baku: Elm .
7. Karaxmedova , A. (1973) O nekotorıx reliqioznıx verovaniyax naseleniya drevneqo Azerbaycana”. Material XI naucnoy sessii . Baku : Elm.
8. Kərimov ,K. Əfəndiyev , R. Rzayev, N. Həbibov, N. (1992) , Azərbaycan incəsənəti , Monoqrafiya, Bakı : İşıq .
9. Rasim, Ə. (2001), Azərbaycan incəsənəti, Bakı: Çaşıoğlu .
10. Rasim,Ə. (2007 ), Azərbaycan incəsənəti , Bakı : Şərq-Qərb.
11. Cafarov, A . (1983) , Mustyerskaya kultura Azerbaycana , Bakı: Elm.
12. Salamzadə, Ə, Rzayev N, Kərimov K, Əfəndiyev R, Həbibov N .(1977) Azərbaycan incəsənəti, Bakı : Maarif.
13. Useynov, M. Bretanitskiy , L. Salamzade , A. (1963) , Azərbaycan memarlıq tarixi, Moskva

**Rəyçi: s.ü.f.d. Kübraxanım Əliyeva**

Göndərilib: 03.04.2022 Qəbul edilib: 24.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/82-86

**Khavar Ali Babayeva**
Azerbaijan State University of Economic (UNEC)
master
khavar.babayeva@unec.edu.az

# HISTORY, TYPES AND ROLE OF INSURANCE IN THE ECONOMY

## Abstract

The purpose of this article is to provide information about insurance, its history and types used in practice. It is impossible to describe an uninsured economy. Because there are many risks in the world we live in, it is useful to think about the consequences of these risks in time and use insurance. From ancient times to the present, people have taken precautionary measures against future events. One of the best forms of these measures is to use insurance in a timely manner. It is impossible to ensure the sustainable development set by the world without insurance.

***Key words:*** *risk, insurance, sustainable development, information asymmetry*

**Xavər Əli qızı Babayeva**

## İqtisadiyyatda sığortanın tarixi, növləri və rolu

### Xülasə

Məqalənin məqsədi sığorta, onun tarixi və təcrübədə tətbiq olunan növləri barəsində məlumat verməkdir. Sığortasız iqtisadiyyatı təsvir etmək qeyri-mümkündür. Çünki yaşadığımız dünyada risklər çoxdur. Qədim zamanlardan bugünə kimi insanlar gələcəkdə baş verə biləcək hadisələrə qarşı ehtiyat tədbirləri görmüşlər. Bu tədbirlərin ən yaxşı formalarından biri vaxtında sığortadan istifadə etməkdir. Dünyanın qarşıya məqsəd qoyduğu davamlı inkişafı təmin etmək də sığortasız mümkün deyil.

***Açar sözlər:*** *risk, sığorta, davamlı inkişaf, informasiya assimetriyası*

## Introduction

One proverb says that life is like driving a car, no matter how carefully you drive, there is always the possibility of an accident. Many things happen in the world every day. Some have a car or work accident, some get sick, some lose their jobs, and some die. Natural disasters, wars, and diseases occur, and as a result, both nations and peoples suffer. At that moment, everyone is thinking about getting rid of the damage. And some people say that I wish I had thought about the risk in time and therefore I would have taken out insurance. "An impossible event is possible." From Greek philosophy (Taranov P., 2005)

What is insurance with the symbol shown as an umbrella? Insurance is one of the measures taken today against future events. The main reason for the existence of insurance is the uncertainty of the future, the existence of risks. Let's take a closer look at the concept of risk.

Risk means the probability that certain events will occur. The concept of risk itself is very diverse. There are risks at both micro and macro levels, and today risk management is one of the most important issues for enterprises and countries. Today, no one, nothing, no insurance can guarantee that there will be no risk. If something happens, it will happen anyway. The essence of insurance is that the situation does not worsen in the event of an accident, compensation for losses. It should be noted that not all risks are insured. But it is useful to insure against risks that are more likely to occur.

**History of insurance.** The history of insurance dates back to BC. At that time, insurance was based on the idea that more people would help each other. According to the source, the workers involved in the construction of the Egyptian pyramids at that time formed a budget among themselves. The main purpose was to provide financial assistance to the families of those people in case of an accident. Similar examples were found in ancient Rome and Babylon. (Yıldırım, 2016:78)

The first insurance contract was signed and the first insurance company was established in Genoa, Italy. The first insurance contract was signed in 1347 to insure the cargo of the ship "Santa Clara". The first insurance company was established in 1424 due to the development of maritime trade. (Ibrahimov, and o. 2018:18)

## Analysis

**Classification of insurance.** In the literature, insurance is divided into life and non-life. This is due to the fact that life insurance is a benefit in the form of savings, and non-life insurance is a compensation.

Insurance is also divided into compulsory and voluntary insurance classes. Compulsory insurance is mandatory, and voluntary insurance is regulated by the parties to the insurance contract. Compulsory insurance is used in many countries. Let's give detailed information about the types of insurance that are relevant.

Property insurance is one of the most important types in the world and in Azerbaijan. It is difficult to imagine both movable and immovable property in cities and villages without insurance. Because, in a world with a lot of businesses and traffic jams, it is more likely to happen. Property insurance came into being after a major fire in London in the 17th century. Real estate insurance is used to prevent property damage from natural disasters, gas explosions and other accidents.

Movable property insurance

1) Motor insurance - is the coverage of damage caused to vehicles by insurers as a result of an accident;

2) Cargo insurance. This product, which is the oldest type of insurance, is used to insure cargo transported by transport. Today, there is a large number of cargo shipments in almost all modes of transport in the world, and the probability of an accident is high. As a result of the accident, the owner of the cargo can suffer a lot. This damage is often difficult to bear by the carrier. At the same time, the court costs are quite large to claim damages. The essence of this insurance is that the insurers compensate the owners of the cargo for the damage caused to the cargo as a result of an accedent committed by the carriers unknowingly. (Eyvazov, Balabeyova , 2019:39)

There are various conventions on insurance of international cargo transportation between countries. One of them is the CMR Convention adopted by the UN on May 19, 1956, to which Azerbaijan is a party. (https://isb.az/yasil-kart/)

3) Agricultural risk insurance. In other words, it is called agrarian insurance. Climate change, natural disasters, the spread of various pests are the main risks for the agricultural sector. Agrarian insurance includes insurance of animals, crops grown on land. Many countries around the world have experience in terms of funding sources for agricultural insurance. These are:

1. Complete implementation of agrarian insurance by the state. This practice is also applied in Canada, Iran and Greece.

2. Private agricultural insurance is applied in the Netherlands, Australia and New Zealand.

3. The application of agrarian insurance in a mixed form, ie through both state support and fees paid by farmers, is widespread in Turkey and Russia.

There are different forms of application of agricultural insurance: damage insurance, productivity insurance, index-based insurance. Damage insurance is divided into single risk and insurance against various risks. A single risk is a specific risk. For example, the risk of hail. Insurance against various risks means many risks. For example, insurance against hail and floods. Productivity insurance itself is divided into farmer and enterprise-based insurance.

These two types of insurance are result-based. That is, an insured event has occurred and the damage to the farmer is covered by the insurer. But index-based insurance is a bit different. Let's talk about it in more detail. There are two types of indexed insurance: productivity and weather index. The productivity index is the average productivity index of the region. Deviations from this index are already paid to the insured. In the air index, the index is calculated taking into account the climatic characteristics of the area, the amount of precipitation. Here, too, deviation from the index is already considered an insured event. Index insurance differs from other types of insurance in that it is usually applied in areas where the risk is high. For example, even if the risk of landslides is limited to one or more places, the risk of drought may be present for the whole country, not just for one village or district. Therefore, this insurance is usually applied in countries with a high risk of drought. For example, Ethiopia. Not all entrepreneurs can afford to insure large risks. Because when the risk is high, the insurance premium also increases. The advantage of index-based insurance is that both small and large farmers can benefit from

this insurance. Other advantages are the elimination of information asymmetry, no need to investigate the incident, and prompt resolution of the issue. (Jafarov, Huseynov, and Salahov, 2021:54)

**Health insurance.** This type of personal insurance is used in many countries, as well as in Azerbaijan, both compulsory and voluntary. The parties to this insurance are the insured, the insurer and the medical institutions. In the case of compulsory application, the insurer is usually a state-established institution, and some of the insurance premiums are paid by citizens. The reason for its compulsory application in many places is to reduce health expenditures from the state budget. In the voluntary application, there are insurance companies as insurers. Here, the insured can now use the services specified in the insurance contract, in the provided medical institutions.

Cyber risk insurance. Although this insurance is considered young, it is currently one of the most important products. A study by Allianz, the world's largest insurance company, found that cyber incidents accounted for 44 percent of global business risks by 2022. In general, the assessment and calculation of risks in this insurance is more difficult than in other insurance products. There are different forms of cyber risks. These include damage to computers or other technological equipment due to water and electricity leaks, hackers seizing information from people, government agencies and companies, risks in e-commerce, tampering with bank cards, unknowingly deleting files on computers, spreading viruses, etc. aiddir. It should be noted that this insurance product can be obtained both as an additional guarantee for other existing products, for example, in property insurance, as well as as a separate insurance product. (İbrahimli U., 2021:43)

One of the most relevant types of liability insurance at the international level is "Green Card" insurance. The Green Card system, which has been in place since 1953, was established in 1949 on the recommendation of the United Nations Economic Commission for Europe. The essence of this insurance is to insure civil liability as a result of a traffic accident in the member countries of the system. For this purpose, offices are established in the countries where the insurance is applied. If the driver has an accident in another country member of the system outside the country, the office in the driver's country pays insurance to the office in the country where the accident occurred.

**Life insurance**. There are a number of other areas of life insurance that are common in practice: life, death, insurance against undesirable diseases, accident insurance of employees, etc.

The essence of life insurance is that the insured pays a certain amount to the insurer and the insured recovers the accumulated amount from the insurer at the time specified in the contract.

In life death insurance, unlike life insurance, the amount collected in the event of the insured's death is given to the beneficiary specified in the contract in the form of an insurance payment.

This is the working mechanism of insurance against diseases such as cancer, stroke and thalassemia, which belong to the group of serious diseases. A person wishing to obtain this insurance must first undergo a medical examination and then have no symptoms of these diseases. After that, the insured is paid a certain fee to the insured in case the insured becomes infected with one of these diseases within the period specified in the contract. Although there are similarities with health insurance, the difference between them is that the cost of health insurance is paid by the insurer to the medical institution, in insurance of serious diseases, the insured is paid directly by the insurer.

Insurance products are sold in the insurance market. As in any market, the main actors here are buyers and sellers. The buyer of the insurance product is called the insured and the seller is called the insurer. Agents and brokers are the ones who build bridges between sellers and buyers, insurance intermediaries. The difference is that the agent is the insurer and the broker is the insured. The money paid by the buyer to purchase the insurance product is called the insurance premium, and the payment made by the insurer in the event of an insured event is called the insurance payment. Insured house, car, etc. and is the object of insurance. The sum insured is the amount to be insured by the insured object and cannot exceed the market value of the object. (Alakbarov A., Mammadov, Huseynova., 2021:56)

Another concept with insurance is that the franchise is the part that the insurer is exempt from the amount to be paid in the event of an insured event, and the reason for this is to cause the insured to act responsibly. There are two types of franchises: conditional and unconditional. Let's look at an example to explain the difference. Suppose a person named Nabi insures his tractor and the amount of the franchise is set at AZN 200 in the insurance contract. As a result of the insurance accident, Nabi

suffered AZN 700 damage. If the contract stipulates an unconditional franchise, then there will be an insurance payment in the amount of 700 (15)

In addition to the franchise, there is the concept of insurance limit. The essence of this is that within the insurance limit, the insurer assumes a certain amount of damage. For example, the contract sets an insurance limit of AZN 1,000. This means that the insurer will reimburse the insured for damages of up to AZN 1,000.

Reinsurance. Sometimes there is an insurance contract that is a risk for the insurer and the insurer passes this risk to other insurers in the reinsurance market. For example, insurance company A insured a hotel building worth AZN 1 million. Company A reinsures this insurance product by concluding an insurance contract with R reinsurance company. In this case, "A" is the reinsured or sedentary party of the contract, "R" is the reinsurer. The reinsurer may transfer the risk to the reinsurer. This process is called retrocession. A reinsurer who passes the risk is called a retrocessor. There are optional and obligatory types of reinsurance. (Atashov, Alakbarov, Khudiyev, 2018:34)

What distinguishes the insurance market from other markets is that the cause of the information asymmetry is not the seller but the buyer. First of all, let's talk about information asymmetry. The best example of how information asymmetry has led to market failure is Nobel Prize-winning economist George Akerlof's study, The Market for Lemons: Quality Uncertainty and the Market Mechanism. This study assumes that there are four types of cars on the market: new, used, good and bad (lemon). People who buy a new car can give false information about the car to the buyer when they want to sell their car after a while. That is, they can present the car as good, even if it is in poor condition. Potential buyers will not want to buy a used car because the sellers know they are doing it. As a result, used cars in good condition are sold at below market prices, demand for new cars increases, and prices rise. As a result, the market fails. (Akerlof, 1976:45)

In the insurance market, the process is slightly different. Here, the buyer creates false information about the product. Because the insured are more aware of the risks than the insurers, they can misinform them. For example. This can happen if a person who is about to retire wants to get insurance, or if more sick people want to use health insurance. Insurers will be aware of this and will set higher insurance premiums. As a result, this will lead other potential insurers to abandon the insurance product and the market will fail. (Qruber, 2021:65)

It is necessary to look at and analyze some indicators of how any enterprise operates. This is also the case with insurance companies. The indicators used to analyze the performance of the insurer are: absolute, relative, average. Absolute indicators are concrete. For example, you can show him the size of the insurer's assets. An example of a relative indicator is the percentage of insurance premiums in assets. Average indicators usually characterize the costs per employee, per contract. For example, the insurance payment per contractor can be attributed to this indicator. (Hasanov, 2014:45)

Social insurance. The main purpose of social insurance is the welfare of citizens. Popular insurance in this category in the world includes unemployment, disability insurance, compulsory health insurance, etc. The essence of unemployment and disability insurance is that, accordingly, a person reimburses in the form of payment for the premiums paid for these insurances during the period of employment. There are compulsory government programs for both insurance in the United States. (Qruber C., 2021:56)

## Conclusion

**Sustainable development and insurance**. A study by the World Bank shows that sustainable development is difficult without insurance. The study also emphasizes the importance of insurance for economic sustainability in achieving SGPs. For some purposes, this is more pronounced. For example, countries can make better use of social insurance for the first goal, "Poverty Reduction." It was also found that countries with highly developed insurance markets face less losses than others, which leads to stronger financial stability of those countries. (Holliday, Remizova, Stewart , 2021:78)

## References


1. Atashov B.K, Alakbarov A.A, Khudiyev N.N, (2018), Insurance. Textbook. Baku, "Cooperation", 417 pages.
2. Eyvazov E., Balabeyova N., (2019), International transport operations. Textbook. Baku, "Science and education" -336 pages.
3. Alakbarov A.A, Mammadov Z.F, Huseynova A.T, (2021), Financial markets. Textbook for universities, Baku, "AA" Computer Printing Center - 232 pages.
4. Hasanov Rashad, 2014, Master's dissertation on "Statistical assessment of the level and dynamics of insurance services to the population", http://unec.edu.az/application/uploads 2015/12/ rasad24.pdf, 98 pages
5. Ibrahimov E.R, Huseynov M.C., Salahov E.A, Abbasova Y.A, (2017), Insurance work. Textbook. Baku, 297 pages
6. Ibrahimov C.H., Huseynov M.C., Salahov E.A., “Theoretical aspects of index insurance in agriculture and application prospects in Azerbaijan”, Agricultural Economics, 2021, № 2 (36), pp. 21-34
7. Ibrahimli U., "Cyber-risks and insurance coverage". Risk Analytical Business, 2017, № 3, pp. 42-45
8. Akerlof G., “The market for “Lemons”: Quality Uncertainty and The Market Mechanism”. Quartily journal of Economics (1976), p 488-450
9. Gruber Jonathan, (2021), Public Finance and Public Policy, Garayeva.A., Jafarova.N., Omarov.T., Mammadli.M./Jafarli Famil, Baku, “TEAS Press” -806 p.
10. Holliday S., Remizova İ., Stewart F., “The Insurance Sector’s Contribution to the Sustainable Development Goals (SDGs)” World Bank Group, 2021, volume 28
11. Yıldırım F., "A brief look at the history of insurance from the point of view of Turkish law and case law". Adnan Menderes University, 3rd National Vocational High School Congress of Social and Technical Sciences-Aydın, April 28-30, 2016, pages 210-222
12. Taranov P. (2005), 120 philosophers: Life. Fate. Teaching. Thoughts: A universal analytical guide to the history of philosophy. Simferopol, "Renome" -704 s
13. https://danx.gov.az/pages/52/beynəlxalq+əməkdaşlıq
14. https://isb.az/yasil-kart/
15. https://insure.az/public/storage/files/insurance_guidebook.pdf


**Rəyçi: i.ü.f.d. Elşad Səmədzadə**

Göndərilib:14.04.2022 Qəbul edilib: 02.06.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/87-91

**Ülkər Aydın qızı Möhnətova**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
magistrant
umohnatova@inbox.ru

# SIĞORTA ŞİRKƏTLƏRİNİN KAPİTALININ FORMALAŞMA MƏNBƏLƏRİ VƏ QİYMƏTLƏNDİRMƏ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Sığorta fəaliyyətinin müasir iqtisadi təhlilinin başlanğıcı kimi qiymətləndirilə bilən bir neçə mühüm amillər iqtisadiyyatda əsas nəzəri və empirik töhfələr nəzərdən keçirilir. İcmal sığorta ədəbiyyatında faydalılıq, risk və riskdən çəkinmə rolu ilə başlayır və sığortaya tələb, sığorta və resurs bölgüsü, mənəvi təhlükə və mənfi seçim üzərində işi ümumiləşdirir. Daha sonra sığortanın maliyyə qiymət modellərinə və qiymət dəyişkənliyi və anderraytinq dövrlərinin təhlilinə müraciət edir; sığorta qiymətlərinin tənzimlənməsi; sığorta şirkətinin kapitalının adekvatlığı və kapitalın tənzimlənməsi; sığorta sekuritizasiyasının və sığorta ilə əlaqəli qiymətli kağızların inkişafı; və sığorta təşkilatlarının səmərəliliyi, bölgüsü, təşkilati forması və idarə edilməsi.

***Açar sözlər:*** *sığorta, sığorta bazarı, risklərin bölüşdürülməsi, sığortaya tələb, sığortanın maliyyə qiymətlərinin müəyyən edilməsi*

**Ulker Aydin Mohnatova**

## Sources of formation of capital of insurance companies and appreciation properties

**Abstract**

Several important factors that can be considered as the beginning of a modern economic analysis of insurance activity are considered to be the main theoretical and empirical contributions to the economy. The review begins with the role of utility, risk and risk avoidance in the insurance literature and summarizes the work on insurance demand, insurance and resource allocation, moral hazard and negative choice. It then refers to the financial price models of insurance and the analysis of price volatility and underwriting periods; regulation of insurance prices; capital adequacy and capital regulation of the insurance company; development of insurance securitization and insurance-related securities; and efficiency, distribution, organizational form and management of insurance companies.

***Key words:*** *insurance, insurance market, risk distribution, insurance demand, determination of financial prices of insurance*

## Giriş

İqtisadi fəaliyyətdə riskin üstünlük təşkil etməsi həmişə tanınsa da deterministik modellər uzun illər ərzində müşahidə olunan hadisələrin iqtisadi izahatlarında üstünlük təşkil edirdi. Nəticədə sığorta iqtisadiyyatı nisbətən qısa tarixə malikdir. İqtisadi təhlildə risk və qeyri-müəyyənliyi rəsmi şəkildə təqdim edən ilk işlərdə sığorta ya şərti mal kimi baxılmış, ya da müzakirə edilmişdir. 1960-cı ilə qədər iqtisadi ədəbiyyatda sığorta bazarlarının mahiyyəti və ya bu bazarlardakı ayrı-ayrı agentlərin iqtisadi davranışı ilə bağlı təhlillər böyük ölçüdə yox idi. Sığorta iqtisadiyyatının inkişafında və daha ümumi olaraq qeyri-müəyyənlik, informasiya, və rabitə. sığorta bazarları, fond bazarları, gizli müqavilələr, xərc-plus müqavilələr və fyuçers bazarları kimi risklərin dəyişdirilməsi üçün müxtəlif institusional tənzimləmələrin rolunu izah edən təhlil edilirdi. Bütün bu qurumlar riski daşımada müqayisəli üstünlüyə malik tərəflərə ötürür (Viauroux, 2013:78). Adi sığorta nümunəsində, risklə qarşılaşan riskdən çəkinən şəxslər riski bu qiymətə daşımağı təklif edən daha az riskdən çəkinən və ya daha çox şaxələndirilmiş sığortaçıya sabit qiymət ödəməyə hazırdırlar. Hər iki tərəf müqavilə ilə razılaşdığı üçün hər ikisi daha yaxşıdır. Hər hansı bir bazarda risk nadir hallarda tamamilə dəyişdirilir. Risk dəyişikliyinin məhdud olmasının üç əsas səbəbini müzakirə etdi: mənəvi təhlükə, mənfi seçim və əməliyyat xərcləri. Asimmetrik məlumatın olmadığı halda, sığorta haqqının ödənilməsi zamanı çıxılan məbləğdən yuxarı tam sığortanın optimal olduğu. Arrow və Borch-un yenilikçi işindən sonra sığorta iqtisadiyyatının əsas

inkişafları nəzərdən keçirilir. Sübut edilmişdir ki, sığorta fəaliyyətinin mahiyyəti sığortaçının kapitalının mürəkkəb strukturunu əvvəlcədən müəyyən edir. Sığorta fəaliyyəti prosesinə daxil olan resurslardan asılı olaraq maliyyə və qeyri-maliyyə kapitalına - maliyyə və ya qeyri-maliyyə kapitalına bölünə bilər. Effektiv idarəetmə ilə maliyyə və qeyri-maliyyə resursları şirkətin kapitallaşmasının artımını təmin edir. Eyni zamanda, sığortaçı tərəfindən sığorta iştirakçıları arasında, habelə sığortalılarla səhmdarlar arasında vasitəçilik funksiyalarının yerinə yetirilməsinin səmərəliliyini təmin edən, sığortaçının maliyyə kapitalının artımını müəyyən edən qeyri-maliyyə kapitalıdır. sığorta şirkəti. Əsas və dövriyyə kapitalı onun idarə edilməsinə dair təkliflərin formalaşdırılması məqsədilə kapitalın bir hissəsi kimi ayrılır. Xarici investisiyalar olmadan şirkətin maliyyə sabitliyini artırmaq üçün kapitalın effektiv idarə edilməsini təmin edən institusional şərtlərə dair tələblər hazırlanmışdır. Tənzimləyici normalarla nəzərdə tutulmuş nizamnamə kapitalının minimum məbləğinin nizamnamə kapitalının ölçüsü ilə əlaqələndirilməsi təklif olunur, çünki sığorta fəaliyyəti yalnız mövcud olduqda mümkündür. Aşağı riskli kapitalın bölüşdürülməsinə yönəlmiş tənzimləyici standartlara uyğunluq inflyasiya şəraitində onun real dəyərini azaldır və buna görə də iş bu azalmanı vergidən əvvəlki mənfəətdən kompensasiya etmək üçün ehtiyatın formalaşdırılması ehtiyacını əsaslandırır. Sığortaçının sahibkarlıq riskinin azaldılması mənbəyi kimi kapital kapitalı da əsas hesab edilə bilər, çünki onun ölçüsü təkcə sığorta fəaliyyəti üçün zəruri deyil, həm də sığorta xidmətlərinin göstərilməsini qismən təmin edir (Kisova, 2009:67)

Tədqiqat institutları (Rİ) bir qayda olaraq, innovasiya fəaliyyətinin ilkin mərhələsində işləyirlər, çünki onlar fundamental və tətbiqi tədqiqatları, eksperimental inkişafı, layihə və layihə sənədlərinin hazırlanmasını həyata keçirirlər. Eyni zamanda, innovasiya prosesinin bu mərhələlərinin səmərəliliyi əsasən onun istehsalda istifadəsinin və hazır innovativ məhsulların istehlakçıya çatdırılmasının mümkünlüyünü və effektivliyini müəyyən edir (10).

İnnovasiya prosesində texnoparklar xüsusi rol oynayır. Sənaye parkları torpaq, ofis sahəsi, avadanlıq, texniki vasitələr və bəzi biznes xidmətlərindən birgə istifadəyə əsaslanan firmaların birliyidir (4).

Sənaye şirkətləri milli innovasiya sisteminin əsas elementidir. Onların tədqiqat və inkişafa (R&D), innovativ layihələrə sərmayələrinin həcmi müvafiq sənaye sahələrinin texnoloji inkişafına həlledici təsir göstərmək üçün kifayət qədər əhəmiyyətlidir. Bu cür təsir mexanizmləri texnologiyaların ötürülməsi və

öz inkişaflarının kommersiyalaşdırılması, elmi-tədqiqat və innovativ məhsullar (işlər, xidmətlər) üçün sifariş, şirkətin fəaliyyət göstərdiyi bazarlarda rəqabət mühitinin yaradılması, digər müəssisələrin oxşar fəaliyyətə sövq edilməsi ola bilər. Sənaye şirkətlərinin texnoloji strategiyaları işlənib hazırlanarkən, resursların cəmləşəcəyi prioritet texnoloji sahələrin müəyyən edilməsində innovativ inkişafın hərəkətvericiləri kimi rolu nəzərə alınmalıdır (7).

Sənaye şirkətlərinin innovativ fəaliyyətini düzgün qiymətləndirmək lazımdır (8). Şirkətlərin innovativ fəaliyyətinin ölçülməsinə həsr olunmuş bir çox tədqiqatlar mövcuddur. Bununla belə, innovativ fəaliyyət səviyyəsinin ən tam qiymətləndirilməsinə imkan verən qiymətləndirmənin başa düşülməsi üçün vahid yanaşma hazırlanmamışdır. Ədəbiyyatda çox vaxt göstəricilərə əsaslanan yanaşmalar mövcuddur: Araşdırma və inkişaf xərcləri, patentlərin sayı, patent sitatları, bazara çıxarılan yeni məhsulların sayı və s. Bu tədqiqatın məqsədi sənaye şirkətlərinin innovativ fəaliyyətinin göstəricilərinin daha dərindən öyrənilməsi və sənaye müəssisələrinin innovativ fəaliyyətinin çoxölçülü məcmu qiymətləndirilməsinin formalaşdırılmasıdır. Belə bir göstəricinin formalaşdırılması şirkətlərin innovativ fəaliyyətinin daha informativ qiymətləndirilməsinə və onun innovativ davranışının transformasiyasına imkan verəcək (13).

İ. Pallister öz işində innovasiyanın ölçülməsi üçün ölçüləri də müəyyən edir və onları innovasiya prosesini xarakterizə edən göstəricilərə və şirkətin innovativ fəaliyyətini xarakterizə edən göstəricilərə bölür. Bununla yanaşı, Pallister qeyd edir ki, müxtəlif ölçmə mexanizmləri, giriş göstəriciləri və performans göstəriciləri şirkətin fəaliyyət göstərdiyi sənayedən asılı olaraq fərqlənəcək. Həqiqətən də, müxtəlif indikatorların istifadə olunduğu müxtəlif sənaye sahələrində şirkətlərin innovativ fəaliyyətlərinin effektivliyinin qiymətləndirilməsi ilə bağlı çoxlu araşdırmalar mövcuddur. Məsələn, Hansen və başqalarının araşdırması meşə təsərrüfatı sənayesinin menecerləri ilə müsahibə aparmış və innovasiyaların göstəriciləri və sürücülərini müəyyən etmişdir. İvanovanın tədqiqatı həm də meşə biotexnologiyası müəssisələrinin innovativ fəaliyyətinin performans göstəricilərinin müəyyənləşdirilməsinə həsr edilmişdir. Müəllif göstəriciləri özündə birləşdirən sistem təklif edir: innovasiyalar yaratmaq üçün istehsal imkanlarının mövcudluğu; hazırlıq proseslərinin vəziyyəti; maddi-texniki ehtiyatlarla təmin edilməsi; kadr potensialı.

Bu tədqiqatlar Pallisterin müxtəlif sənayelərdəki şirkətlərdə innovasiyaların və onların effektivliyinin ölçülməsi üçün müxtəlif mexanizmlərdən istifadə edilməsinin zəruriliyi haqqında irəli sürdüyü tezisin doğruluğunu təsdiq edir. Eyni nəticəyə B. Qlassman gəlir ki, o, innovativ səmərəliliyin qiymətləndirilməsi üçün vahid məlumat toplusunu müəyyənləşdirir və ondan müxtəlif sənayelərdəki bütün şirkətlər üçün istifadə edilə bilməyəcəyi qənaətinə gəlir. Buna görə də, Qlassman konkret sənaye sahələrində şirkətlərin innovasiya prosesinin xüsusiyyətlərini xarakterizə edən subyektiv ölçülərdən istifadə etməyi təklif edir və şirkətlərin ehtiyaclarına uyğun olaraq metriklərin seçilməsinə dair tövsiyələr verir (Yüzbaşeva, 2014: 257).

## Nəticə

Nəticə etibarı ilə müxtəlif sənaye sahələrində olan müəssisələrdə innovasiyaları stimullaşdırmaq, innovasiyalar üçün ən əlverişli mühit yaratmaq üçün dövlət ilk növbədə motivasiya tədbirləri hazırlamalıdır ki, bunlar:

- ölkənin inkişafının innovativ yoluna keçid, gələcək inkişaf yoluna müəssisələrin innovativ fəaliyyətini formalaşdırmalı;
- innovasiya fəaliyyətinin birbaşa və ya dolayısı ilə maliyyə stimullaşdırılmasının prioritetləri, formaları və həcmləri təyin olunmalı(birbaşa investisiyaların, kreditlərin, vergilərin, amortizasiyaların və digər güzəştlərin köməyi ilə);
- onlar innovasiya proseslərində iştirak etməli, hüquqi, inzibati, texnoloji, lisenziyalaşdırma və marketinq məlumatlarının məlumat banklarını yaratmalı və bununla bağlı xidmətlər göstərməlidir.

## Ədəbiyyat

1. Eskindarov, M. (2016), Operativ idarəetmənin innovativ texnologiyaları, Bakı: Elm.
2. Tretyak, L. (2016), Müəssisədə İnnovativ Fəaliyyətlər.
3. Aqarkov, S., Kuznetsova E., Qryaznova M. (2011) İnnovasiyaların idarə edilməsi və dövlət innovasiya siyasəti, Bakı: Elm
4. https://studref.com/604074/menedzhment/formy_organizatsii_innovatsionnoy_deyatelnosti
5. https://mebelsotis.ru/formy-organizacii-innovacionnoi-deyatelnosti-innovacionnaya-deyatelnost-ee-vidy-formy-i-vidy-innov/
6. Yüzbaşeva, G.Z. (2014), Azərbaycan Sənayesinin Yenidən Qurulması, Bakı: Elm.
7. http://unec.edu.az/application/uploads/2018/12/Abdullayeva-Fatim-.pdf
8. http://unec.edu.az/application/uploads/2019/10/N-sibli-Emin-brahim-o-lu.pdf
9. https://copat.gov.az/docs/Nesrler/AZE/Innovasiya/Eqli_Mulkiyyet_innovativ_inkisaf_kontekstinde.PDF?_t=1597825888
10. https://www.btx.az/media/files/32/file229.pdf
11. http://www.geostrategiya.az/news.php?id=97
12. https://hrclub.az/files/file/documents/document_hrclubaz_196.pdf
13. http://www.anl.az/down/meqale/adiu_elmixeb/2019/yanvar-mart/734965(meqale).pdf
14. http://www.untagsmd.ac.id/files/perpustakaan_digital_1/entrepreneurship%20Innovation%20and%20entrepreneurship.PDF

**Rəyçi: i.ü.f.d. Əli Hacıyev**

Göndərilib: 04.04.2022 Qəbul edilib: 25.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/127-131

**Ləman Vaqif qızı Dibirova**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
magistrant
lemandibirova9@gmail.com

# DÖVLƏT VƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI VƏ ONLARIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

**Xülasə**

İnkişaf etmiş ölkələr üzrə tarixi təcrübə onu göstərir ki, ölkədə vətəndaşlara xidmət göstərən cəmiyyətin formalaşması, demokratiyanın təmin olunması, dövlətin hüquqi normalarını tənzimləmək məqsədilə mühim problemlər ancaq o halda həll oluna bilər ki, yerli özünüidarəetmə sistemi inkişaf etsin. Yerli özünüidarə etmə orqanlarının iş prinsipləri, funksionallığı, normativlərinin təsdiqi prosedurları nəzəri-metodoloji baxımdan əhəmiyyət kəsb edir. Demokratik hüquqi dövlət quruculuğunda, ölkə iqtisadiyyatının və sosial həyatının dinamik inkişafında, sabit sosial mühitdə yerli özünüidarəetmə orqanlarının müsbət rolu tam əsaslandırıla bilər. Yerli idarəetmə orqanlarının fəaliyyət rejimi öndə tutulmaqla tədqiqat prosesinin aparılması və siyasi baxımdan münasibətlərin tənzimlənməsinə dair təhlil və tədqiq aparılır. Bu sferaların yerli idarəetmə orqanlarında cəmləşməsi daha çox maraq kəsb edir. Ona görə də mərkəzləşmə siyasəti önəm kəsb edir və bu baxımdan fərqli fikirlər irəli sürülmüşdür. Məqalədə yerli özünüidarəetmə orqanlarınına müxtəlif nəzəri və metodoloji əsasları nəzərdən keçirilir.

***Açar sözlər:*** *demokratiya, bələdiyyə, yerli özünüidaetmə, dövlət, nəzəriyyə*

**Laman Vagif Dibirova**

## Theoretical and methodological bases of state and local self-government bodies and their areas of activity

**Abstract**

Historical experience in developed countries shows that important problems can be solved only in order to form a society that serves its citizens, to ensure democracy, to regulate the legal norms of the state, if the system of local self-government develops. The principles of work, functionality, approval procedures of local self-government bodies are of theoretical and methodological significance. The positive role of local self-government bodies in building a democratic state governed by the rule of law, in the dynamic development of the country's economy and social life, and in a stable social environment can be fully justified. An analysis and research is conducted on the conduct of the research process and the regulation of relations from a political point of view, with a focus on the mode of operation of local governments. Of particular interest is the concentration of these areas in local government. Therefore, the policy of centralization is important, and in this regard, different views have been put forward. The article considers various theoretical and methodological bases of local self-government.

***Key words:*** *democracy, municipality, local self-government, state, theory*

## Giriş

Yerli idarəetməni ifadə etmək, onun yerini xalqın idarə olunmasındakı rolunu bilmək üçün ilk növbədə özünüidarənin əsaslarını öyrənmək lazımdır. Yerli özünüidarəetmə sisteminin qurulmasının əhəmiyyəti vətəndaş cəmiyyətinin yerli demokratiyasının inkişafı yolu üçün birbaşa kömək edir. Yəni, bu, müasir demokratiyanın əsasını formalaşdırmağa təzahür yaradır ki, bu da demokratiyanın necə təsis olunması və cəmiyyətin formalaşmasında demokratiya dövrünü yaşayan vətəndaşlarımız üçün olduqca mühim əhəmiyyət kəsb edir. Ölkəmizdən savayı, beynəlxalq miqyasda da yerli idarəetmə orqanları da fəaliyyət göstərdiyini nəzərə alaraq, onun tarixi və inkişaf tendensiyalarını müəyyən etməyə çalışaq. Bildiyimiz kimi bələdiyyələr siyasi baxımdan sistemləşdirilməsi o qədər də sürətli getməmişdir. Burada

məsələ birtərəfli olmadığından, siyasi, sosial, iqtisadi və təşkilatçılıq amilləri də əsas yer tutur. Yerli idarəetmə və dövlət orqanlarını bütövlükdə təhlil etmək üçün nəzarət funksiyası qanunauyğun şəkildə təşkil olunur. Ədəbiyyatlarda onlar arasında baş vermiş sadaladığımız sferalar üzrə problemli məsələlər və onların həlli istiqamətləri barədə geniş şərh demək olar ki mövcud deyil. Çox vaxt bu problemlərə siyasi və sosialyönümlü baxılsa da, əfsuslar olsun ki baxış bucağı həmişə eyni olmur. Misal üçün yerli özünüidarə etmə orqanlarını nəzəri baxımdan ətraflı şəkildə analiz edən tədqiqat nümunələri yaxud üsulları yox səviyyəsindədir. Amma xarici ədəbiyyatlara nəzər salsaq görərik ki məlumat sayı və tədqiqat işi bu sferada olduqca yüksəkdir. Məhz çox vaxt bu səbəbdən müqayisəli təhlil apararaq məsələlərin həlli yolu təcrübi olaraq tapılır.

## Əsas hissə

Yerli özünüidarəetməyə dair müasir baxış öz əksini XIX əsr alimlərinin əsərlərində idarəçilik haqqında irəli sürülmüş nəzəri fikirlər və ideyalarda tapmışdır. Belə ki, bu baxışların bir-birindən ciddi şəkildə fərqləndiyini qeyd etməliyik. Yerli özünüidarəni dövlətin tabeliyində olan, milli standartlara və mərkəzi hakimiyyətin siyasi istiqamətininin xüsusiyyətlərinə uyğun şəkildə əhaliyə xidmət edən mərkəzləşdirilməmiş idarəetmə forması nəzərdə tuturlar. Bəzi alim və mütəfəkkirlər isə icmanın yerli özünüidarəetmə konsepsiyasını nəzərə alaraq, yerli özünüidarələrin müstəqilliyini müdafiə edirlər. Digər alimlər icmanın yerli özünüidarəetmə konsepsiyasına sadiq qalaraq yerli özünüidarələrin müstəqilliyini müdafiə edirlər. Bu müstəqillik öz təsdiqini bu qurumların birbaşa olaraq xalq tərəfindən və ya onların iştirakı ilə formalaşdırılması azadlığında tapır. Sərbəstliyi səciyyələndirən amil yerli özünüidarəetmə orqanlarının şəxsi maliyyə resurslarına və hüquqi səlahiyyətlərinə (hüquqi şəxs kimi müqavilələr bağlamaq və məhkəmə çəkişmələrinə) malik olmasıdır (Yusifov, İsmayılov, 2016:12).

Qlobal miqyasda Avropa üzrə inteqrasiya prosesləri zamanı bələdiyyələrin, icra orqanlarının fəaliyyəti də digər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə demək olar ki eyni şəkildə gedir. Dövlətin idarə olunması zamanı, onun demokratikliyini təmin etmək, qeyri-millətlərdən ibarət olması yönündə, həmçinin subsidiar və birbaşa mərkəzdən idarə olunması istiqamətin addımlar atılması üçün islahatların təşkili aparılır (9).

Nəzəri baxımdan ölkə üzrə qeyri-mərkəzləşdirmə prosedurlarının inkişafı istiqamətində və yerli özünüidarə orqanlarının inkişaf tempində baş vermiş məsələlərlə bağlı məlumat yetərsizliyinin olması, tədqiqatın bu sahədə az aparılması ilə birbaşa bağlıdır.

Orta əsrlər Avropada icma hakimiyyətinin yaradılması və onun dövlət hakimiyyəti ilə əlaqəsi haqqında fikirlər artmağa başladı. İcma hakimiyyətinin inkişafı bilavasitə şəhər əhalisinin səyləri ilə bağlı idi. Burada ticarət və sənaye maliyyəsi formalaşmağa başladığı və feodalların təsirindən qurtulmaq, mülkədarların nəzarətindən çıxmaq üçün çalışırdı. Buna uyğun olaraq, hökumətdə icmanın ölçüsü ilə bağlı fikirlər yaranmağa başlayır. Beləliklə, icma hökumətdən əvvəl yarandı(İbrahimov, 2014:336)

Demokratiyanın əsas ünsürləridən biri kimi qiymətləndirilən yerli özünüidaetmə orqanlarının yaranması uzun tarixi inkişaf yolu keçmişdir. Yerli özünüidarəetmənin tarixi kökləri, bütün dünya xalqlarının ümumi maraqlarını əhatə edən məsələlərin həlli istiqamətindəki adət-ənənələrlə bağlıdır. Uzun illər Avropada ictimai, siyasi və iqtisadi hakimiyyət iki təbəqənin, ruhanilərin və zadəganların əlində cəmləşmişdi. Şəhərlərin yaranması və ticarətin inkişafı ilə formalaşan kommuna strukturları, ümumi xidmət ehtiyaclarını ödəmək üçün padşahlardan aldıqları imtiyazlarla yerli idarəetmənin əsasını qoydular. Vaxt keçdikcə kommuna idarələrinin gücünü itirməsi və mərkəzləşmiş milli dövlətlərin güc qazanması ilə yerli idarəetmələrin zəruriliyi müzakirə edilmiş və müxtəlif mütəfəkkirlər tərəfindən fərqli fikirlər irəli sürülmüşdür. J.J. Russo və İ. Kant şəhər və dövlət arasında yerli idarəetmə kimi ara qurumların girməsinin vacib olmadığını iddia edərkən, A.R.J. Turqot və C. Bentham dövlətlərin ümumi maraqları ilə fərdi maraqlar arasında körpü kimi düzgün şəkildə alt bölmələrin formalaşdırılmasının zəruriliyini müdafiə edirdilər (Səlimzadə, 2010:280).

Bələdiyyə termini ilk dəfə 1789-cu ildə Fransanın Təsis şurasında istifadə edilmişdir. Bu gün istifadə edilən "bələdiyyə" anlayışı Qədim Roma mənşəlidir və "municipe" sözündən-imperiyaya yeni birləşdirilən torpaqlar, qaynaqlanır. 1835-ci ildən etibarən Britaniyada bələdiyyə hüquqi şəxs kimi inkişaf etmişdir. Yerli özünüidarəetməyə müasir baxışın əsasını XIX əsr alimlərinin əsərlərində irəli sürülən nəzəri fikirlər təşkil edir. Maraqlı cəhət budur ki, bu fikirlər arasında əsaslı fərqlər mövcuddur.

Bəzi alimlər yerli özünüidarəetməni dövlətdən asılı olan və onun ümumi siyasi siyasətinə uyğun olaraq əhaliyə xidmət göstərən dövlət idaəetməsinin əks mərkəzləşmiş forması hesab edirlər. (İbrahimov, 2018: 384)

Dövlət hakimiyyətinin fərqli qolu olan yerli özünüidarə müvafiq dualizmlərin vasitəsilə müəyyən olunur. Digər baxımdan hüquqi nöqteyi-nəzərdən yerli idarəetmə orqanları təyin olunmuş sahə üzrə baxış keçirərək, onun idarəolunması prosesini icra edirlər. Burada əsas missiyanı bu orqanların vəzifəli və aidiyatı şəxsləri, onlara təhkim olunmuş qəsəbələrə, kəndlərə, şəhərlərə hüquq çərçivəsində dövlət nəzarətini bilavasitə həyata keçirirlər. Yəni burada yerli idarəetmə orqanları dövlətin tabeliyində olmasa belə, dövlətin verdiyi səlahiyyətdən istifadə hüquqlarına malikdir. Yerli özünüidarə etmə orqanları çoxşaxəli sosialyönümlü və siyasi məsələləri özündə birləşdirir. Bunu nəzəri baxımdan təriflərlə yaxud mülahizələrlə sonlandırmaq asan deyil (Yusifov, İsmayılov, 2016: 20)

Qlobal miqyasda Avropa üzrə inteqrasiya prosesləri zamanı bələdiyyələrin, icra orqanlarının fəaliyyəti də digər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə demək olar ki eyni şəkildə gedir. Dövlətin idarə olunması zamanı, onun demokratikliyini təmin etmək, qeyri-millətlərdən ibarət olması yönündə, həmçinin subsidiar və birbaşa mərkəzdən idarə olunması istiqamətin addımlar atılması üçün islahatların təşkili aparılır.

Burada əsas prinsip dövlətin yerli özünü idarə orqanlarının fəaliyyətini məcburi şəkildə Avropa qanunları çərçivəsində aparmaqdır. 1985-ci ildə aparılmış islahatlara görə Avropa ölkələrinin dövlət və yerli özünüidarə orqanları üzrə dünəndən bugünə qəbul olunmuş qərarlar, normativ-hüquqi aktlar arasında hədsiz sayda müxtəliflik olduğu nəzərə çarpır. Bu onlara verilmiş səlahiyyətlərə də birbaşa təsirini göstərir. (Ökmən, 2013: 200)

Müasir hüquq ədəbiyyatında ən çox xatırlanan “müstəqil hökumət”, “həvəskar hökumət” kimi fikirlər əsasən “azad icma” nəzəriyyəsindən qaynaqlanır. Bu nəzəriyyəyə görə, icmalar müstəqildir, dövlət tərəfindən qurulmur. Nəticədə icmalar öz vəzifələrini müstəqil şəkildə həyata keçirmək səlahiyyətinə malikdirlər. İcmaların təbii hüquqlarına əsaslanan “azad icma” nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, insan hüquqlarına münasibətdə özünüidarə sosial azadlığın nəticəsidi(14).

Nəzəriyyədə demokratiyanın və bütövlükdə nümayəndəli idarəetmə formalarının, o cümlədən etnik azlıqların seçki hüququnun, yerli özünüidarəetmə orqanlarının seçilmə qaydalarının, dövlət orqanlarının icma səlahiyyətlərinə mane olmağının uyğunsuzluğu və s. xüsusiyyətləri də ifadə olunur.

Yerli özünüidarənin başqa bir nəzəriyyəsi “sosial xidmət” nəzəriyyəsi və ya “ümumrifah dövlət” nəzəriyyəsidir. Bu nəzəriyyələrin ümumi mənası ondan ibarətdir ki, dövlət xidmətlərinin təşkili, şəhər xidmətlərinin inkişafı mexanizmləri mövcuddur. Yerli hökumətlər iri sahibkarların maraqlarını təşviq etməklə sosial inkişafı təşviq edirlər. Odur ki, sahibkarlığın inkişafı müəyyən iqtisadi səlahiyyətlər, o cümlədən maliyyə, vergi və investisiya stimulları tələb edir. Belə olan halda şəhər rəhbərliyi yerli əhalinin rifahının yaxşılaşdırılması, sosial-iqtisadi, mədəni və s. problemlərin həlli yollarını təqdim edir (14)

XIX əsrdən etibarən plüralist demokratiya nəzəriyyəsinə dair irəli sürülmüş fikirlərə əsasən mərkəzləşdirilmə prosesi dövlət və yerli orqanlarda böyük önəm kəsb edirdi. Tədqiqat prosesini aparan elmi işçilər antimərkəzləşdirmə islahatına əsasən yerli idarəetmə orqanlarının vacibliyini bildirdilər. Tədqiqatçıların fikrincə ancaq yerli idarəetmə orqanları öz taleyini bərqərar edə bilirlər. Onların məqsədi yalnızca şəxsi azadlıqları və mənafelərini anlamaq üçün yardım göstərən siyasi əhəmiyyətli təşkilat yox, həmçinin fərdi kimliyini təsdiq edən vasitə qismində çıxış edirdilər. Yerli özünüidarə etmə orqanları demokratiklik yönündə inkişaf tempinə təsir göstərir və bu zaman modern dövrün tələblərinə cavab verən demokratiklik hökm sürür. Bu zaman istənilən azlığın özünü həyata keçirmə imkanları yaranır (Abdullayev, Həsənova, 2002:336).

Bu nəzəriyyələrin təhlilindən belə nəticəyə gəlmək olar ki, “azad icma” və “ümumi rifah dövləti” nəzəriyyələri şəhər hakimiyyət orqanlarının özünüidarəetmə hüququnun daha geniş şəkildə qəbul edilməsi baxımından ümumi nəzərdən keçirilməlidir. “Azad icma” nəzəriyyəsi mövcud yerli əhali ilə dövlət, o cümlədən müxtəlif etnik qruplar arasında birbaşa hakimiyyət bölgüsünə əsaslanan bir növ razılaşmanın nəticəsidir. Bu halda aşağıdan yuxarıya doğru yaradılması prosesi baş verir. “Ümumi rifah dövləti” nəzəriyyəsi vətəndaş cəmiyyətinin yaranması və onun mənşəyi, dili, dini, sosial və s. şəraitdən asılı olmayaraq hamı üçün bərabərliyə əsaslanan idarəetmə sistemi deməkdir(Yusifov, İsmayılov, Hüseyn :2016, 205).

XXI əsrdə meydana çıxan və Qərbi Avropada öz müqəddəratını təyinetmənin bərqərar olmasına bilavasitə təsir edən doktrinalardan biri də sosial xidmət nəzəriyyəsi idi. Nəzəriyyəyə görə, bələdiyyələrin qarşısında duran ən mühüm vəzifələrdən biri şəhərdə yaşayan insanlara yardım göstərməkdir. Şəhərin əsas məqsədi insanların həyatını yaxşılaşdırmağa kömək etməkdir. Yerli özünüidarəetmə təşkilatların bu funksiyanı səmərəli şəkildə yerinə yetirməsi üçün əsas tələb resursların və yüksək keyfiyyətli bacarıqların mövcudluğu, habelə adekvat dövlət dəstəyinin təmin edilməsidir.

Müasir ədəbiyyatda qeyd olunur ki, yerli özünüidarəetmə ərazi kollegiyalarına konkret məsələlərin həlli üçün öz maliyyə məhsullarından və resurslarından müstəqil istifadə etməyə imkan verən insan idarəçiliyinin formasıdır ki, bu da ərazi məclisi üzvlərinin ümumi mənafelərini qaydada və hüquqlarda əks etdirir .

Dövlət hakimiyyətinin fərqli qolu olan yerli özünüidarə müvafiq dualizmlərin vasitəsilə müəyyən olunur. Digər baxımdan hüquqi nöqteyi-nəzərdən yerli idarəetmə orqanları təyin olunmuş sahə üzrə baxış keçirərək, onun idarəolunması prosesini icra edirlər. Burada əsas missiyanı bu orqanların vəzifəli və aidiyatı şəxsləri, onlara təhkim olunmuş qəsəbələrə, kəndlərə, şəhərlərə hüquq çərçivəsində dövlət nəzarətini bilavasitə həyata keçirirlər. Yəni burada yerli idarəetmə orqanları dövlətin tabeliyində olmasa belə, dövlətin verdiyi səlahiyyətdən istifadə hüquqlarına malikdir.

Yerli özünü idarəetmənin dövlət nəzəriyyəsinin ilkin fikirlər alman hüquqşünasları Lourens Ştayn və Rudolf Qnayst tərəfindən formalaşmışdır. Sonralar nəzəriyyə inqilaba qədər bütün Rusiyaya yayıldı və görkəmli rus hüquqşünasları N.İ.Lazarevski, A.D.Qradovski, V.P.Bezabrazov tərəfindən işlənib hazırlanmışdır.

Əslində tarixi təcrübə göstərir ki, yerli özünüidarəetmənin müstəqilliyi onların nəzəri cəhətdən dövlət orqanları sisteminə daxil edilməməsi, dövlət orqanları qarşısında məsuliyyət daşıyıb hesabat verməməsi ilə deyil, bələdiyyələr üçün dövlət tərəfindən hakimiyyət səlahiyyətlərinin tanınması və onların öz funksiyalarını həyata keçirməsi üçün yetərincə maddi-maliyyə vəsaitlərinə malik olması ilə şərtlənir.

Bu nəzəriyyəyə görə, yerli idarəetmə bir növ yerli hökumət qurumudur. Bütün dövlət hakimiyyəti dövlətə məxsusdur və bu hakimiyyətin mənbəyi dövlət hakimiyyətidir. Bununla belə, mərkəzi hökumətdən fərqli olaraq, yerli idarəetmə orqanlarının özü dövlət məmurları tərəfindən deyil, hökumətdə xüsusi maraqları olan insanlar tərəfindən təyin olunan agentlər tərəfindən həyata keçirilir.

Dövlət nəzəriyyəsinə görə, muxtar təşkilatlar tərəfindən sərbəst şəkildə həll edilən yerli məsələlər hakimiyyət və onların mədəniyyət məsələlərindən heç bir fərqi yoxdur. Nəzəriyyəyə görə, bir sıra dövlət idarəçiliyinin yerli idarəetməyə verilməsində əsas məqsəd kompleks həllin həyata keçiril Bununla belə, qeyd etmək lazımdır ki, muxtariyyət doktrinasının məzmunu Avropa ölkələrində qanunların formalaşmasında mühüm rol oynamışdır və hazırda Avropa Yerli Özünüidarəetmə Xartiyasının çox hissəsi bu nəzəriyyəyə əsaslanır.

**Nəticə**

Bildiyimiz kimi bələdiyyələr siyasi baxımdan sistemləşdirilməsi o qədər də sürətli getməmişdir. Burada məsələ birtərəfli olmadığından, siyasi, sosial, iqtisadi və təşkilatçılıq amilləri də əsas yer tutur. Yerli idarəetmə və dövlət orqanlarını bütövlükdə təhlil etmək üçün nəzarət funksiyası qanunauyğun şəkildə təşkil olunur. Ədəbiyyatlarda onlar arasında baş vermiş sadaladığımız sferalar üzrə problemli məsələlər və onların həlli istiqamətləri barədə geniş şərh demək olar ki mövcud deyil. Çox vaxt bu problemlərə siyasi və sosialyönümlü baxılsa da, əfsuslar olsun ki baxış bucağı həmişə eyni olmur. Misal üçün yerli özünüidarə etmə orqanlarını nəzəri baxımdan ətraflı şəkildə analiz edən tədqiqat nümunələri yaxud üsulları yox səviyyəsindədir. Amma xarici ədəbiyyatlara nəzər salsaq görərik ki məlumat sayı və tədqiqat işi bu sferada olduqca yüksəkdir. Məhz çox vaxt bu səbəbdən müqayisəli təhlil apararaq məsələlərin həlli yolu təcrübi olaraq tapılır.

Çox vaxt yerli muxtariyyət tarixi keçmişdən, adət-ənənələrdən və sosial normalardan asılı olaraq ölkədən ölkəyə dəyişdiyi kimi, bu şərtləri nəzərə alan müxtəlif perspektivlər var. Azərbaycan Respublikasında həll yolu “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq insan hüquqları nəzəriyyəsi və dövlət siyasətinin prinsiplərindən ibarətdir.

Digər formada tətbiq edilən bütün nəzəriyyələr konkret siyasi məqsədlər üçün yaradılmış və inkişaf etdirilmiş, bəziləri isə cəmiyyətin tələblərinə cavab vermədiyi üçün elmi və şərti məzmundan məhrum olmuşdur. İnsan hüquq və əsas azadlıqlarının müdafiəsində nəzəri göstərişlərin düzgün seçilməsi və

müvafiq qanunvericilik bazasının yaradılması, dövlətçiliyin möhkəmləndirilməsi zərurəti ilə bütün sahələrdə həqiqi yerli özünüidarəetmə sisteminin yaradılması; səmərəli yerli özünüidarəyə əsaslanan regional siyasətin işlənib hazırlanmasında cəmiyyətdə bazar münasibətlərinin inkişafında mühüm əhəmiyyət kəsb edir

Xüsusilə yerli özünü idarəetmə və dövlət strukturlarında dövlət idarəçiliyi arasında aydın fərq qoymağa çalışan bütün nəzəriyyərlər eyni nəticəyə gəlməyə çalışır: yerli özünüidarəetmə orqanlarının dövlət strukturlarına münasibətdə öz müqəddəratını təyin etməyə zəmanət verən başqa bir əlamət olmalıdır.

**Ədəbiyyat**

1. Abdullayev, E, Həsənova S. (2002), Bələdiyyə hüququ, Bakı: Təhsil.
2. Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi.(2017), Yerli özünüidarə haqqinda avropa Xartiyası.
3. Azərbaycanda Yerli İdarəetmələr Və Yerli İdarəetmə Orqanlarının Maliyyə Strukturu.(2019) . Türkiyə : İqtisadiyyat, Biznes və Fiskal Tədqiqatlar Jurnalı, 1-ci cild, nömrə 3.
4. İbrahimov İ. (2014), Bələdiyyə idarəçiliyin beynəlxalq təcrübəsi, Bakı: Ziya.
5. İbrahimov, İ. (2018), Bələdiyyə idarəçiliyi, Bakı: Təbib.
6. Mərkəzi Hökumətlə Yerli Hökumətlər Arasında Tapşırıq Paylaşımı, İctimai Xidmətlərin Səmərəliliyi və Silifke Bələdiyyəsində Tətbiq.(2014), Karaman: Karamanoğlu Mehmetbey Universiteti Sosial Elmlər İnstitutu.
7. Ökmən, M., Elma F., (2013), Türk Dünyasında Yerli İdarələr. İstanbul: İmak Ofset.
8. Səlimzadə M.İ.(2010). Yerli özünüidarəetmə hakimiyyətinin əsasları: nəzəri və praktik məsələlər.Bakı: Elm və təhsil.
9. Səlimzadə M.İ., Xəlilov Q.R., (2010), YÖİ: anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsaslar. Bakı: "Elm və təhsil".
10. Torpaq, Z, (2014), Yerli İdarələr. İzmir: Doqquz Sentyabr Universiteti İqtisadiyyat və İdarəetmə Fakültəsi Dövlət İdarəçiliyi bölməsi.
11. Yusifov, S, İsmayılov V,Hüseyn A. (2016) , Yerli Özünüidarəetmə Hüquqi və Maliyyə Əsasları, Bakı: "Ləman nəşriyyat poliqrafiya".
12. https://repository.mruni.eu/bitstream/handle/007/16179/Kostytsky.pdf?sequence=1&isAllowed=y
13. https://www.researchgate.net/publication/270736615_The_Historical_Roots_of_Local_Self-Government_in_Czech_and_Slovak_Republics
14. https://www.elibrary.az/docs/jurnal/jrn2014_649.pdf

**Rəyçi: s.e.ü.f.d. Rəşad Məhərrəmov**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 23.05.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/132-138

**Çinarə Rəhim qızı Nərimanova**
Bakı Mühəndislik Universiteti
magistrant
chquliyeva@beu.edu.az
**Natiqə Rəhim qızı Süleymanlı**
Bakı Mühəndislik Universitet
magistrant
nsuleymanli@ beu.edu.az

# KİMYA TERMİNLƏRİNİN MƏİŞƏT ÜSLUBUNDA ƏKSİ

**Xülasə**

Gündəlik mənaları olan kimyəvi terminlərin öyrənilməsi elmdə həmişə maraq dairəsində olmuşdur. Buna görə də bu məqalə seçilmiş 10 sözün həm elmi həm gündəlik mənalarının işlənməsini araşdırır. Araşdırma aparılarkən kimya elmi ilə yeni tanış olanların bu sahədə qarşılaşdığı problemlər də göz önünə alınmışdır. Kimya ixtisasına aid bilikləri ingilis dilində mənimsəməyə çalışan 20 öyrənəndən seçilmiş sözlərin mənaları soruşulmuşdur. Araşdırma nəticəsində aydın olmuşdur ki bu öyrənənlərin çox qismi sözlərin yalnız onların həyatlarındakı təcrübələrinə əsaslananaraq öyrəndikləri gündəlik mənalarına yiyələniblər. Bu sorğu zamanı qarşıya çıxan ikimənalı sözlərin elmi mənalarının nadir işləndiyi və elmi lügətin düzgün anlaşılmadığı kimi problemler ortaya çıxaraq bu məqalənin işlənməsinə zəmin yaratmışdır. Elmi və gündəlik mənaları bir-birindən fərqlənən sözlərin öyrənilməsindəki və anlaşılmasındakı nəzəri prespektivlər bu məqalədə dərinlikləri ilə öz əksini tapmışdır. Bu iş kimya ixtisasında dilin elmi rolundakı əhəmiyyətinə yeni baxış gətirmişdir.

***Açar sözlər :*** *kimya, colloquial style, termin, elmi dil, öyrənən, məna*

**Chinara Rahim Narimanova**
**Natiga Rahim Suleymanli**

## Reflecting of chemcal terms in colloquial style

**Abstract**

It has always been interesting to learn the meanings of chemistry terms in science and in daily language. So this article searches the usage of chosen 10 words in science and in daily life. During the investigation while writing this article the problems which new chemistry learners have encountered were also taken into consideration and analyzed. 20 students learning chemistry in English were asked the meanings of these chosen words. As a result of research it was clear that most part of the learners acquired the daily meaning of these terms based on their experience in life. The challenges such as the infrequent use of DMV and misunderstanding of scientific vocabulary appeared and laid the groundwork for writing this article. Theoretical perspectives on the study and understanding of the words with different scientific and everyday meanings are deeply reflected in this article. This work has brought a new approach to the importance of a language in chemistry.

***Key words:*** *chemistry, daily language, science language, learners, meaning*

## Giriş

Bir elmi oyrənərkən onu öyrənən səxslər həmin elmin dilini də oyrənməyə məcbur olurlar.Bəzi alimlər qeyd edirlər ki hər hansi elmi mənimsəməkdə onun yazıldığı dili bilmək tələbələrə kömək ətməklə yanaşı eyni zamanda tələbələrə çətinlik də yaradır. İngilis dilində kimya ixtisasına yiyələnmək istəyən tələbə və ya şagirdlər bir çox kimyəvi terminləri gündəlik danışıq dilindəki mənalarına ayğun olaraq istifadə etmək istəyirlər. Bu zaman həmin terminlərin əhatə olunduğu mövzunun mənimsənilməsində böyük problemlərlə qarşı qarşıya gəlinir. Həmin terminlərin gündəlik danışıq dilindəki mənaları ilə ayırd edilməməsi həm də onların gündəlik danışıq dilində oxşar mənalarda istifadə olunan lakin kimyəvi terminologiyada tamami ilə fərqli təriflərə və izaha malik olan sözlərin də

bir biriylə oxşar olduğunu düşünməyə gətirib çıxarır. Kimya sahəsində Qabel iddia edirdi ki tələbələrin kimya elmininin öyrənilmsi zamanı rastlaşdıqları problemlər mövzunun özündən çox kimyanın linquistik ifadə üsuluna bağlıdır (1, 213). Lüğətin öyrənilməsi elmin mənimsənilməsində qarşıya çıxan çətinliklər arasındadır. Belə ki tələbələr mütəmadi olaraq öz bacarıqlarından daha artığını öyrənmək məcburiyyətində qalırlar. Orta hesabla elm öyrənən tələbələr dil öyrənən tələbələrdən daha çox söz öyrənmiş olurlar. Tələbərə cətinlik yaradan məsələlərdən biri də bəzi sözlərin ikili məna daşımasıdır. Hansı ki bu cür sözlər (İMS) həm elmi məna daşıyır həm də gündəlik danışıq dilində işlənir. Həmin sözlər bir konteksdə ümumi məna, başqa bir konteksdə isə tamamilə fərqli elmi məna daşıyır. Aparılan araşdırmalara əsasən şagirdlər öyrəndikləri sözləri kimya sahəsində işlədərkən mücərrəd, çətin və tanış olmayan kimyəvi mənalarından daha çox danışıq dilində tanış olduqları mənanı seçməyə üstünlük verirlər.

İMS sözləri ilə aparılan son araşdırmalar göstərir ki tələbələr sözlərin danışıq mənasını müəyyən edə bildikləri halda sözlərin gündəlik mənası ilə elmi mənasını ayırd ətməkdə çətinlik çəkirlər. Ona görə də onların bu sözləri sinif otaqlarına gətirməsi onların öyrənməyinə mane olur (2, 245). IMSin yeni elmi mənalarının tətbiqinin tələbələr üçün niyə çətin olduğunu, sözlərin nə dərəcədə elmiliyini qorumağını və ya gündəlik danışıqda işlənən sözlərin kimya anlayışlarının öyrənilməsindəki təsirini araşdrmaq kimyanın öyrədilməsində dəyərli geniş imkanlar yaradır. Sözlərin elmiliyinin saxlanılması sözün hərfi mənasinin öyrənilməsi demək dəyil, sözün mənasını anlamaqdır. Sözlərin şifahi şəkildə mənalarının öyrənilməsi elmi ixtisas dilində elmi çalışmaların həllində tələbələrə faydalı olmaya bilər. Ona görə də tələbələr İMSin elmi mənalarının işlənməsini və onları anlamanı hər hansi bir elmi kontəksdə özlərinə uyğunlaşdırmalıdırlar (3,150).

Bu iş univərsitət tələbələri arasında kimya sahəsində mövcud olan İMSin araşdırılmasına böyük töhvə verir. Məqalədə seçilən sözlər (heat, energy, reaction, mass, solution, reduction, base, dense, temperature, work) tədris prosəsində tələbələrin qarşılaşdığı və çətinlik çəkdiyi sözlər siyahısından seçilmişdir. Tələbələr arasında keçirilən sorğuya əsasən İMS sözlərin mənimsənilməsində tələbələri 3 kateqoriyaya uyğun müəyyənləşdirmişmək olar.

1)Sözlərin yalnız gündəlik danışıq zamanı istifadə olunan mənalarını bilən tələbələr. Bu qrup sorğuda iştirak edənlərin 45% ni təşkil edir.

2)Sözlərin yalnız kimya sahəsində işlənən mənasını bilən tələbələr. Bu qrup sorğuda iştirak edənlərin 20% ni təşkil edir.

3)Sözlərin hər iki mənasını bilənlər (gündəlik danışıq və elmi mənası) . Bu qrup sorğuda iştirak edənlərin 35% ni təşkil edir.

Tələbədən sözün mənasını soruşduqda o ilk bildiyi sözü ifadə edirdi. Məsələn, "temperature" sözünü soruşduqda bir qisim tələbə bədən temperauturu dediyi halda digər bir qismi isə havanın temperaturu cavablarını verirdilər. Yenidən onlardan bu sözün elmdə hansı mənaya gəldiyini soruşduqda isə heç bir cavab deyə bilmədilər. Çünki onlar bu sözün elmi mənasını anlayışlar lüğətini oxumadan bilə bilməzlər. Deməli onlar artıq bu sözün elmi mənasını ayrıca öyrənməlidirlər.

Tələbədən "solution" sözünü soruşduqda onlar hər hansı problemin və ya riyaziyyatda hər hansı misal, məsələ, və ya tənliyin həllini düşünürlər. Lakin elmi öyrənənlər isə onun elmi mənasını da mənimsəyir.

Başqa nümunəyə baxanda da əks mənzərə ilə rastlaşmaq olar. Belə ki, tələbələr "dense" sözünün danışıq dilindəki mənasından daha çox elmi mənasını öyrəniblər. Bu araşdırmanı aparmadan öncə tələbələrin bu cür sözlərin daha çox elmi yoxsa danışıq mənalarını bildiklərini müəyyən etmək çətin olsa da bu cür sorğulardan sonra aydın olur ki, tələbələrin bir qismi sözlərin elmi mənalarını yanlış anlayıblar. Maraqlısı budur ki, bəzi tələbələr sözlərin elmi mənasını bilməsə də onları öyrənməkdə çətinlik çəkmirlər.

Bu şəkildə tələbələrdən ayrı ayrılıqda hər bir sözün elmi və gündəlik mənaları soruşularaq araşdırılmışdır. Bununla yanaşı bu məqaləni yazarkən tələbələrin İMSi öyrənərkən qarşılaşdığı problemlər də ön plana çəkilmişdir. İngilis dilini xarici dil kimi öyrənənlər dili yalnız sinif otağında öyrənir və onu sinif otağından başqa mühitdə işlətmədiyi üçün onlara ingilis dilini mənimsəmək üçün xeyli zaman lazım olur. Bu problem özünü elmi öyrənənlər arasında da göstərir. Eyni zamanda dərs zamanı bir terminin öyrənilməsinə ayrılan zamanın kifayət qədər olmaması onlarda bu sözlərin

öyrənilməsində marağı azaldır. Lakin bəzi tələbələr o sözləri bildikləri başqa sözlərə uyğunlaşdıraraq həmin sözlərin yadda qalmasını asanlaşdırırlar. Bəzən bir sözü öyrəndikdən sonra digər sözü ona uyğunlaşdıranda yanlış məna ortaya çıxır və tələbələr də yanlış öyrənmiş olurlar. Bundan başqa qarşıya çıxan problemlerdən biri də budur ki, tələbələrin elmi bazası zəngin olmadığı üçün onlar İMSin elmi mənalarını tam öyrənə bilmirlər. Bir qisim tələbələr də vardır ki, onlar elmi sözləri yalnız imtahan üçün öyrəndikləri üçün tez unudurlar. Hətta tələbələrin bir çoxu imtahana düşməyəcək sözləri ümümiyyətlə öyrənmirlər.

Bu məqaləni yazarkən bir neçə ingilis - azərbaycan, ingilis- ingilis və bəzi kimya lüğətindən istifadə edimişdir. Bu lüğətlərə əsasən bəzi sözlərin bir neçə mənası araşdırılıb. Həm də o sözlərin işlənmə yerini göstərmək üçün bəzi nümunə cümlə və ya ifadələr də verilib.

***Heat*** /hi:t/- ılıq və ya isti olma halı, nəyinsə temperaturu, istilik dərəcəsi. How do you manage to work in this heat without air conditioning? Bu istidə kondisionersiz necə işləyə bilirsiz? Turn the stove down to a low heat. Sobanı aşağı dərəcəyə çevir.

- finalda kimin yarışacağına qərar vermək üçün keçirilən kiçik əhəmiyyətli yarış
- binanı isti saxlayan sistem . The heat has not been on yet in our building. Bizim binada istilik sistemi hələ qoşulmayıb (4,100).
- nəyisə isitmək, qızdırmaq . Bu mənası fel kimi işlənir. I always heat the water before giving it to my newborn child. Mən yeni doğulmuş uşağıma suyu hər dəfə isidib verirəm (5, 120).
- yüksək emosional vəziyyət, xüsusən həyəcan və əsəb halı.. You cannot think what to say in the heat of the moment. Sən gərgin və əsəbi olan dəqiqədə nə dediyini düşünə bilmirsən.
- isti hava. The heat in the city last year was not tolerable. Şəhərdəki keçən ilki isitilik dözülməz idi.
- ağızda yanma hissi yaradan ədviyyatın dadı. Chilly spice gives heat to soup which makes it more delicious (6, 112). Acı ədviyyat supa acılıq qatır və bu supu daha dadlı edir.
- nəyisə əldə etmək üçün bir şəxsin üzərinə düşən məsuliyyət və təzyiq. Now there is heat at university because of the exams. İndi universitetdə imtahanlara görə istilik var.

***Istilik***- Termodinamikada istilik anlayışı enerjinin bir sərhəddən başqasına nəqli kimi başa düşülür. İstilik dedikdə çox vaxt temperatur ilə səhv salınan mənalar başa düşülür. İstilik bir sərhəddən və ya bir madddədən başqasına keçdikdə hər zaman temperatur dəyişikliyi ilə müşaidə olunmur. (1, s. 43) İstiliyin enerji şəlində ötürülməsi maddənin halının dəyişməsi ilə də nəticələnir. Məsələn mayenin buxar halına keçməsi istiliyin enerji şəklində ötürülməsi ilə maddənin halının dəyişməsinə sübutdur. Fiziki kimyada termodinamika bölməsi istilik haqqında biliklərə yiyələnmək üçün elmi xarakterli məlumatlarla zəngindir. Termodinamikada istilik q (Q) hərfi ilə işarə olunur. Vahidi C/K (Coul/Kelvin) olaraq bilinir. Sistem üçün istiliyi xarakterizə etsək məsələn, q= -100 C yazsaq, bu o deməkdir ki 100 C enerji istilik şəklində sistemi tərk edir.

***Energy /'enədʒi/***- fiziki və əqli cəhətdən aktiv olmaq gücü və bacarığı. I do not have any energy to solve family problems any more (6, 82). Ailə məsələlərini həll etmək üçün daha *gücüm yoxdur.*

- fiziki və ya zehni fəaliyyət, iş üçün tələb olunan güc, səy və həvəs. It is good that she has still energy to work at the school although there is injustice here.
- işıq və istilik yaradaraq iş görə bilən elektrikdən və yanacaqdan alınan güc.

Külək enerjisi, günəş enerjisi, enerjiyə qənaət etmək, enerji istehlak etmək, enerji istehsal etmək, enerji t əminatı, enerji təchizatı, enerji xərcləri (5, 95).

**Enerji-** Iş görmək qabiliyyətidir. Enerji bədəndə iş görmək və ya onu qızdırmaq üçün bədənə və ya fiziki sistemə ötürülməli olan kəmiyyət xüsusiyyətidir. Eyni zamanda deyə bilərik ki, materiyanın hərəkət miqdarı meyarını təyin edən kəmiyyət də enerjidir. (2, s. 36). Enerji potensial, kinetik, istilik, elektrik, kimyəvi, nüvə və ya digər müxtəlif formalarda mövcud ola bilər. Enerji U hərfi ilə xarakterizə olunur və vahidi Coul-dur. Enerjinin bir növdən digərinə çevrilməsi təcrübi fiziki qanundur. Buna əsasən enerjinin saxlanması qanunları tərtib olunub termodinamikada işlənmişdir. Termodinamika fiziki kimyanın enerjinin bilavasitə istiliyin işə çevrilməsini və ya əksinə çevrilmələri öyrənən qoludur.

**Temperature** /ˈtem.Prə.Tʃə**r**/-bir yerin və ya əşyanın nə qədər isti, soyuq olduğunun dərəcələrlə ölçülməsi, yüksək, aşağı temperatur. Nakhchivan is the city with the lowest temperature in winter and the highest temperature in summer. Naxçıvan şəhəri qışda ən aşağı, yayda isə ən yüksək temperatur olan şəhərdir (5, 595).

- insan bədəninin istilik dərəcəsi . Covid 19 is the disease with undesecending temperature. Kovid 19 düşməy ən qızdırma ilə müşayiət olunan xəstəlikdir.
- hansısa vəziyyətdə emosiyalar, hisslər. The temperature of the debate increased as the opponents supported their arguments. Debat rəqiblər öz arqumentlərini əsaslandırdıqca daha da qızışdı.

**Temperatur-** bir maddə və ya obyektdə mövcud olan istiliyin dərəcəsi və ya intensivliyi, xüsusən müqayisəli miqyasda ifadə edilən və termometrlə və ya toxunma ilə müəyyən olunan kəmiyyətdir. Temperatur qızma dərəcəsini təyin edən parametrdir. Başqa sözlə deyə bilərik ki temperatur istilik şəklində olan enerjinin istiqamətini göstərir. Buna görə də temperaturu termodinamikada ümumi anlayış olaraq istilik tarazlığı və ya termodinamik tarazlıq vasitəsilə xarakterizə edirlər. Temperaturun beynəlxalq sistemdə vahidi Kelvin (K)-dir. Məişətdə və daha geniş istifadə olunan vahidi isə Selsi(°C) olaraq bilinir. Temperaturu təyin etmək üçün mütləq təmas lazımdır. Bununla da enerji istilik şəklində isti cisimdən soyuq cismə ötürülür. İstilik axınına səbəb olan hərəkətverici qüvvə temperatur fərqidir. (3, s. 16). Bu axının istiqaməti isə temperatur olaraq bilinir.

**Enerji-** Iş görmək qabiliyyətidir. Enerji bədəndə iş görmək və ya onu qızdırmaq üçün bədənə və ya fiziki sistemə ötürülməli olan kəmiyyət xüsusiyyətidir. Eyni zamanda deyə bilərik ki, Materiyanın hərəkət miqdarı meyarını təyin edən kəmiyyət enerjidir (2, s. 36). O, potensial, kinetik, istilik, elektrik, kimyəvi, nüvə və ya digər müxtəlif formalarda mövcud ola bilər. Enerji U hərfi ilə xarakterizə olunur və vahidi Coul-dur. Enerjinin bir növdən digərinə çevrilməsi təcrübi fiziki qanundur. Buna əsasən enerjinin saxlanması qanunları tərtib olunub termodinamikada işlənmişdir. Termodinamika fiziki kimyanın enerjinin bilavasitə istiliyin işə çevrilməsini və ya əksinə çevrilmələri öyrənən qoludur.

**Solution/səˈluːʃn/-** hər hansı problemin həlli. The solution of this problem requires a lot of time. Bu problemi həll etmək üçün çox vaxt lazımdır.

- məsələnin həlli, cavab. When you put the letters in the correct order you will find a solution. Hərfləri düzgün sıra ilə yazsan sən düzgün cavabı tapacaqsan.

**Məhlul-** iki və ya daha artıq komponentlərdən təşkil olunmuş birfazalı sistemdir. Yalnız bir birində həll olan zaman həmcinsli qarışıq əmələ gətirən sistemlər həqiqi məhlullar adlanır. Məhlul özlüyündə iki komponentdən ibarət olur. Həlledici və həll olan maddə. Bu iki komponent bir birindən miqdarlarına görə fərqlənir. Miqdarı daha çox olan komponent həlledici daha az olan komponent isə həll olan maddədir. Məsələn su və spirtin qarşısında su çox miqdarda olarsa bu zaman su həll edici olar. Spirt suda həll olar. Spirt miqdarca çox olduqda isə həll edici spirt olar və həll olan maddə su olacaqdır. Məhlullar kimyada nəzəri və praktiki olaraq çox böyük əhəmiyyət kəsb edən mövzudur.

**Work /Wɜːk/-** bir insanın sahib olduğu peşə, sənət. The payment in this work will be increased as the result of strike. Bu işdə maaş üsyandan sonra artırılacaq.

- insanın işini gördüyü yer. Nowadays people do their business partly at home or at work depending pandemic (5, 95). Bu günlərdə insanlar pandemiya olduğu üçün həm evdən həm işdən çalışırlar.
- görüləcək işlər, fəaliyyət. All necessary work must be done till the end of this year. Bütün vacib işlər il sonuna kimi görülməlidir.
- incəsənət adamının yaradıcılığı, yaratdığı əsər. This painting is considered one of the most popular works of the artist. Bu rəsm əsəri rəssamın ən məşhur əsərlərindən biridir.
- nəyisə hazırlamaq üçün istifadə olunan iş, güc. As a consequence of hard work, the students got high marks from all exams. Gərgin çalışma nəticəsində tələbələr bütün imtahanlardan yüksək qiymət aldılar.
- hər hansı fəaliyyət nəticəsində ortaya çıxan iş. Workers should be motivated to produce good work. Yaxşı iş əldə etmək üçün işçilər motivasiya edilməlidirlər.
- elmi araşdırma. The name of this work is compared with other works written earlier.

Onun məqaləsinin adı əvvəlki işlərlə müqayisə olunur.

- əmək, əziyyət . This magnificient building is the work of a good architect. Bu möhtəşəm bina yaxşı memarın əziyyətinin nəticəsidir.
- kiminsə görünüşünü dəyişmək üçün edilən cərrahi əməliyyat. Although some people do cosmetic surgery they do not admit what kind of work has been done on them. Bəzi insanlar estetik əməliyyat etdirsələr də, üzlərində hansı prosedurun görüldüyünü etiraf etmirlər (4.283). Bəzi insanlar estetik əməliyyat etdirsələr də, onun nə olduğunu etiraf etmirlər.
- pul qazanmaq üçün işləmək. When you want to work anywhere, firstly they ask your experience but sometimes it is meaningless to ask it to a new graduate. Hardasa işləmək istəyəndə yeni məzun olmuş şəxsdən təcrübənin soruşulması mənasızdır.
- hər hansı aparatın çalışması, işləməsi. Since my phone has not been working, I cannot contact with my friends. Telefonum işləmədiyi üçün dostlarımla elaqə saxlaya bilmirəm.Our smart Tv is not working so we must have it repaired. Bizim televizor işləmədiyi üçün onu təmir etdirməliyik.

**İş** – Cismə əks qüvvə F təsir edən müddətdə cismi d məsafəsinə qədər hərəkət etdirmək üçün tələb olunan enerjidir. İş bir qüvvəyə qarşı bir şeyi hərəkət etdirmək üçün tələb olunan enerjidir. Bir sistemin enerjisi iş və istilik kimi digər enerji ötürülməsi formalarına görə dəyişə bilər. Tutaq ki, cisim x istiqamətində sonsuz kiçik yerdəyişmə dx keçirərkən cismə F qüvvəsi təsir edir. Cism üzərində görülən sonsuz kiçik iş miqdarı F qüvvəsi kimi müəyyən edilir (4, s. 39). Belə də deyə bilərik ki iş, enerjinin makroskopik ötürülmə forması olub xarici parametrlərin dəyişməsi ilə əlaqədardır. İş enerjinin sistemə daxil olması və ya onu tərk etməsinin əsas yollarından biridir və onun vahidi Couldur(C). Və w hərfi ilə işarə olunur. Bir sistem iş gördükdə, sistemin daxili enerjisi azalır.

**Reaction /Riˈækʃn/ -** baş vermiş nəyinsə nəticəsində deyilən söz , davranış və ya hərəkət . Reactions to one event may be different depending on people. İnsanların hər hansı bir hadisəyə reaksiyası fərqli ola bilər.

- xüsusi yeməklərə və dərmana qarşı reaksiya. My little daughter has allergic reaction to nuts. Mənim balaca qızımın qoza alergiyası var.
- bəyənilmədiyinə görə insanların davranışında yaranan dəyişiklik. Her rebellious action was just reaction against her parents' divorce. Onun üsyankar davranışı valideynlərinin boşanmalarına qarşı olan reaksiyasıdır.

**Reaksiya-** Kimyəvi dəyişiklik və ya kimyəvi reaksiya zamanı bir və ya bir neçə növ maddə müxtəlif tərkibli yeni növ maddəyə çevrilir ( 5, s. 5). Maddənin tərkib və xassələrinin dəyişməsi ilə baş verən hadisəyə kimyəvi reaksiyalar deyilir. Kimyəvi reaksiyada, bir və ya bir neçə maddə, reaktivlər bir və ya bir neçə fərqli maddəyə, məhsula çevrilir. Bu maddələr ya kimyəvi elementlər, ya da birləşmələrdir. Kimyəvi reaksiya reaktivlərinin tərkib atomları reaksiya məhsulu kimi müxtəlif maddələr yaratmaq üçün yenidən təşkil olunur. Kimyəvi reaksiyaların baş verməsi üçün reaksiyaya daxil olan maddələr yani reagentlər bir-biri ilə təmasda olmalıdır. Kimyəvi reaksiyanın gedişi əmsallar və formullar vasitəsilə şərti olaraq göstərilir.

**Mass /Mæs/-** xüsusi forması olmayan maddə yığını. I saw a black mass over the mountain. Dağların üzərində qara kütlə gördüm.

- kütləvi, məhşur. mass media
- səliqəsiz əşyalar və insanlar toplusu. The essay contains a mass of words. İnşa səliqəsiz sözlər toplusundan ibarətdir.
- çoxlu, çoxluq. The main streets were full of masses of people. Əsas küçələr çoxlu insanlarla doludur.
- nəyinsə çəkisi, kütləsi. Mass of one potato is 80mgr.1 kartofun çəkisi 80qramdır.
- cəmiyyəti təşkil edən sadə insanlar toplusu. İt is difficult to win the support of the mass. Sadə kütlənin dəstəyini qazanmaq çətindir.
- cəmləşdirmək, çoxluğu bir arada toplamaq. Thousands of soldiers have massed to

the square to hold the parade devoted to the Victory of the 2nd Karabagh War. 2 ci Qarabağ müharibəsinin qələbəsinə həsr olunmuş parad nümayiş etdirmək üçün minlərlə əsgər meydana toplaşmışdır.

Məqalə ingilis dilində omonimlərin struktur-semantik xüsusiyyətlərinin öyrənilməsindən bəhs edir. Bu məqalədə omonimlik anlayışı verilir və omonimlərin təsnifatı, omonimlərin yaranmasının əsas səbəbləri, ingilis dilində omonimiyin xüsusiyyətləri nəzərdən keçirilir. Təhlil əsasında belə qənaət əldə edilir ki, omonimiya hadisəsi ingilis dilində kifayət qədər tez-tez rast gəlinən və çətin bir hadisədir və omonimlər də istənilən dili zənginləşdirə və bəzəyə bilir, belə tələffüz əsasında sözlərdən çoxlu sayda söz birləşmələri yaratmağa imkan verir.
***Açar sözlər:*** *omonimlik, dilçilik, lüğət tərkibi, terminlər, söz formaları*

**Aynur Humay Bayramlı**

## Structural semantic features of homonyms in English

**Abstract**

The article deals with the study of structural- semantic features of homonyms in the English language. This article gives the concept of homonymy and considers the classification of homonyms, the main reasons for the appearance of homonyms, the features of homonymy in the English language . Based on the analysis, it is concluded that the phenomenon of homonymy is a fairly frequent and difficult phenomenon in the English language, and homonyms are also able to enrich and decorate any language, allow you to create a large number of puns based on such pronunciation of words.
***Key words*:** *homonymy, linguistics, vocabulary, terms, word forms*

## Giriş

Müasir ingilis dilində omonimlik hadisəsi geniş şəkildə işlənib. Bu fenomen bir çox dilçiləri onun problemlərini öyrənməyə və ingilis dilində omonimləri təsnif etməyə cəlb edir. Lakin, omonimliyin tədqiqinin uzun müddət davam etməsinə baxmayaraq, hələ də omonimlərin ümumi qəbul edilmiş tərifi, bu sahədə müəyyən edilmiş terminologiya yoxdur. Bu işin aktuallığı bir neçə məqama səbəb olur. Yeni omonim mənaların meydana çıxması müasir ingilis dilinin, xüsusən də onun danışıq qatında inkişafının əsas tendensiyalarından biridir ki, bu da öz növbəsində müasir informasiya texnologiyalarının inkişafı və canlı nitqin sadələşdirilməsi ilə dəstəklənir. İşimizin əhəmiyyətini aşağıdakı bu səbəblərlə sübut etmək olar:

a) Sözlərin omonimlərinin öyrənilməsi hal-hazırda lesikologiyanın inkişaf edən sahələrindən biridir.

b) Omonimlər dilin sadələşdirilməsinin ümumi tendensiyasını əks etdirir.

c) Omonimlərin mənaları müasir informasiya texnologiyalarının inkişafı ilə sıx bağlıdır.

d) Omonimlərin tədqiqi və polisemantik sözlərlə differensiyası hələ də kifayət qədər araşdırılmır və bu problem hələ də öz tədqiqatçısını gözləyir. Bu məqalə bu problemi nisbətən araşdırmaq üçün cəhddir.

Səs və yazılış baxımından eyni olan, lakin məna, yayılma və mənşəcə fərqli iki və ya daha çox sözlər *omonimlər* adlanır. Termin yunan omonimindən (homos 'eyni' və onoma 'ad') əmələ gəlmişdir və beləliklə, məna fərqi ilə birlikdə adın eyniliyini çox yaxşı ifadə edir (Abayev,1981:183). Səs formasında eyni , lakin mənaca başqa olan sözlər ənənəvi olaraq omonimlər adlandırılır (Smirnitsky,1977:39). Dil formasının dərk edilməsi prosesində omonimliyin dilçilərin müxtəlif fikirlərinə əsaslanan tərifləri mövcuddur.

Dil mürəkkəb sistemdir, ona görə də bu əlaqə heç bir təbii dildə həyata keçirilmir. İ.V. Arnold qeyd edir ki, bir neçə əlaqəli məna eyni nitq hissəsi daxilində eyni səs qrupu ilə əlaqələndikdə, sözlər bir-biri

ilə mənalara görə yox, bir forma ilə əlaqəli olduqda polisemantik adlanır - belə ifadələr omonimlər adlanır (Arnold, 1959: 182). Omonimlər lap qədimdən dilçilərin diqqətini cəlb etmişdir. V.V. Vinoqradov qeyd edir ki, omonimlik probleminə "linqvistik tədqiqatın müxtəlif sahələrindən geniş çeşidli linqvistik anlayışlarda böyük əhəmiyyət verilir" (Vinogradov, 1977: 3).nO, belə bir fikri ifadə edir ki, omonimliyə olan diqqət dil universalisi olmaqla omonimliyin dilin səviyyələri üçün xarakterik olması və onda mövcud olan sistem münasibətlərini əks etdirməsi ilə bağlıdır (Vinogradov,1977: 18).

Omonimlik bir çox dillərdə mövcuddur, lakin ingilis dilində bu, birhecalı sözlər arasında xüsusilə tez-tez baş verir. Oksford İngilis Lüğətində verilmiş 2540 omonim siyahısında 89% birhecalı sözlər və yalnız 9,1% iki hecalı sözlərdir. Morfoloji quruluşuna görə daha çox birmorfemli sözlərdir. Bir çox sözlər, xüsusən də yüksək tezlik dərəcəsi ilə səciyyələnən sözlər bir-birilə məna cəhətdən əlaqəli deyil. Əksinə, bir simvol, bir qayda olaraq bir neçə fərqli məna verməyə xidmət edir. Bu fenomenin bir neçə simvolun bir mənaya uyğun gəldiyi sinonimliyin əksi olduğu hesab edilir (Akhmanova, 1972: 63).

Gənc filoloqun ensiklopedik lüğətində qeyd edildiyi kimi, "hesab olunur ki, omonimiya linqvistik ünsiyyətdə, insanların bir-birini başa düşməsində əngəl törədir (Canon, 1986:275).

Doğrudan da, *can-can və ya knows - nose* sözlərinə rast gəldikdə biz başa düşə bilmərik ki, söhbət konserv qutusundan, yoxsa can-modal feildən gedir, knows-"bilmək" və ya "nose" Azərbaycan dilinə tərcüməsi olan bir isimdən burundan gedir". Həmçinin nitqdəki ifadələr az hallarda tək-tək istifadə olunur – və digərlərilə birlikdə kontekst təşkil edirlər. Kontekstdən hansı mənanın işləndiyini anlamaq daha asandır: *He left the house to his son. O, evi oğluna buraxdı. (Evi oğluna qoyub.) The house on the left belongs to my aunt. Soldakı ev xalamındır. (Soldakı ev xalamındır.)*

Tələbələr danışarkən və daha çox öz ana dilində oxuyarkən, nə qədər omonimlərin istifadəsinə diqqət yetirsələr də, xarici dil öyrənərkən eyni dil formasının fərqli ola biləcəyinə rast gəldikdə mənanı dərk edərkən bir o qədər onlar çətinliklərlə üzləşir.

Şifahi nitqin müəyyən dərəcədə anlaşılmaması problemi ilə qarşılaşdıqda, biz tez-tez özümüzə sual veririk ki, nə baş verir? Söz ehtiyatı yaxşıdır, qrammatikanı bilirik, amma nədənsə təhlükənin nə olduğunu başa düşmürük. Belə bir fərziyyə yaranır ki, bu problemin mənbəyi fenomen ola bilər - omonimlər, ingiliscə (homonyms), yəni omofonlar (homofons) və omoqraflar (homographs). Omonimlik sözlərin, ümumilikdə isə müxtəlif məna daşıyan işarələrin, səs birləşmələrinin və söz birləşmələrinin qrafik, eyni zamanda fonetik üst-üstə düşməsidir. Omonimlər tələffüzü və yazılışı eyni olan (yaxud bu cəhətlərdən birində eyni olan), lakin mənalarına görə fərqlənən sözlərdir, məsələn:

*1. bank - sahil;*
*2. bank- bank( əmanət saxlanılan yer)*
*3.top –zirvə*
*4. top – uc,üst* (Dubenets, 2004:20).

İngilis dilinin lüğət tərkibi bu cür cütlərlə, eləcə də söz qrupları ilə zəngindir. Əsasən, sözlər təsadüf nəticəsində omonimləşir: omonimlərin əsas hissəsi bu sözlərin tarixi fonetik inkişafı ilə əlaqədar yazılış və tələffüzü (yaxud hər iki cəhəti) ilə üst-üstə düşür. Ünsiyyət prosesində omonimlərdən istifadə bir-birini anlamaqda bir sıra çətinliklər yarada bilər

Omonimlər aşağıdakı mənbələrə malikdir:

a) sözlərin inkişafı zamanı məruz qaldığı fonetik dəyişikliklər. Bu prosesin nəticəsində əvvəllər başqa cür tələffüz edilən sözlər eyni səs formalarını inkişaf etdirə və beləliklə omonimləşə bilər (məsələn, ikinci sözdəki ilk k hərfi tələffüz edildiyi üçün köhnə ingilis dilində *night-gecə və knight-cəngavər* omonim deyildi, OE. kniht (müq. OE nihi). Daha mürəkkəb forma dəyişikliyi başqa bir cüt omonimləri bir araya gətirdi: *to knead -yoğurmaq (OE cnēdan) və to need-ehtiyac duymaq (OE nēodian)* (gnatieva, 2018: 14).

b) qrammatik omonimlərin meydana gəlməsinə səbəb olan konversiya (məsələn, *iron-dəmir →to iron- ütüləmək, work- iş→to work- işləmək və* s.); c) qısalma omonimlərin sayını artıran digər bir söz quruculuğu növüdür (məsələn, *fan-fanat*, n. "bir növ idmanın və ya aktyorun, həvəsli pərəstişkarı" mənasında fanatik sözündən yaranan qısaltmadır. Onun omonimi Latın dilindən götürülmüş fan sözüdür ki, bu da sərin hava axını yaratmaq məqsədilə yüngülcə yelləmək üçün alət deməkdir. Bir növ parça bildirən *rep* ismin üç omoniminə malikdir: *repertory -rep, n., representative-nümayəndə - rep, n., reputation-reputasiya -rep, n.);*

d) alınmalar omonimlərin başqa bir yaranma səbəbidir. Alınmış söz fonetik uyğunlaşmasının son mərhələsində ya doğma söz, ya da başqa alınma şəklində dublikat ola bilər ( *ritus lat. → rite n. – write-yazmaq v. – right-sağ sifət; pais OFr - piece-parça, n. – pettia OFr –peace- sülh n.);*

e) səs təqlidi ilə yaranan sözlər digər sözlərlə də omonim cütləri yarada bilər (məsələn, *bang, n. "a bang- yüksək, ani" - bang, n. "alın üzərində daranmış saç saçağı"; mew, n. . "pişiy miyoldaması" – mew, n. "a sea gul" – mew, n. "toyuqları kökəltmək üçün yer" – mews "Londonun mərkəzində balaca terraslı evlər* Mənşəyinə görə omonimlər həm *tarixi* , *həm də etimoloji* olaraq bölünür. *Tarixi omonimlər* çoxmənalılığın parçalanması nəticəsində yarananlardır; onda bir çoxmənalı söz iki və ya daha çox sözə bölünəcək ( *to bear- dözmək (терпіти) – to bear-əynində olmaq (народити); pupil (учень-şagird) – pupil(зіниця)). Etimoloji omonimlər* müxtəlif mənşəli sözlərdir ki, onlar səs və ya imla cəhətdən bir-birinə bənzəyir ( həm yazılıb, həm də eyni şəkildə səsləndirilə bilər).

Fərqləndirici xüsusiyyətinə görə omonimlər aşağıdakılar kimi təsnif olunur:

a) Eyni nitq hissəsinə mənsub, lakin leksik mənaca fərqlənən: *seal(möhür) – to seal (plomblamaq, möhür vurmaq);*

b) leksik və qrammatik mənalarına görə fərqli olan leksiko-qrammatik: *rose (qalxmaq feilinin keçmiş zamanı) – rose (роза);*

c) bir sözün qrammatik cəhətdən fərqli formaları: *boys-oğlanlar –boy's- oğlanın – boys'-oğlanların.*

A.İ.Smirnitski omonimləri iki sinfə ayırır: tam və natamam omonimlər.

Tam omonimlər bütün formalarına görə eynilik təşkil edən sözlərdir: bu tam omonimdir: *bank (bank) – bank (çay, göl sahili*). Natamam omonimlər bəzi formalarına görə eynilik təşkil edir (bu tip omonimiya müxtəlif leksiko-qrammatik siniflərə aid olan sözlərə xasdır): *seal (möhür) – to seal (möhürləmək)* (Smirnitsky,1977: 89-90).

Yuxarıda qeyd etdiyimiz kimi, formasına uyğun olaraq omonimlər omofonlara, omoqraflara və mütləq omonimlərə bölünür. Omofonlar, adlarından göründüyü kimi, eyni səs formasına malikdirlər, lakin yalnız semantik baxımdan deyil, həm də qrafik baxımdan fərqlənirlər (məsələn, *night (gecə) - knight (cəngavər), piece (parça) - peace (sülh), scent (aroma) - sent (sent) - göndərilmiş (göndərmək)* və s. Homoqraflar, əksinə, qrafik olaraq üst-üstə düşür, lakin fərqli oxunur (məsələn, *bow- (əyilmək-bau), bow - yay [bou] , lead [li: d] (aparıcı) - lead [led] ( qurğuşun )* və s.).

Mütləq omonimlər, məsələn, semantikası ilə fərqlənən ümumi səs və qrafik formaya malikdirlər:

*I.Arm – qol*

*II. Arm(s) – silah, silahlar;*

*I. Bay – körfəz ;*

*II. Bay – aralıq, niş;*

*III. Bay – hürmək;*

*IV. Bay – qara quyruqlu , sarı-qırmızı rəngdə at növü;*

*V. Bay – dəfnə, dəfnə ağacı;*

*VI. Bay – bənd.*

Omonimlərin formal tərəfinin üst-üstə düşmə dərəcəsi bizə bütün parametrlərdə uyğun gələn tam omonimləri (*look-baxış – to look-baxmaq* ) və qismən, yalnız bəzi söz formalarında uyğun gələn *(rose-gül ) və ya rose-rise* feilinin 2-ci forması qalxmaq) , başqa söz formaları,əsasən də ismin cəmi və felin məsdəri omonim deyil; oxşar misal olaraq *saw- görmək felinin keçmiş zaman və saw –mişar-ismin təki).* Natamam omonimlərin (onlara bəzən "homoformlar" da deyilir) ingilis dilində sayı çoxdur (12).

Omonimlərin leksik, qrammatik və leksiko-qrammatik omonimlər kimi növləri ayırd edilir. Leksik omonimlər qrammatik cəhətdən eyni, leksik cəhətdən isə fərqlidir, . Qrammatik omonimlərdə semantik birlik var, lakin onlar müxtəlif nitq hissələrinə aiddir, bununla da onlar polisemantik sözdən fərqlənir. Leksik-qrammatik fərqlər həm qrammatik, həm də leksik xüsusiyyətlərə aiddir. Arnold.İ.V. bütün omonimləri omofonlara və omoqraflara bölür, lakin uyğun omonimlərin daha dolğun təqdim etmək üçün onları 12 sinfə ayırmağı təklif edir: (Arnold,1959: 96).

1. Orijinal forması eyni, lakin müxtəlif paradiqmalara malik olan natamam omonimlər (*light-işıq, isim, -light-yüngül, sifət,* );

2. Ayrı-ayrı söz formaları eyni olan, lakin əsli olmayan natamam omonimlər (*might-güc,qüdrət, isim, .,(might- may-modal feilinin 2 ci forması*);

3. Eyni nitq hissəsinə mənsub, birinci formada fərqli, lakin başqa formada üst-üstə düşən sözlər. (*Axe(balta) – axes-(baltalar), axis(ox) -axes;*

4. Eyni ilkin formaya malik müxtəlif leksik anlam, müxtəlif hallarda eyni qrammatik məna.

5. Leksik və qrammatik mənaca fərqli olan, lakin dəyişməz xidmət sözləri olduğundan paradiqma baxımından fərqli olan sözlər (*for-üçün, ön söz, birlik (üçün));*

6. Tam omonimiyanın ən tipik növü fərqli leksik mənadır, lakin omonimlər eyni nitq hissəsinə aiddir (*spring-bahar – spring-sıçrayış, – spring-bulaq, );*

7. Omonimlərin leksik mənasında ümumi komponentin olması (*before (əvvəl) - ön söz, before (əvvəl) - zərf, before (əvvəl) - bağlayıcı);*

8. Daha çox eyniliyə malik söz cütləri. Bir polisemantik sözün variantları hesab edilə bilər;

9. Dönüşüm yolu ilə alınan omonimlər (*eye (göz) isim - eye (nəzərdən keçirtmək, feil).* Alınmış sözün mənasını ilkin sözün mənası məlum olduqda təxmin etmək olar;

10. Ayrı-ayrı nitq hissələrinə aid olan və formalarından biri ilə üst-üstə düşən sözlər. Onların oxşarlığı ümumi nüvəyə əsaslanır *(thought, (fikir) n. - thought(düşünmək feilinin keçmiş zamanı);*

11.Forma fərqi ilə birləşən həm leksik, həm də qrammatik mənada oxşarlıq;

12. Əsasən qoşa cəmli, mənaca bir qədər müxtəlif isimlərdən ibarət kiçik söz qrupu (*brother - qardaş -brothers(qardaşlar), brother-qardaş – brethren- (rahiblər)).*

Bu təsnifatda müəllif uyğun omonimlərlə bağlı halları ətraflı formada araşdırır, çünki bu qrup dildə çox saydadır. Həm də mütləq omonimlərin tərifinin özü müxtəlif variantların mövcudluğundan xəbər verir və mütləq omonimlik hadisəsinin sonrakı tədqiqi üçün imkan yaradır (Dubenes, 2020:33).

Aparılan linqvo-etimoloji təhlil zamanı məlum olmuşdur ki, ingilis dilində omonimlərin sayının artmasına daha çox latın və fransız dillərindən alınmaların əhəmiyyətli təsiri vardır. Alınmalar səbəbindən omonimlərin 30,7%-i ingilis dilində meydana çıxıb. Omonimlərin 28,7%-i morfoloji cəhətdən isim və fel formalarının üst-üstə düşməsi və konversiya yolu ilə yaranmışdır. İngilis dili tarixinin müxtəlif dövrlərində qeydə alınan fonetik proseslər omonim vahidlərin 19,5%-nin meydana gəlməsinə səbəb olmuşdur. Tədqiqatın nəticələrinə görə omonimlərin 6,6%-i abbreviatura səbəbindən yaranıb və sözün abbreviaturası omonimliyə gətirib çıxarıb, başqalarında isə iki qısaldılmış söz omonimləşib. Affiksasiya və mürəkkəbləşmə kimi söz əmələ gətirmə prosesləri omonimlərin 4,6%-ni əmələ gətirmişdir. Polisemiyanın dağılması (polisemantik sözün semantik strukturundan aralıq əlaqələrinin yox olması, yeni mənaların sözün semantik strukturunun qalan hissəsi ilə əlaqəni itirərək müstəqil vahidə çevrilə bilməsi) geniş məna kəsb edən amillərdən biridir.

Omonimliyin daha yaxşı başa düşülməsi üçün aşağıdakı nümunələrə diqqət yetirək:

*Can - (konserv qabı)- can -(modal feil)*

*Wreak - (intiqam) - reek( pis qoxu)*

*Soul - (qəlb) - sole( yalnız)*

*Route - (marşrut)- root - ( sözün kökü)*

*Sent - ( to send feilinin keçmiş zaman forması) - scent - ( aromat)*

*Cell-(hüceyrə)- sell( satmaq)*

*Flat-( mənzil)- flat-( hamar) və s.*

Bəzi alimlərin fikrincə hazırda ingilis dilində omonimlər bütün lüğət fondunun təxminən 16-18%- ni təşkil edir. İngilis dilində bu fenomenin belə intensiv inkişafı bir sıra səbəblərlə bağlıdır. Lakin sözlərin etimologiyasını öyrənən elm adamları tərəfindən araşdırıldığı kimi, başqa dillərdən alınmalar ingilis omonimiyasının inkişafına təsir göstərir. Bu cür alınmaların əksəriyyəti dəyişir. Nəticədə tez-tez fonetik dəyişiklər baş verir (15).

Omonimlərin əmələ gəlməsinin keyfiyyətcə fərqli səbəbi söz əmələ gəlməsi və əsasən də konversiyadır, bunun nəticəsində nitqin bir hissəsi olan söz, hərəkəti ifadə etməyə başlayır. İngilis dilində isim və feil çox vaxt eyni dil formasında ifadə olunur: *drink-içki – to drink-içmək, sup-dəstək – sup- şam yeməyi yemək, dance-rəqs – to dance-rəqs etmək, look-baxış – to look-baxmaq, clap-alqış – to clap- əl çalmaq.* Bunlar leksik-qrammatik omonimlərdir, nitqin bütün hissələrinin sonu olmayan dillər üçün xarakterikdir və bu zaman söz sırası semantik yükə malik olur. Omonimlərin təxminən 28%-i ingilis dilində konversiya üsulu ilə əmələ gəlir. Əvvəldə qeyd etdiyimiz kimi, dili öyrəndikcə biz omoqraflara və ya omofonlara rast gəlirik ki, bunlarla omonimlər arasında çaşqınlıq yaranır. *Omonimlər*

-tələffüz və yazılış cəhətdən eyni olsa da müxtəlif mənaya malikdirlər. Məsələn: *can - (konserv qabı) - can – (modal feil-bilmək), lean-(söykənmək) - lean - (arıq).*

*Omofonlar* – tələffüzü bir, lakin yazılış və mənası müxtəlif olan sözlərdir. Məsələn: *whole- (bütöv)-hole-( deşik), knew- ( bilirdi)- new-( təzə).Omoqraflar* isə yazılışı eyni olan, lakin tələffüzü və mənası fərqli olan ifadələrdir. Məsələn: *entrance- (giriş)- entrance-( heyran etmək), lead-( rəhbərlik etmək)-lead-( donuz balası).*Omonimlərlə yanaşı öyrənilən digər söz qrupu çoxmənalı sözlərdir. Söz ilkin mənasını qoruyub saxlamaqla əlavə məna çalarları qazanırsa və bu mənalarda ilkin mənanın izləri qorunub saxlanırsa, o, çoxmənalı söz hesab olunur. Omonim sözlərdə məna əlaqəliliyi prinsipi gözlənilmir. Son zamanlar omonimiyanın tədqiqinin diqqət mərkəzində saxladığı aktual və hələ də həllini tapmamış məsələlər sırasında polisemiya və omonimiyanın əlaqəsi və qarşılıqlı əlaqəsi məsələsidir, yəni omonimliklə polisemantik sözlərin semantik strukturundan omonimlərin seçilmə meyarları məsələsi. Bu problemə həsr olunmuş ingilis dilində mövcud olan əsərlər sözün semantik sərhədlərini təyin etmək üçün vahid metodologiyanın olmamasının parlaq nümunəsidir. Tanınmış meyarlar: söz yaradıcılığı, sinonimlərin əvəzlənməsi, uyğunluğun müxtəlif təbiəti, "aralıq əlaqə" üsulu, ümumi invariant məna meyarı və digərləri istisnasız olaraq bütün hallarda universal və məqbul hesab edilə bilməz. Bu, leksikoloji tədqiqatda və xüsusən də leksikoqrafik praktikada əhəmiyyətli çətinliklər yaradır, çünki polisemantik sözü - tək işarə kimi və ya iki və ya daha çox işarə kimi - omonimləri təsvir etmək çətinliyi ilə məhz izahlı və ikidilli lüğətlərin tərtibçiləri üzləşir.

Omonimliyə və çoxmənalılığa münasibətdə əsasən iki baxış var. Birinci baxışa görə, omonimlər eyni səslənən, uzun müddət formaca fərqli olan və yalnız inkişaf prosesində müxtəlif fonetik və ümumi təsadüfi səbəblərə görə ümumi səsləşmədə bir-biri ilə üst-üstə düşən sözlərdir. Bərabər material və səs formasının müxtəlif məzmunu da polisemiya kimi qəbul edilir. Digər baxışa görə, omonimlərə ya tarixən fərqlənən sözlər qohumluq təşkil edir, lakin bəzi hallarda fonasiyada müəyyən edilmiş tarixi səbəblərə görə, ya da polisemantik sözün müxtəlif mənaları bir-birindən fərqləndiyi üçün onun maddi forması "qırılır" iki və ya daha çox yeni söz yaranır. Dildə omonim və ya çoxmənalı sözlərin yaranması labüddür. Bunun başlıca səbəbi dilin imkanlarının məhdudluğu, təcrübənin isə nəhayətsizliyidir. Məsələn, ingilis dilində *"eye",* Azərbaycn dilində "*göz"* çoxmənalı sözlərdir: "*insanın gözü, heyvanın gözü, səhərin gözü, bulağın gözü", "the eye of a person" – insanın gözü, "the eye of the needle" – " iynənin gözü"," the eye of the city" – şəhərin gözü* və s.

Çoxmənalılıq (multiple meaning) eyni leksik vahidin malik olduğu mülküdür.. Məhz bu xüsusiyyət çoxmənalı sözü omonimdən fərqləndirir. Məsələn, "*bank"* sözü "*bank*$_1$" – (*əmanət bankı)*; "*bank*$_2$*"* – *(çay kənarı)* mənalarında aşkar leksik omonimlərdir, çünki fərqli məfhumları bildirirlər.

## Nəticə

Araşdırmalardan belə nəticəyə gəlirik ki, müasir İngilis dilində omonimlər problemi hazırda çox aktualdır. Omonimlik sahəsində bəzi problemli sual mövcuddur ki, onlardan da başlıcası omonimlərin və çoxmənalı sözlərin fərqləndirilməsi problemidir. Omonim problemi ilə bir sıra məşhur dilçilər məşğul olmuşlar. Omonimlik problemi hələ də ətraflı araşdırılmasını gözləyir. İşin perspektivlərindən danışaraq, ümid edirik ki, bu məqalə məktəb, lisey və ali təhsil kolleclərində həm ingilis dili müəllimləri, həm də tələbələr tərəfindən tətbiq olunmaq üçün öz layiqli yolunu tapacaqdır.

## Ədəbiyyat

1. Arnold, I.V. (1986).The English Word M. High School pp. 143-149.
2. Arnold, I.V. (1959). Lexicology of Modern English. M. Higher School. pp.212-224.
3. Abayev, V.I. Homonyms. T. O'qituvchi 1981 pp. 4-5, 8, 26-29.
4. Akhmanova, O.S. (1972). Lexicology: Theory and Method. M. pp. 59-66
5. Canon,G. (1986). Historical Changes and English Word formation: New Vocabulary items. Nyuyork, p.284.
6. Dubenets, E.M. (2004). Modern English Lexicology (Course of Lectures), Moscow State Teacher Training University Publishers. pp.17-31.
7. Ignatieva, T.S. (2018). Ways of the emergence of homonymy in the process of conversion on the examples of English and Chuvash languages. Bulletin of the Chuvash University. No. 4.

8. Jespersen,O. (1983). Linguistics. London, pp. 395-412.
9. Smirnitsky, A.I. (1977). Homonyms in English M. pp.57-59,89-90.
10. Longman Lexicon of Contemporary English. Longman. 1981pp. 23-25.
11. Vinogradov, V.V. (1977). Lexicology and lexicography. Selected works. Maskva: pp. 119-122.
12. Internet: http://www.wikipedia.com/English/articles/homonymy.htm
13. Internet: http://www mpsttu.ru/works/english philology/
14. Dubenes E.M. (2020). Kurs leksiy i plani seminarskix zanyatiy po leksikoloqii anqliyskoqo yazika. htm
15. Internet:http://www.freeessays.com/english/M.Bowes Quantitative and Qualitative hom, 2019.

**Rəyçi: fil.ü.f.d. Leyla Xanbutayeva**

Göndərilib: 13.04.2022 Qəbul edilib: 17.05.2022

# TƏBİƏT ELMLƏRİ

## NATURAL SCİENCES

DOI: https://www.doi.org/10.36719/2663-4619/79/191-196

**Yasin Qaibqulu oğlu Gözəlov**
Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu
gozelov.yasin@mail.ru
**Mübariz İslam oğlu Əliyev**
Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu
mubariz.eliyev1957@mail.ru
**Mahirə Qəzənfər qızı Qurbanova**
Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu
qurbanovamahire1971@mail.ru
**Leyla Arif qızı Ələkbərova**
Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu
arifalakbarov@bk.ru

# YERLİ QARAMALIN VƏ YERLİ X SİMMENTAL MƏLƏZLƏRİNİN MƏHSULDARLIQ GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ ÖYRƏNİLMƏSİ

**Xülasə**

Əhalinin heyvandarlıq məhsullarının xüsusən də, mal ətinə olan tələbatının ödəmək məqsədi ilə Respublikamızda xeyli işlər görülür. Bu məqsədlə xarici ölkələrdən ətlik və südlük istiqamətli məhsuldar qaramal cinsləri Holşteyn-friz, Şvis, Simmental, Aberdin-Anqus, Hollavey, Şarole və kimi cinsləri gətirilir və yetişdirilir.

İnkişaf etmiş cəmiyyətlərdə olduğu kimi, Respublikamızda kənd təsərrüfatı sahələrində o cümlədən, iri buynuzlu maldarlıq sahəsində məhsul istehsalı elmi-texniki tərəqqinin müasir tələblərə uyğun şəkildə yəni, intensiv əsaslarla həyata keçirilir.

Heyvandarlığın intensiv üsullarla inkişaf etdirilməsi, bu sahədə çalışan alim və mütəxəssislər qarşısında duran ən vacib bir məsələdir. Çünki əhalinin ən vacib və keyfiyyətli zülalı olan ət, süd və digər bu kimi ərzaq məhsulları məhz heyvandarlıq sahəsində əldə edilir. Ona görə də Azərbaycan xalqını kifayət qədər ekoloji baxımdan təmiz heyvandarlıq məhsulları ilə təmin etmək üçün elmi araşdırmalara böyük ehtiyac var. Bu məqsədlə müxtəlif yetişdirilmə metodlarından istifadə olunur.

Nəzərə alsaq ki, xarici ölkələrdən məhsuldar cins inəklərin gətirilməsi uzun müddət davam edə bilməz, ona görə ki, xaricdən gətirilmiş cinslərin Respublika ərazisində uyğunlaşma qabiliyyəti nisbətən aşağı olduğu üçün həmin heyvanlar müəyyən fəsadlarla rastlaşırlar. Bu isə onların iqtisadi səmərəliliyini aşağı salır. Ona görə də Respublikamızda mövcud olan yerli cinslərin məhsuldarlıq göstəricilərinin artırılması və cins tərkibinin yaxşılaşdırılması üçün dünya təcrübəsində sınaqdan keçirilmiş biotexnoloji üsullardan istifadə etmək məqsədə uyğun hesab edilir.

***Açar sözlər:*** *mələzlər, süd məhsuldarlığı, tez yetişkən, cins tərkibini yaxşılaşdırması, intensiv saxlanma, yeni tip, törədicilərin toxumu*

**Yasin Gozalov Gaibgulu**
**Mubariz Aliyev Islam**
**Mahira Gurbanova Gazanfar**
**Leyla Alakbarova Arif**

# Comparative study of productivity indicators of local cattle and Local X simental hybrids

## Abstract

*A* lot of work is being done in the country to meet the needs of the population in livestock products, especially beef. For this purpose, productive breeds of beef and dairy cattle such as Holstein-Friesian, Swiss, Simmental, Aberdeen-Angus, Hollaway, Charolais and Limousine are imported and bred.

Intensive livestock development is one of the most important issues facing scientists and specialists working in this field. Because meat, milk, eggs and other such food products, which are the most important and high-quality protein for the population, are obtained in the field of animal husbandry. Therefore, there is a great need for scientific research to provide the people of Azerbaijan with environmentally friendly livestock products. Different options are used for this purpose.

As in developed societies, the production of agricultural products in the Republic, including in the field of cattle breeding, is carried out in accordance with the modern requirements of scientific and technological progress, ie on an intensive basis.

Given that the import of productive breeds of cows from abroad cannot last long, because the ability of imported breeds to adapt to the territory of the republic is relatively low, these animals face certain complications. This reduces their economic efficiency.

Therefore, it is considered expedient to use biotechnological methods tested in world practice to increase the productivity of local breeds and improve the sex composition existing in our country.

***Key words:*** *rituals, milk productivity, quickly maturing, improving the composition of the breed, intensive care, new type, the seed of the perpetrators*

## Giriş

Dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycanda aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Proqramın əsas məqsədi ölkədə yeni təsərrüfatçılıq modellərini tətbiq etməklə heyvanların cins tərkibini yaxşılaşdırmaq, məhsuldarlığı artırmaqdır. Proqramın yerinə yetirilməsi nəticəsində heyvan mənşəli məhsulların istehsal həcmi artacaq, yem ehtiyatları, örüş və otlaq sahələri daha səmərəli istifadə ediləcəkdir. Məhsuldarlığın artması fermerlərin gəlirlərinin artmasına, onların maddi rifah halının yaxşılaşmasına da şərait yaradacaqdır.

Hazırda Respublikamızda heyvandarlıq məhsuldarlığına görə tələbat insan sayına görə 84 kiloqramdır. Ölkədə əhalinin ətə olan tələbatı 820 min tondur. İndiki şəraitdə il ərzində adam başına 29-34 kq ət istehsal olunur. Xaricdən gətirilən əti də buna əlavə etsək bu rəqəm 41 kq çatır. Hesablamalar göstərir ki, Azərbaycanın ümumilikdə 68700 tonluq ət idxalının 23800 tonunu mal əti təşkil edir.

İnsanların illik südə olan tələbatı orta hesabla 238,6 kq-dır. Südə görə ozünü təmin etmə səviyyəsi isə 90,9 % -dir. Göründüyü kimi biz yenə də 9,0%-ə qədər xarici idxaldan asılı qalırıq (1).

Araşdırmalar onu deməyə əsas verir ki, biz heyvanların baş sayını artırmaqla ümumi istehsal olunan südün miqdarını artırırıq. Odur ki, mövcud heyvandarlıq təsərrüfatlarında damazlıq işinə, heyvanların qiymətləndirilməsinə xüsusi fikir verilməli, hər inəkdən daha çox süd almağın yolları araşdırılmalıdır. Bunun üçün iribuynuzlu heyvandarlıqda biotexnoloji üsullardan istifadə etməklə mövcud heyvan genofondunun məhsuldarlıq göstəricilərini artırmaq olar.

Birincisi, naxırın cins tərkibinin yaxşılaşdırılması üçün, Respublikaya damazlıq məqsədi ilə xarici ölkələrdən yüksək məhsuldar cins heyvanlarının idxal olunmasıdır.

İkincisi, naxırın cins tərkibinin yaxşılaşdırılması üçün təsərrüfatlarda mövcud olan aşağı məhsuldar heyvanların biotexnoloji üsullardan istifadə etməklə, yüksək məhsuldar cins buğaların toxumu ilə mayalandırılmasıdır (Abbasov, 2011: 640), (Anoxin, 2005: 33), (Antipov, 2009: 70-72).

Əhalinin heyvandarlıq məhsullarına artan tələbatı, yerli malqara ödəmir çünki, yerli qaramal xırda və az məhsuldar, ancaq südünün yağlılıq faizi çox olur. Təbii iqlim şəraitinə və təsərrüfat şəraitinə olduqca

yaxşı uyğunlaşır, ona görə də Respublikamızda yetişdirilən yerli qaramalı yüksək məhsuldar Şvis, Simmental və Qara-ala cinsli buğaların toxumları ilə yaxşılaşdırmaq məqsədə uyğundur.

Bu məqsədlə, 2016-cı ildən başlayaraq Göygöl rayonu Mollacəlilli kəndində yerləşən kəndli fermer təsərrüfatında elmi tədqiqat işi aparılır. Qarşıda qoyulan məqsəd, təsərrüfatımızda mövcud olan az məhsuldar yerli cinslərin məhsuldarlıq göstəricilərinin artırılması və cins tərkibinin yaxşılaşdırılması üçün, ətlik-südlük istiqamətli Simmental cinsinin toxumu ilə mayalandırmaq və dördüncü nəsl mələz heyvanlar almaq, nəticədə yüksək məhsuldar mələz inəklərdən ibarət damazlıq naxır yaratmaqdır.

Simmental cinsi dünyada ən qədim cinslərdən biri hesab edilir. Azərbaycan ərazisinə Simmental cinsi ilk dəfə 1903-cü ildə gətirilmiş, yerli şəraitdə artırılmışdır (şəkil 1). Sonralar yerli qaramalın damazlıq və məhsuldarlıq keyfiyyətlərinin təkmilləşdirilməsi məqsədilə çarpazlaşdırma aparılmış və yerli malın məhsuldarlıq keyfiyyətinin yüksəldilməsində mühüm rol oynamışdır. Eyni zamanda bu cinsdən intensiv yemləmədə də geniş istifadə edilir. İnəklərin canlı kütləsi 550-650 kq, buğaların canlı kütləsi isə 900-1200 kq olur. Qapalı komplekslərdə Simmental cins inəklərdən laktasiya dövründə 3,5-4,0% yağlılığında 6000-8500 litr süd almaq mümkündür (Abbasov, Mehdiyev, Ruşanov, Nəcəfova, Turabov, 2011: 315). Buzovlar doğulduqda 38-40 kq olur. Ətin keyfiyyəti yüksək olur, kökəldilmiş cöngələr 18 aylıqda 650-700 kq canlı kütləyə catır və ətin keyfiyyəti yüksək olur. Yerli şəraitdə dözümlü olur, yaxşı adaptasiya olunurlar (Gözəlov, 2019: 294).

Birinci nəslin mələzləri öz Simmental həmyaşıdlarına nisbətən 450 kq-dan artıq süd verirlər. Simmental cinsi, hazırda dünyanın bir çox yerlərində geniş yayılmasına görə ən aparıcı cins hesab olunur (Polyançev, Afanasev, 2012: 400).



**Şək.1. Simmental cins inək və Simmental cins buğa**

Tədqiqat işində 20 baş yerli inəklər götürülərək həvəsə gəlmə zamanı Simmental buğalarının toxumları ilə mayalandırılmışdır (şəkil 2). Aparılan elmi tədqiqat işi ***M.V.Nazarov, E.A.Qorpinçenko, B.V.Qavrilov (2018) "Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması"*** metodikasına uyğun həyata keçirilmişdir (Nazarov, Qorpinçenko, Qavrilov, 2018: 138).

Simmental cinsi ♂ **x** ♀ Yerli cins

1. $F_1$ (50-50 %)

$F_1$ Simmental cinsi

♀ **x** ♂

2.$F_2$ (25-75 %)

$F_2$ Simmental cinsi

♀ **x** ♂

3.$F_3$ (12,5-87,5%)

F3 Simmental cinsi

♂ **x** ♀

4.$F_4$ (6,25-92,75 %) – Yeni tip

## Şək.2. Yerli qaramal cinslərinin simmentallaşdırılması sxemi

Təcrübə zamanı $F_1$ nəsl 3 aylıq mələzlərin boy və inkişafı yerli buzovla müqayisəli şəkildə öyrənilmişdir (şəkil 3; cədvəl 1).




**Şək.3. Buzovların bədən ölçülərinin götürülməsi**

**Cədvəl 1.Yerli və mələz buzovların bədən ölçüləri göstəriciləri**

| S/s | Göstəricilər | Yerli buzov, sm | $F_1$ nəsl mələz buzov, sm |
|---|---|---|---|
| 1 | Cidov hündürlüyü | 80 | 99 |
| 2 | Bədənin duz uzunu | 82 | 101 |
| 3 | Bədənin çəp uzunu | 94 | 120 |
| 4 | Döş qucumu | 92 | 126 |
| 5 | İncik qucumu | 12 | 16 |
| 6 | Canlı kütləsi, kq | 110 | 135 |

Tədqiqat nəticəsində aydın olur ki, alınan birinci nəsl $F_1$ mələz buzov, daha erkən yetişir və möhkəm konstitusiyaya malik olur (cədvəl 2). Yetişdirmə zamanı heyvanlara uyğun qidalanma və saxlanma şəraiti yaradılarsa, onların məhsuldarlıq və digər faydalı göstəriciləri valideyn formalarından xeyli üstün olur ki, bu da carpazlaşma zamanı yaranmış olan heterozis hadisəsi nəticəsində baş verir (Korovko, 2009: 114), (Burenin, 2016: 310).

**Cədvəl 2. Yerli ana mal və $F_1$ nəsl ana malın bədən ölçülərinin müqayisəli göstəriciləri, sm**

| S/s | Bədən ölşüləri, sm | $F_1$ nəsl ana mal *İn.№809210* | Yerli ana mal *İn.№1080116* |
|---|---|---|---|
| 1 | Cidov hündürlüyü | 134 | 115 |
| 2 | Sağrı hündürlüyü | 137 | 121 |
| 3 | Döş qucumu | 175 | 167 |
| 4 | Döşün eni | 40 | 38 |
| 5 | Bədənin çəpuzunu | 160 | 153 |
| 6 | Arxanın eni | 47 | 38 |
| 7 | Alının eni | 24 | 20 |
| 8 | Alının uzunluğu | 48 | 45 |
| 9 | İncik qucumu | 20 | 17 |

Heyvanların yemləndirilməsində yemləmənin təşkilinin əhəmiyyəti böyükdür. Yemləndirmə bir qayda olaraq tam qiymətli olmalı yəni, normaya uyğun olaraq heyvanların qida maddələrinə olan ehtiyyacını ödəməlidir (Daşkovski, 2009: 10-12), (Dankvert, Caparilze, 2010: 2-5).

Odur ki, təcrübə və nəzarət qrupunda olan heyvanlar gün ərzində eyni yemlərlə yemləndirilmiş və 1 başa 36 kq yem nəzərdə tutulmuşdur (cədvəl 3).

**Cədvəl 3. Gün ərzində inəklərin yem payı, kq**

| Yem adı | Miqdarı | Dəyəri, man. |
|---|---|---|
| Arpa yarması | 2,0 | 1,0 |
| Buğda kəpəyi | 4,0 | 1,20 |
| Pambıq şrotu | 1,50 | 0,54 |
| Qarğıdalı yarması | 0,50 | 0,25 |
| Yonca otu | 8,0 | 1,60 |
| Yaşıl ot | 20,0 | 2,0 |
| Cəmi: | 36,0 | 6,59 |

1 ay ərzində süd sağımına nəzarət edilmiş, alınan nəticələr müqayisə edilmişdir (cədvəl 4, şəkil 4).

**Cədvəl 4. Alınan nəticələrin müqayisəli göstəriciləri**

| S\s | Göstəricilər | Yerli malda, 2 baş üçün | Mələz malda, 2 baş üçün | Fərq |
|---|---|---|---|---|
| 1 | 1 ay ərzində yeyilən yem, kq | 2160 | 2160 | - |
| 2 | 1 ay ərzində sağılan süd məhsuldarlığı, litr | 422,2 | 1494,6 | 1072,4 |
| 3 | Yemin dəyəri, man | 395,28 | 395,28 | - |
| 4 | 1 litr südün satış qiyməti, qəp. | 55 | 55 | - |
| 5 | Süd satışından 1 ay ərzində əldə edilən gəlir, man | 232,21 | 822,0 | 589,79 |




**Şək.4. Alınan nəticələrin müqayisəli göstəriciləri diaqıraması**

## Nəticə

1. Tədqiqat zamanı 1 ay ərzində yerli maldan 422,2 lt, mələzlərdən isə 1494,6 lt süd sağılmışdır.

2. 1 ay ərzində yerli heyvanların yediyi yemin dəyərini həmin heyvanlardan alınan südün satışından alınan gəlir ödəmir. Burada 163,0 man. ziyan olmuşdur. Lakin mələz heyvanlarda bu göstəricidə 426,72 man. xeyir olmuşdur.

3. Mələz heyvanlardan ay ərzində yerli heyvanlara nisbətən 1072,4 litr artıq süd alınmışdır və 589,79 man. artıq gəlir əldə edilmişdir.

## Ədəbiyyat


1. Agriculture of Azerbaijan. Statistical collection Baku :, 9 issues. Small business. 2020, 654 p.
2. Abbasov, İ.D. (2011), Food security and priority areas of agriculture. Baku :, “Science and education”.
3. Anokhin, N. (2005), Iuvencae Holsteinized variae genotypes. // Animal agricultura in Russia. M.: OOO Animal Husbandry, №6, p.33.
4. Antipov, V.A, Sapunov A.Ya, Turchenko A.N, Basova N.Yu. (2009), Problemata accommodationis de importatis pecoribus lacticiniis. // Bulletin of the Russian Academy of Agricultural Sciences. M.:, Media Sphera, №5, p.70-72.
5. Abbasov, S.A, Mehdiyev M.A, Rushanov A.A, Najafova G.K, Turabov U.T. Livestock. Part I, Ganja :,(2011), Ganja Polygraphy OJSC, 315 p.
6. Gozalov, Y.Q.. Animal information book. Ganja :, STAR printing house, 2019, 294p.
7. Polyantsev, N.I, Afanasiev A.I. (2012), Obstetrica, gynecologia et biotechnologia
8. reproductionis animalis. Petropoli:, Lan, 400 p.
9. Korovko, V.I. (2009), Technologiae modernae pro vitulis obtinendis et conservandis. Adhortatio scientifica et practica pro longinquo studiosorum specialitatis studiorum "Zootechnicis" et "Medicinae Veterinariae", studiosorum provectioris exercitationis pro zooengineis et veterinariis. Ussuriysk:, Academiae Agricultural Primorsky State, 114 p.
10. Burenin, N.L. (2016), Enchiridion Animalis Husbandry. Moskva: Kolos.
11. Nazarov M.V. (2018), Gorpinchenko E.A, Gavrilov B.V. Artificialis inseminatio pecudum: artem. Beneficium. Krasnodar: KubGAU.
12. Dashkovsky I. (2009), Russia principale mundi importator est carnium et butyrum. // dux pecorum artifex. M.: "Panorama" Moscow. No. 1.
13. Dankvert A.G, Dzhaparidze T.G.(2010), Lactis planities sumptio est salus gentis.
14. // Lacticiniis et bubulis bubus admissae. M.: "Press Russiae", №2, p.2 - 5


**Rəyçi: t.ü.f.d. Aidə Əsgərova**

Göndərilib: 09. 04.2022 Qəbul edilib: 26.05.2022

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Hörmət Qəmbərəli Cavadova, Gülzar Qəmbərəli Xanbabayeva**
Müasir pedaqogikanın metodoloji problemləri ........................................................................ 7
**Ramazan Əzizxan oğlu Eyyubov, Səbinə Elman qızı Əzizova,**
**Şəhribani Əskər qızı Manafova, Dilarə Məmməd qızı Məmmədova**
İbtidai siniflərdə kəmiyyətlərin ölçülməsinin öyrədilməsi metodikası ...................................... 13
**Sərvinaz Məmmədhəsən qızı Xanlarzadə, Vüqar Mikayıl oğlu Sədiyev**
Şuşa şəhərinin turistik potensialının təhlili ............................................................................ 20
**Ulvi Alafsar Mammadov**
Transformation and discuption of the sustainability of natural ecosystems
as a result of antropogenic impacts ......................................................................................... 25
**Ulkar Yagub Aliyeva**
The importance of business communication ........................................................................... 30
**Shafag Alafsar Nasibova**
Business and academic communication in tourism .................................................................. 36
**Ülviyyə Tofiq qızı Yusubova**
Numerativ söz və ifadələrin funksional üslublardakı yükü ...................................................... 41
**Rəsmiyyə İsrayıl qızı Əmiraslanova**
Süni intellektin tətbiqi ilə informasiya təhlükəsizliyi risklərinin
qiymətləndirilməsi metodikası ................................................................................................ 50
**Gunay Elshan Bahmanli**
Suggestions on work to be done in Karabakh region in the framework of
sustainable development .......................................................................................................... 55
**Rübabə Elsəvər qızı Həsənli**
1950-1990-cı illərdə alınma sözlərin tədqiqi ilə bağlı məsələlər ............................................... 59
**Fərid Azər oğlu Rüstəmli**
Bələdiyyə fəaliyyətinin formalaşması ....................................................................................... 64
**Elvin Elçin oğlu Mirzəyev**
Pul-kredit siyasətinin inkişafında bankların rolu və kreditləşdirmənin iqtisadi
mahiyyəti və elektron bankçılığın inkişafı ................................................................................ 72
**Nurbəy Vahid Fərzəliyev**
İbtidai və antik dövrlər dini abidələrinin bədii tərtibatı ............................................................ 77
**Khavar Ali Babayeva**
History, types and role of insurance in the economy ................................................................ 82
**Ülkər Aydın qızı Möhnətova**
Sığorta şirkətlərinin kapitalının formalaşma mənbələri və
qiymətləndirmə xüsusiyyətləri ................................................................................................. 87
**Leyla Qabil qızı Məmişova**
Qlobal dünya iqtisadiyyatında kiçik sahibkarlığın sosial və iqtisadi əhəmiyyəti ........................ 92
**İlqar Bayraməli oğlu Əsgərli**
Kommersiya banklarının idarəetmə və təşkilati strukturu ......................................................... 97
**Aytən Şirvan qızı Mirəliyeva**
Bölgənin inkişafı üçün Qarabağın investisiya və innovativ potensialının həyata
keçirilməsi istiqamətləri ........................................................................................................... 103
**Aidə Rəşid Namazova**
Koronavirus pandemiyasının (COVID-19) kiçik biznesə və onun
sosial-iqtisadi nəticələrinə təsiri ............................................................................................... 110

**Turqut Mayis oğlu Hacızadə**
Heyvandarlıq təsərrüfatlarında mühasibat uçotunun nəzəri və praktiki əsasları ......................... 117
**Fərid Müşfiq oğlu Qafurlu**
Qarabağda sənaye müəssisələrinin innovativ fəaliyyəti ............................................................ 122
**Ləman Vaqif qızı Dibirova**
Dövlət və yerli özünüidarəetmə orqanları və onların fəalliyyət istiqamətlərinin
nəzəri və metodoloji əsasları ........................................................................................................ 127
**Çinarə Rəhim qızı Nərimanova, Natiqə Rəhim qızı Süleymanlı**
Kimya terminlərinin məişət üslubunda əksi .................................................................................. 132
**Murad Mahammadali Aghayarov**
The relevance of Non-Aligned Movement and the role on the security
policy of Azerbaijan ....................................................................................................................... 139
**Pünhan Nizami oğlu Quliyev**
Qarabağ iqtisadi rayonunda turizmin yaradılmasının qarşılaşa biləcəyi potensial
problemlər və onların həlli ............................................................................................................. 145
**Tamara Valeh qızı Süleymanova**
Bank fəaliyyətinin effektivlik göstəriciləri ................................................................................... 151
**Aydın Muraz Musayev**
The impact of financial centers on the development of global financial makets ........................ 158
**Toghrul Sahib Hummatli**
Ecotourism and medical tourism perspectives in the east Zangezur region ............................... 165
**Javidan Natig Badalov**
Effects of the COVID-19 pandemic on the tourism industry ..................................................... 170
**Sinan Diyar Cəfərzadə**
Qarabağ iqtisadi rayonunun davamlı inkişafının təmin edilməsinin prioritetləri ....................... 177
**Aynur Humay qızı Bayramlı**
İngilis dilində omonimlərin struktur-semantik xüsusiyyətləri ................................................... 185

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCİENCES

**Yasin Qaibqulu oğlu Gözəlov, Mübariz İslam oğlu Əliyev,**
**Mahirə Qəzənfər qızı Qurbanova, Leyla Arif qızı Ələkbərova**
Yerli qaramalın və yerli X simmental mələzlərinin məhsuldarlıq
göstəricilərinin müqayisəli öyrənilməsi ........................................................................................ 191

---

İmzalandı: 17.06.2022
Kağız formatı : 60/84
H/n həcmi: 21,25 ç.v.
Sifariş: 533

"ZƏNGƏZURDA" çap evində çap olunub
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru